RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 272 (10017) 26 dekabr 2025-ci il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Qətiyyətin təntənəsi

## İlham Əliyev Vətən müharibəsində Azərbaycanın hansı qüvvələrə qalib gəldiyini bir daha xatırlatdı

Prezident işğal dövründə Ermənistana göstərilən hərbi dəstəkdən də söz açdı. İqtisadi cəhətdən tənəzzülə uğramış bir ölkənin çox baha qiymətə hərbi texnikalar, silah-sursatlar alması, əlbəttə ki, qeyri-mümkündür. Amma 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun məhv etdiyi, qənimət götürdüyü texnikalar bir daha göstərdi ki, işğalçı ölkəyə havayı yardımlar edilib.

Araşdırmalar göstərirdi ki, Ermənistan dayanmadan silahlanır. Hansı ölkədən hansı silahların alındığı, pay verildiyi də Azərbaycana bəlli idi. 1998-ci ildə Rusiya tərəfindən Ermənistana 1 milyard dollar məbləğində silah-sursat verilməsi, bu prosesin sonrakı illərdə müntəzəm qaydada davam etməsi yalan deyildi.

Azərbaycanın işğal olunduğu ərazilərində Ermənistan hərbi qüvvələrinin xidmət göstərdiyi hamıya bəlli olsa da, buna görə Ermənistana qarşı heç bir tədbir, sanksiya həyata keçirilmirdi.

Bu gün dünyada müxtəlif yerlərdə müharibələr, toqquşmalar, münaqişələr baş alıb gedir. Ya beynəlxalq təşkilatlar, ya da böyük nüfuzlu ölkələr dərhal nə edirlər? Sanksiyalar tətbiq edirlər. Çünki sanksiyaların böyük təsiri var. Xüsusilə Ermənistan kimi kiçik və zəngin olmayan, demək olar ki, kasıb ölkəyə əgər sanksiyalar tətbiq edilsəydi, Ermənistan işğala son qoyardı. Ancaq nəinki sanksiyalar tətbiq edilmədi, əksinə, onlara bəziləri pulsuz silahlar verirdi, özü də bir milyon dollarlıq yox, milyardlarla dollar dəyərində...

Prezident dedi ki, həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı nəticəsində Ermənistandan qənimət kimi götürdüyümüz və məhv etdiyimiz silahların pul dəyəri təqribən 5-6 milyard dollardır. Bunların dağılmış bəzi nümunələri Bakıda Hərbi Qənimətlər Parkında nümayiş etdirilir, o cümlədən "İsgəndər M" ballistik raketi, hansı ki, ümumiyyətlə, Ermənistanda olmamalı idi. Çünki "İsgəndər M" raketinin ixracı qadağandır. Əgər belə demək mümkündürsə, ixraca açıq olan "İsgəndər E", yəni eksport növüdür. "İsgəndər M" raketi necə Şuşaya zərbə endirdi? Elə bu, böyük sualdır. Yəni pulsuz silah, maliyyə yardımı...

"Bax, görün biz kimlərlə kəllə-kəllə getmişik. Biz görün Ermənistana olan hansı dəstəyin fonunda İkinci Qarabağ müharibəsində Qələbə qazanmışıq. Yəni ona görə bütün bunlar, necə deyərlər, həm düzgün çatdırılmalıdır, həm də bizim təhsil müəssisələrimizdə, ictimai məkanda dəqiq təqdim edilməlidir, yəni bu unudulmamalıdır və biz də heç vaxt unutmamalıyıq", - deyə Prezident vurğulayıb.

8

## Prezident İlham Əliyev AZAL təyyarəsinin qəzaya uğramasının ildönümü ilə bağlı paylaşım edib




Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus "Embraer 190" təyyarəsinin qəzaya uğramasının birinci ildönümü ilə bağlı sosial media hesablarında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir.

## Birinci vitse-prezident Mehriban Əliyeva AZAL təyyarəsinin qəzaya uğramasının ildönümü ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Azərbaycan Hava Yolları"na məxsus təyyarənin qəzaya uğramasının birinci ildönümü ilə bağlı sosial media hesablarında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir.

## Avropa Parlamenti siyasi məkr yuvası olduğunu bir daha təsdiq etdi

Azərbaycan hansısa uğura imza atanda korrupsiya və siyasi məkr yuvası olan Avropa Parlamenti mütləq ölkəmizə qarşı heç bir siyasi çəkisi və mənası olmayan qətnamə qəbul edir. Azərbaycanın regionda sülhü təmin etdiyi bir vaxtda AP-nin dekabrın 18-də Azərbaycanla bağlı növbəti dəfə qətnamə qəbul etməsi bir daha bu qurumun riyakarlığını göstərir. Azərbaycan Respublikası Milli Məclisinin bəyanatında deyildiyi kimi, yalan məlumatlar və saxta iddialar üzərində qurulan, konkret cinayət əməllərinə siyasi don geyindirən bu sənəd qanunun aliliyinə kölgə salmaq və məhkəmə proseslərinə kobud müdaxilə etmək üçün göstərilən növbəti uğursuz cəhddir. Görünən odur ki, anti-Azərbaycan ritorikasından əl çəkə bilməyən Avropa Parlamenti bir daha siyasi riyakarlıq nümayiş etdirərək, insan hüquqları kimi önəmli mövzudan öz gizli gündəliyi və təxribatçı məqsədləri üçün istifadəyə davam edir.

AP-nin indiyə qədər Azərbaycanla bağlı qəbul etdiyi bütün qətnamələr yalan məlumatlar və saxta iddialar üzərində qurulub. Qurum indiyə qədər Azərbaycana dair 40-a yaxın qətnamə qəbul edib. Amma onların heç birində həqiqətə yaxın olan belə fikir tapmaq mümkün deyil. Hər bir belə qətnamə reallıqla, ümumiyyətlə, bağlı olmayan məlumatlara əsaslanıb.

Və qeyd edildiyi kimi, belə qondarma qətnamələri AP Azərbaycan uğurlara imza atanda qəbul edib.

10



## Ağ damlı şəhərə həyat qayıdır - ilk köç, ilk qayıdış

İlham Əliyev öz ad günündə - bu ilin 24 dekabrında Ağdam şəhərinə ilk köçün, ilk qayıdışın baş verdiyi, həyatın döndüyü tarixi gündə ağdamlıların yurd sevincini onlarla birlikdə yaşadı. Öz əlləri ilə yeni evlərinin açarlarını təqdim etdiyi sakinlərin əziz qonağı oldu, Qarabağın şan-şöhrətli şəhərindən, "Bu gün Ağdam rayonunda artıq həyat bərpa edilir", - deyə qürurla bəyan etdi.

Azərbaycan xalqı olaraq cəmi bir neçə il əvvələ qədər bir həyat nişanəsi belə tapmaq mümkün olmayan, məzarlıqları yerlə yeksan edilən Ağdamın ağ günlərinə şahidlik etməyimizin özü İlahi ədalətin yerini tapmasının təzahürü kimi qəlblərimizi fərəhləndirir. Birinci Qarabağ müharibəsində qəhrəmanlıqla düşmənlə layiqli mübarizə aparan Ağdam rayonu 6 mindən çox şəhid verdi, işğal zamanı ən dəhşətli talanla, dağıntılarla üzləşdi. Ağdam xarabazarlığa döndərildi, başdan-başa mina tarlasına çevrildi.

7



## Güc hüquqda, sabitlik qanunda, gələcək milli iradədədir




Ulu Öndərin müəyyən etdiyi humanist hüquq siyasəti sonrakı dövrlərdə Prezident İlham Əliyev tərəfindən ardıcıl və uğurla davam etdirilib. Eyni zamanda Heydər Əliyev Fondu və onun prezidenti, Birinci vitse-prezident Mehriban xanım Əliyeva da deputatlıq fəaliyyəti dövründə bu irsə sadiq qalaraq bir sıra amnistiya təşəbbüsləri ilə çıxış edib. Son 30 il ərzində imzalanmış 71 əfv fərmanı ilə 10 mindən artıq məhkum azadlığa buraxılıb, 12 amnistiya qərarı isə 130 mindən çox şəxsə şamil olunub.

Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin qanunvericilik təşəbbüsü qaydasında genişmiqyaslı amnistiya qərarı layihəsini Milli Məclisə təqdim etməsi və qəbulu dövlətimizin Konstitusiya ilə elan olunmuş insan hüquqlarına hörmət, humanizm və qanunun aliliyi prinsiplərinə sadiqliyini bir daha nümayiş etdirdi.

9

# Azərbaycan Respublikasının daxili qoşunları haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci və 20-ci bəndlərinə uyğun olaraq Azərbaycan Respublikasının konstitusiya quruluşunun, suverenliyinin, habelə ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunması sahəsində Azərbaycan Respublikası daxili qoşunlarının (bundan sonra-daxili qoşunlar) fəaliyyətini, hüquq və vəzifələrini, həmçinin daxili qoşunların idarə olunmasının hüquqi əsaslarını müəyyən edir.

### 1-ci fəsil
### ÜMUMİ MÜDDƏALAR

#### Maddə 1. Əsas anlayışlar

1.1. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.1.1. **daxili qoşunlar** - Azərbaycan Respublikası Silahlı Qüvvələrinin tərkib hissəsi olmaqla, bu Qanunun 4-cü maddəsində nəzərdə tutulan fəaliyyət istiqamətlərini həyata keçirən və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) vahid sisteminə daxil olan silahlı birləşmə;

1.1.2. **döyüş texnikası** - silah kompleksindən və onun daşıyıcısından ibarət olan hərbi texnika;

1.1.3. **fəal mühafizə vasitələri** - hücumun, müqavimətin, tabe olmama hallarının qarşısını almaq məqsədilə tətbiq edilən psixofizioloji təsir vasitələri (xüsusi silahlar, rezin dəyənəklər, əl-qolu bağlama vasitələri, işıq-səs və elektroşok cihazları, xüsusi təyinatlı gözyaşardıcı qaz, tüstü, xidməti itlər və atlar);

1.1.4. **fərdi qoruyucu mühafizə vasitələri** - şəxsi heyəti xidməti vəzifələrinin icrası zamanı onlara qarşı edilən qəsdlərdən qoruyan vasitələr (qoruyucu dəbilqələr, canqoruyucular, güllə və zərbəyə qarşı qalxanlar, əleyhqazlar);

1.1.5. **fiziki qüvvə** - insan əzələlərinin gərilməsi nəticəsində yaranan güc vasitəsilə mexaniki təsir göstərmək qabiliyyəti;

1.1.6. **xüsusi əməliyyat** - müəyyən edilmiş ərazidə və müddətdə tapşırıq və plan üzrə vahid rəhbərlik altında keçirilən tədbirlər kompleksi;

1.1.7. **xüsusi əməliyyatların keçirilməsini təmin edən vasitələr** - qrup halında basqının, müqavimətin, tabe olmama hallarının qarşısının alınmasında, keçilməz sədlərin dağıdılmasında, kütlənin, avtonəqliyyat vasitələrinin məcburi dayandırılmasında və ya onların hərəkətinin məhdudlaşdırılmasında təsir gücü kimi istifadə olunan xüsusi texnika;

1.1.8. **xüsusi silah** - xüsusi təyinatlı gözyaşardıcı qaz, tüstü və rezin gülləli, rezin qırmalı patronların və qumbaraların tətbiqi üçün istifadə olunan atıcı qurğu və vasitələr;

1.1.9. **xüsusi texnika** - daxili qoşunların xidməti vəzifələrinin icrası zamanı taktiki üsullara uyğun istifadə olunan texniki vasitələr, sistemlər, qurğular, zirehli, xüsusi təyinatlı maşınlar və avadanlıqlar;

1.1.10. **xüsusi vasitələr** - fərdi qoruyucu mühafizə, fəal mühafizə və xüsusi əməliyyatların keçirilməsini təmin edən vasitələr;

1.1.11. **obyektlərin mühafizəsi** - obyektlərin təhlükəsizliyinin təşkilinə, orada olan şəxslərin həyat və sağlamlığının qorunmasına yönəlmiş tədbirlər.

1.2. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunmuş mənaları ifadə edir.

#### Maddə 2. Daxili qoşunlar haqqında Azərbaycan Respublikasının qanunvericiliyi

2.1. Daxili qoşunlar haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanunundan, bu Qanundan və daxili qoşunların fəaliyyətini tənzimləyən digər normativ hüquqi aktlardan ibarətdir.

2.2. Fövqəladə və ya hərbi vəziyyət rejiminin təmin olunması, habelə sosial xarakterli fövqəladə mühit rejiminin tətbiqi ilə bağlı daxili qoşunların fəaliyyəti "Fövqəladə vəziyyət və sosial xarakterli fövqəladə mühit haqqında" və "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir.

#### Maddə 3. Daxili qoşunların fəaliyyətinin əsas prinsipləri

3.1. Daxili qoşunların fəaliyyətinin əsas prinsipləri aşağıdakılardır:

3.1.1. qanunun aliliyi, humanizm, qanun qarşısında bərabərlik, insan və onun konstitusion hüquq və azadlıqlarına hörmət;

3.1.2. vahid və mərkəzləşdirilmiş rəhbərlik;

3.1.3. daxili qoşunların hərbi quruculuq tədbirlərinə və fəaliyyətinə nəzarət;

3.1.4. beynəlxalq hərbi quruculuq təcrübəsindən səmərəli istifadə;

3.1.5. döyüşə və səfərbərliyə daimi hazırlıq;

3.1.6. döyüş potensialının müasir hərbi elmin və texnikanın ən yeni nailiyyətləri səviyyəsində saxlanılması, texniki bazanın daima yenilənməsi;

3.1.7. dövlət sirrinin qorunması;

3.1.8. hərbi intizamın möhkəmləndirilməsi;

3.1.9. şəxsi heyətdə Azərbaycan Respublikasına, Azərbaycan xalqına, hərbi anda sədaqət hissinin, öz Vətəninin tarixinə və ənənələrinə dərin məhəbbətin, Vətənin müdafiəsi naminə yüksək şəxsi məsuliyyətin formalaşdırılması;

3.1.10. daxili qoşunlarda siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və dini qurumların yaradılmasının və fəaliyyətinin qadağan edilməsi;

3.1.11. gənclərdə hərbi xidmətə marağın yüksəldilməsi.

#### Maddə 4. Daxili qoşunların fəaliyyət istiqamətləri

4.1. Daxili qoşunların fəaliyyət istiqamətləri aşağıdakılardır:

4.1.1. konstitusiya quruluşunun, suverenliyin, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində iştirak etmək;

4.1.2. terrorçuluğa və dini ekstremizmə qarşı mübarizədə iştirak etmək;

4.1.3. fövqəladə və ya hərbi vəziyyət rejiminin təmin edilməsində, fövqəladə vəziyyətin, habelə sosial xarakterli fövqəladə mühit rejiminin tətbiqinə səbəb olmuş halların nəticələrinin aradan qaldırılmasında iştirak etmək;

4.1.4. Azərbaycan Respublikası ərazisinin müdafiəsində iştirak etmək;

4.1.5. bu Qanunun 4.1.1 - 4.1.4-cü maddələrində nəzərdə tutulan fəaliyyət istiqamətlərinə uyğun olaraq aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən mühafizə olunan obyektlərin mühafizəsində iştirak etmək.

#### Maddə 5. Daxili qoşunların tərkibi

5.1. Daxili qoşunların tərkibi aşağıdakılardan ibarətdir:

5.1.1. idarəetmə orqanı;

5.1.2. daxili qoşunların funksional vəzifələri üzrə hərbi hissələr və bölmələr;

5.1.3. xüsusi təyinatlı təhsil müəssisələri;

5.1.4. təminat hərbi hissə və bölmələri.

### 2-ci fəsil
### DAXİLİ QOŞUNLARIN FƏALİYYƏTİNİN TƏMİN EDİLMƏSİ

#### Maddə 6. Daxili qoşunların fəaliyyəti ilə bağlı dövlət orqanlarının səlahiyyətləri

6.1. Bu Qanunun 8-ci maddəsi nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum):

6.1.1. daxili qoşunların strukturunu, ali hərbi rütbəli vəzifələrin siyahısını və ümumi say tərkibini təsdiq edir;

6.1.2. daxili qoşunların hərbi qulluqçularını vəzifəyə təyin və vəzifədən azad edir, onları həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxır;

6.1.3. daxili qoşunların hərbi qulluqçularına hərbi rütbələr verir;

6.1.4. daxili qoşunların hərbi hissələrini və hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil müəssisəsini yaradır və ləğv edir, o cümlədən həmin təhsil müəssisəsinin nizamnaməsini təsdiq edir;

6.1.5. daxili qoşunların, onun xüsusi təyinatlı ali təhsil müəssisəsinin və hərbi hissələrinin döyüş bayraqlarının, habelə daxili qoşunların embleminin, hərbi qulluqçuların hərbi geyim formasının, fərqləndirmə nişanlarının əsasnamələrini və onların təsvirlərini təsdiq edir;

6.1.6. daxili qoşunları fövqəladə və ya hərbi vəziyyət, habelə sosial xarakterli fövqəladə mühit rejiminin təmin edilməsinə cəlb edir;

6.1.7. daxili qoşunların hərbi şurasının əsasnaməsini təsdiq edir və onun tərkibini müəyyən edir;

6.1.8. daxili qoşunların hərbi qulluqçularını və mülki işçilərini Azərbaycan Respublikasının dövlət mükafatları və təltifləri ilə, o cümlədən fəxri adlarla təltif edir;

6.1.9. daxili qoşunların səfərbərlik tapşırıqlarını müəyyənləşdirir, səfərbərlik və müharibə dövründə dövlət orqanları (qurumları) və yerli özünüidarəetmə orqanları tərəfindən daxili qoşunların maddi-texniki vasitələrlə təmin olunması barədə qərar qəbul edir;

6.1.10. daxili qoşunların çağırışçılarla, qanunla nəzərdə tutulmuş halda hərbi vəzifəlilərlə, habelə səfərbərlik zamanı, müharibə (silahlı münaqişə) dövründə hərbi nəqliyyat vasitələri ilə, eləcə də mülki heyət vəzifələrində işləmək üçün vətəndaşlarla komplektləşdirilməsini həyata keçirir;

6.1.11. daxili qoşunlara bilavasitə rəhbərlik edir və onlara həvalə olunmuş vəzifələrin icrası zamanı qanunçuluğa riayət edilməsini təmin edir;

6.1.12. daxili qoşunların strukturu, ali hərbi rütbəli vəzifələrin siyahısı və ümumi say tərkibi barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdimat verir;

6.1.13. daxili qoşunların inkişaf, səfərbərlik, yerləşdirmə və tətbiq planlarını təsdiq edir;

6.1.14. daxili qoşunların idarəetmə orqanında hərbi və mülki vəzifələr üçün, o cümlədən xüsusi təyinatlı təhsil müəssisələrinin, hərbi hissə və bölmələrin polkovnik və polkovnik-leytenant vəzifələri üçün nəzərdə tutulmuş ştatları təsdiq edir və onlarda dəyişiklik edir;

6.1.15. hərbi xidmətdə olmağın son yaş həddinə çatmamış ehtiyatda olan zabitləri, habelə ilk zabit hərbi rütbəsi verilməklə həqiqi hərbi xidmətdə olan hərbi qulluqçuları, ehtiyatda olan hərbi vəzifəliləri və qadınları zabitlərin həqiqi hərbi xidmətinə qəbul edir;

6.1.16. müddətli həqiqi hərbi xidmətə çağırılan şəxslərin daxili qoşunlarda xidmətini və ehtiyata buraxılmasını təşkil edir;

6.1.17. xidməti vəzifələrinin icrası zamanı daxili qoşunların həlak olmuş, ölmüş, xəbərsiz itkin düşdüyünə görə məhkəmə qərarı ilə ölmüş elan edilmiş, əlilliyi müəyyən edilmiş hərbi qulluqçularının ailə üzvlərinin sosial şəraitinin yaxşılaşdırılmasına köməklik göstərir, habelə onların maddi və məişət məsələlərinin həlli üçün normativ hüquqi aktlara uyğun tədbirlər görür;

6.1.18. daxili qoşunların və daxili işlər orqanlarının birgə fəaliyyətini təşkil edir;

6.1.19. ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi vəzifələrinin yerinə yetirilməsinə xüsusi və əməliyyat təyinatlı, mühafizə və təminat hərbi hissə və bölmələrini, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrini cəlb edir;

6.1.20. hərbi hissələrin daimi yerləşdiyi ərazilərdən kənarda fəaliyyətinə dair qərar verir;

6.1.21. qanuna uyğun olaraq daxili qoşunların hərbi qulluqçularını və mülki işçilərini intizam məsuliyyətinə cəlb edir;

6.1.22. icrası məcburi olan əmrlər, sərəncamlar və göstərişlər verir, onların icrasına nəzarəti təşkil edir;

6.1.23. Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq daxili qoşunların fəaliyyətinə aid digər məsələləri həll edir.

#### Maddə 7. Daxili qoşunların fəaliyyətinin təmin edilməsi tədbirləri

7.1. Dövlət orqanları (qurumları) və yerli özünüidarəetmə orqanları daxili qoşunların qanunla müəyyən olunmuş fəaliyyətinin təmin edilməsi üçün onlara kömək göstərməlidirlər.

7.2. Xüsusi əməliyyat keçirilərkən, habelə fövqəladə və ya hərbi vəziyyət rejiminin təmin edilməsi və fövqəladə vəziyyətin, habelə sosial xarakterli fövqəladə mühitin tətbiqinə səbəb olmuş halların nəticələrinin aradan qaldırılması vəzifələri yerinə yetirilərkən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarına əsasən həmin ərazidə dövlət orqanları (qurumları), mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatlar ödənişsiz olaraq ilk növbədə:

7.2.1. hərbi qulluqçularının və maddi-texniki vasitələrinin daşınmasına nəqliyyatın bütün növləri, o cümlədən hərbi hava nəqliyyatı vasitələri ilə daxili qoşunlara kömək göstərirlər, dəmiryol stansiyalarında, hava və su limanlarında onların saxlanılması üçün yerlər ayırırlar və ya nəqliyyat vasitələrini daxili qoşunların müvəqqəti istifadəsinə verirlər;

7.2.2. idarəetmə sisteminin və fasiləsiz əlaqənin yaradılması üçün daxili qoşunlar üçün rabitə xətləri və kanalları ayırırlar.

### 3-cü fəsil
### DAXİLİ QOŞUNLARIN İDARƏ OLUNMASI VƏ TƏMİNATLAR

#### Maddə 8. Daxili qoşunların komandanının səlahiyyətləri

8.1. Daxili qoşunların komandanı daxili qoşunların şəxsi heyətinin birbaşa rəisidir.

8.2. Daxili qoşunların komandanı:

8.2.1. daxili qoşunları bilavasitə idarə edir, onların xidməti-döyüş vəzifələrini müvəffəqiyyətlə yerinə yetirməsinə və səfərbərlik hazırlığının saxlanılmasına görə cavabdehdir;

8.2.2. müavinlərinin, daxili qoşunların idarəetmə orqanının struktur bölmələrinin rəhbərlərinin səlahiyyətlərini müəyyən edir;

8.2.3. daxili qoşunların fəaliyyətinin, strukturunun, ştatlarının, habelə daxili qoşunların fəaliyyətini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi, təşkilati tədbirlər görülməsi, inkişaf, səfərbərlik, yerləşdirmə və tətbiq planları ilə bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təkliflər verir;

8.2.4. daxili qoşunların müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə komplektləşdirilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) qarşılıqlı əlaqədə tədbirlər görür, habelə həqiqi hərbi xidmətə qəbul məsələlərini həll edir;

8.2.5. əmrlər, sərəncamlar və göstərişlər verir, normativ hüquqi aktlarda nəzərdə tutulmuş hallarda müvafiq sənədləri təsdiq edir;

8.2.6. daxili qoşunların döyüş hazırlığı, fəaliyyət və elmi tədqiqat işlərinin planlarını, habelə döyüş təlimi proqramlarını təsdiq edir;

8.2.7. ali hərbi rütbələr nəzərdə tutulan vəzifələr üzrə namizədlərin vəzifəyə təyin olunması və ya vəzifədən azad edilməsi, ali hərbi rütbələrin verilməsi, daxili qoşunların idarəetmə orqanında hərbi və mülki vəzifələr üçün, o cümlədən xüsusi təyinatlı təhsil müəssisələrinin, hərbi hissə və bölmələrin polkovnik və polkovnik-leytenant vəzifələri üçün nəzərdə tutulmuş ştatların təsdiq edilməsi və onlarda dəyişiklik edilməsi barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təkliflər verir, xüsusi təyinatlı təhsil müəssisələrinin, hərbi hissə və bölmələrin mayor rütbəsinədək (bu rütbə də daxil olmaqla) hərbi rütbə üzrə vəzifələri üçün nəzərdə tutulmuş ştatları təsdiq edir;

8.2.8. zabitləri ştatla mayor rütbəsinədək (bu rütbə də daxil olmaqla) hərbi rütbə üzrə vəzifəyə təyin edir və vəzifədən azad edir, onları həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxır;

8.2.9. zabitlərə (ilk zabit rütbəsi və həvəsləndirmə qaydasında zabit rütbələri istisna olmaqla) mayor rütbəsinədək (bu rütbə də daxil olmaqla) növbəti hərbi rütbələr verir;

8.2.10. gizirləri, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularını vəzifəyə təyin edir və vəzifədən azad edir, onlara hərbi rütbələr verir, habelə zabitlərdən başqa digər hərbi qulluqçuları hərbi rütbələrdən məhrum edir, onları həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxır;

8.2.11. mülki işçiləri işə qəbul edir və işdən azad edir;

8.2.12. şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi və hərbi intizamın möhkəmləndirilməsi sahəsində tədbirlər görür;

8.2.13. səlahiyyətləri daxilində daxili qoşunların hərbi qulluqçularını, mülki işçilərini mükafatlandırır, təltif edir, intizam məsuliyyətinə cəlb edir və digər məsuliyyət tədbirlərinin görülməsini təmin edir;

8.2.14."Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq daxili qoşunların silah, xüsusi vasitələr, döyüş texnikası və xüsusi texnika ilə təmin edilməsi üçün müqavilələr bağlayır;

8.2.15. səlahiyyətləri daxilində fövqəladə və ya hərbi vəziyyət rejiminin təmin olunmasına və fövqəladə vəziyyətin, habelə sosial xarakterli fövqəladə mühitin tətbiqinə səbəb olmuş halların nəticələrinin aradan qaldırılmasına cəlb edilən daxili qoşunların və daxili işlər orqanlarının birgə fəaliyyətinin təmin edilməsi üçün tədbirlər görür;

8.2.16. daxili qoşunların fəaliyyətinin təftişinə dair materiallarla tanış olur, həmin materiallar üzrə verilmiş rəyləri təsdiq edir, aşkar edilmiş pozuntuların (nöqsanların) aradan qaldırılması və təqsirli şəxslərin məsuliyyətə cəlb edilməsi üçün tədbirlər görür;

8.2.17. daxili qoşunların beynəlxalq hərbi əməkdaşlıq fəaliyyəti ilə əlaqədar tədbirlər görür.

#### Maddə 9. Daxili qoşunların maliyyə təminatı

9.1. Daxili qoşunların maliyyə təminatı dövlət büdcəsi və qanunla nəzərdə tutulmuş digər mənbələr hesabına həyata keçirilir.

9.2. Daxili qoşunların maliyyələşdirilməsi Azərbaycan Respublikasının dövlət büdcəsində ayrıca sətirlə müəyyən edilir.

9.3. Daimi yerləşdiyi yerlərdən kənarda xidməti vəzifələrin yerinə yetirilməsinə cəlb olunmuş daxili qoşunların hərbi qulluqçularının xidməti yaşayış sahələri, kommunal xidmətlər, rabitə xətləri və kanalları, nəqliyyat vasitələri, yanacaq-sürtgü materialları, əlavə qida məhsulları ilə təmin edilməsi dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

#### Maddə 10. Daxili qoşunların maddi-texniki təminatı

10.1. Daxili qoşunların maddi-texniki vasitələrlə təmin edilməsi qaydası "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tənzimlənir.

10.2. Daxili qoşunların silahı, döyüş texnikası və xüsusi texnikası bağlanılmış müqavilələr əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəssisələrində təmir edilə bilər.

10.3. Bu Qanunun 10.4-cü maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qayda və normalara uyğun olaraq daxili qoşunların yerləşdirilməsi üçün obyektlərin, mühəndis-texniki qurğuların tikilməsi (müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi xüsusiyyətlər nəzərə alınmaqla), onların maddi ehtiyatlarla təmin edilməsi, habelə təmiri, yenidən qurulması, onlara xidmət göstərilməsi və istismarının təmin edilməsi dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

10.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qayda və normalara uyğun olaraq obyektlərin mühafizəsi ilə əlaqədar daxili qoşunların yerləşdirilməsi üçün obyektlərin, mühəndis-texniki qurğuların tikilməsi (müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi xüsusiyyətlər nəzərə alınmaqla), onların maddi ehtiyatlarla təmin edilməsi, habelə bu obyektlərdə daxili qoşunların yerləşdirilməsi nəzərdə tutulan hərbi şəhərciklərin, binaların və digər tikililərin və qurğuların təmiri, yenidən qurulması, onlara xidmət göstərilməsi və istismarının təmin edilməsi həmin obyektin balansında olduğu qurumun vəsaiti hesabına həyata keçirilir.

#### Maddə 11. Daxili qoşunların hərbi qulluqçularının və onların ailə üzvlərinin təhlükəsizliyi üçün təminatlar

11.1. Daxili qoşunların hərbi qulluqçularının və onların ailə üzvlərinin təhlükəsizliyini təmin etmək məqsədilə onların xidmət və yaşayış yeri barədə məlumatların mediada, o cümlədən internet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində yayılmasına yol verilmir.

11.2. Daxili qoşunların xidməti fəaliyyəti barədə məlumat yalnız daxili qoşunlar komandanının razılığı ilə verilir.

### 4-cü fəsil
### DAXİLİ QOŞUNLARDA XİDMƏT

#### Maddə 12. Daxili qoşunların şəxsi heyəti

12.1. Daxili qoşunların şəxsi heyəti hərbi qulluqçulardan və mülki işçilərdən ibarətdir.

12.2. Daxili qoşunların hərbi qulluqçuları müvafiq peşə qabiliyyətinə, ixtisas hazırlığına və fiziki hazırlığa malik olmalı, xüsusi hazırlıq keçməli, xüsusi vasitələrdən, təhkim edilmiş silah, döyüş texnikası və xüsusi texnikadan istifadə etməyi bacarmalıdırlar. Daxili qoşunların hərbi qulluqçularının fiziki qüvvənin, xüsusi vasitələrin, odlu silahın, döyüş texnikasının və xüsusi texnikanın tətbiqi bacarığı, habelə ilk tibbi yardım göstərmək bacarığı müntəzəm yoxlanılmalıdır.

12.3. Daxili qoşunların komplektləşdirilməsi və daxili qoşunlarda həqiqi hərbi xidmət "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında", "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının qanunlarına, "Hərbi xidmətkeçmə haqqında" Əsasnaməyə və digər normativ hüquqi aktlara uyğun olaraq onlar üçün müəyyənləşdirilmiş vəzifələrin xüsusiyyətləri nəzərə alınmaqla həyata keçirilir.

12.4. Daxili qoşunların hərbi qulluqçularının əsas hüquq və vəzifələri, təminatları və hərbi xidmətlə əlaqədar hüquqlarının məhdudlaşdırılması Azərbaycan Respublikasının Konstitusiyası, bu Qanun, "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanunu, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə və Azərbaycan Respublikasının digər qanunları, o cümlədən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi nizamnamələri ilə tənzimlənir.

12.5. Daxili qoşunlarda mülki işçilərin əmək münasibətləri Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə tənzimlənir.

#### Maddə 13. Kadrların hazırlanması

13.1. Daxili qoşunların kadrlar hazırlayan, onların ixtisasını artıran və elmi-tədqiqat işləri aparılan xüsusi təyinatlı təhsil müəssisələri vardır.

13.2. Daxili qoşunların hərbi qulluqçuları təhsil müəssisələrində Azərbaycan Respublikasının təhsil qanunvericiliyində nəzərdə tutulmuş qaydada təhsil ala bilərlər.

13.3. Daxili qoşunların xüsusi təyinatlı təhsil müəssisələrində digər dövlət orqanları (qurumları) və dövlətlər üçün kadrların hazırlanması və onların ixtisasının artırılması həyata keçirilə bilər.

13.4. Daxili qoşunların hərbi qulluqçularının başqa dövlətlərin ixtisaslaşdırılmış təhsil müəssisələrində təhsil alması beynəlxalq müqavilələr əsasında təşkil edilir.

#### Maddə 14. Daxili qoşunların vəzifələri

14.1. Daxili qoşunlar aşağıdakı vəzifələri həyata keçirirlər:

14.1.1. fəaliyyət istiqamətlərinə uyğun olaraq dövlət orqanları (qurumları) tərəfindən mühafizə olunan obyektlərin mühafizəsində iştirak;

14.1.2. mühafizə etdikləri obyektə basqının dəf edilməsi, habelə həmin obyektin ərazisinə qanunsuz daxil olmuş şəxslərin axtarılması və tutulması;

14.1.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) maddi-texniki, eləcə də hərbi təchizat anbarlarının və bazalarının mühafizəsi;

14.1.4. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəhbərinin göstərişi əsasında, habelə xidməti vəzifələrin icrası zamanı aşkarlanmış partlayıcı qurğu və maddələrin zərərsizləşdirilməsi və məhv edilməsi.

14.2. Daxili qoşunlar aşağıdakı hallarda vəzifələrinin icrasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) qarşılıqlı əlaqədə həyata keçirirlər:

14.2.1. ictimai qaydanın qorunması, habelə kütləvi tədbirlər keçirilərkən ictimai təhlükəsizliyin təmin olunması zamanı;

14.2.2. kütləvi iğtişaşların və ictimai qaydanın qrup halında pozulması hallarının qarşısının alınması zamanı;

14.2.3. qanunsuz silahlı birləşmələrin, terror təşkilatlarının və terror qruplarının, habelə silahlı müqavimət göstərən və silahlı basqın edən şəxslərin zərərsizləşdirilməsi zamanı;

14.2.4. dini ekstremizm və terror əleyhinə aparılan xüsusi əməliyyat zonalarının hüquqi rejiminin təmin edilməsi zamanı;

14.2.5. cəzaçəkmə müəssisələrində kütləvi iğtişaşların qarşısının alınması zamanı;

14.2.6. girovların, zəbt edilmiş binaların və digər tikililərin, qurğuların, ərazilərin və nəqliyyat vasitələrinin azad edilməsi zamanı;

14.2.7. mülki hava və ya su nəqliyyatı vasitəsinin, yaxud dəmiryol qatarının zəbt olunması və qaçırılması hallarının qarşısının alınması zamanı;

14.2.8. fövqəladə və ya hərbi vəziyyət rejiminin təmin olunması, fövqəladə vəziyyətin, habelə sosial xarakterli fövqəladə mühitin tətbiqinə səbəb olmuş halların nəticələrinin aradan qaldırılması zamanı;

14.2.9. cəlb edildiyi təqdirdə Azərbaycan Respublikası ərazisinin müdafiəsi zamanı.

14.3. Daxili qoşunlar və daxili işlər orqanlarının birgə fəaliyyəti zamanı daxili qoşunlara polis orqanlarının əməkdaşlarının vəzifələri həvalə edildikdə, onlara "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş polis əməkdaşının vəzifələri şamil olunur.

14.4. Daxili qoşunların hərbi qulluqçularına həvalə edilmiş vəzifələrin icrası ilə bağlı onların qanuni tələblərinin icrası məcburidir.

#### Maddə 15. Daxili qoşunların hüquqları

15.1. Daxili qoşunlar vəzifələrinin icrası zamanı aşağıdakı hüquqlara malikdirlər:

15.1.1. hər bir şəxsdən ictimai qaydaya riayət etməyi tələb etmək, hüquqazidd əməllərin və xidməti vəzifələrinin icrasına mane olan hərəkətlərin qarşısını almaq;

15.1.2. daxili qoşunlar və daxili işlər orqanlarının birgə fəaliyyəti zamanı hüquq pozuntusu törətmiş, cinayət törətməyə cəhd edən və ya cinayət törətməkdə şübhəli bilinən şəxsləri tutmaq, onların şəxsiyyətini müəyyənləşdirmək, qanunla müəyyən edilmiş qaydada onları polis orqanlarına təhvil vermək, cinayət törətmiş şəxsləri saxlayarkən qanunla müəyyən edilmiş qaydada onların üzərində axtarış aparmaq və əşyalarını yoxlamaq;

15.1.3. mühafizə etdikləri obyektlərə qanunsuz daxil olan və ya daxil olmağa cəhd edən şəxslərin üzərində qanunla müəyyən edilmiş qaydada axtarış aparmaq, əşyalarını və sənədlərini yoxlamaq, qanunla müəyyən edilmiş qaydada polis orqanlarına təhvil vermək;

15.1.4. mühafizə etdikləri obyektlərə daxil olan və çıxan nəqliyyat vasitələrini yoxlamaq;

15.1.5. mühafizə etdikləri obyektlərin buraxılış məntəqələrində qanunla müəyyən edilmiş qaydada şəxslərin üzərində axtarış aparmaq, əşyalarını və sənədlərini yoxlamaq;

15.1.6. bu Qanunun 17-ci maddəsində nəzərdə tutulmuş hallarda və qaydada nəqliyyat vasitələrinə daxil olmaq;

15.1.7. bu Qanunun 18-ci maddəsində nəzərdə tutulmuş hallarda və qaydada yaşayış yerlərinə, ərazilərə, binalara və digər tikililərə (diplomatik immunitetə malik olanlardan başqa) daxil olmaq;

15.1.8. bu Qanunun 19-cu maddəsində nəzərdə tutulmuş hallarda və qaydada yaşayış yerlərini, əraziləri, binaları və digər tikililəri dövrəyə almaq, əsaslı şübhələr olduqda nəqliyyat vasitələrini yoxlamaq və digər əməliyyat tədbirlərini yerinə yetirmək;

15.1.9. qanunla nəzərdə tutulmuş hallarda və qaydada fiziki qüvvədən, xüsusi vasitələrdən, silahdan, döyüş texnikası və xüsusi texnikadan istifadə etmək.

15.2. Daxili qoşunlar və daxili işlər orqanlarının birgə fəaliyyəti zamanı daxili qoşunlara polis orqanlarının əməkdaşlarının vəzifələri həvalə edildikdə, onlar "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş polis əməkdaşının hüquqlarından istifadə edirlər.

#### Maddə 16. Daxili qoşunların hərbi qulluqçuları tərəfindən şəxslərin saxlanılması

16.1. Daxili qoşunların hərbi qulluqçularının aşağıdakı şəxsləri saxlamaq hüququ vardır:

16.1.1. inzibati xəta və ya cinayət törətmiş və ya törətməkdə şübhəli bilinən, yaxud barəsində həbs qətimkan tədbiri seçilmiş şəxsləri;

16.1.2. axtarışda olan və ya cəzaçəkmə müəssisəsindən qaçmış şəxsləri;

16.1.3. fövqəladə və ya hərbi vəziyyət, sosial xarakterli fövqəladə mühit rejimini, habelə dini ekstremizm və terror əleyhinə aparılan xüsusi əməliyyat zonalarının hüquqi rejimini pozmuş şəxsləri;

16.1.4. daxili qoşunlar tərəfindən mühafizə olunan obyektlərə qanunsuz daxil olmağa cəhd edən və ya daxil olmuş şəxsləri.

16.2. Saxlanılan şəxslərə dərhal saxlanmanın səbəbləri bildirilməli və hüquqları izah edilməlidir.

16.3. Saxlanılan şəxslər dərhal ən yaxın polis orqanına təhvil verilməlidir.

16.4. Tibbi zərurət olduğu halda saxlanılan şəxsə ilk tibbi yardım göstərilməlidir.

Ardı 3-cü səh.

# Azərbaycan Respublikasının daxili qoşunları haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 2-cü səh.*

**Maddə 17. Daxili qoşunların hərbi qulluqçuları tərəfindən nəqliyyat vasitələrinə daxilolma**

17.1. Daxili qoşunların hərbi qulluqçuları aşağıdakı hallarda nəqliyyat vasitələrinə daxil ola bilərlər:

17.1.1. insanların həyatını xilas etmək zərurəti yarandıqda;

17.1.2. fövqəladə hallar və kütləvi iğtişaşlar zamanı insanların təhlükəsizliyinin və ictimai qaydanın qorunması vəzifələrini yerinə yetirdikdə;

17.1.3. cinayət törətmiş və ya cinayət törətməkdə şübhəli bilinən şəxslər saxlanıldıqda;

17.1.4. cinayətlərin qarşısı alındıqda;

17.1.5. terror təhlükəsi barədə məlumat alındıqda;

17.1.6. fövqəladə halların nəticələri aradan qaldırıldıqda.

17.2. Nəqliyyat vasitəsinə daxilolma faktı ilə əlaqədar daxili qoşunların hərbi qulluqçusu böyük rəisini və yerli polis orqanını dərhal məlumatlandırır.

17.3. Nəqliyyat vasitəsinə onun sahibinin məlumatı olmadan və ya iradəsi ziddinə daxilolma faktı qanunla müəyyən edilmiş qaydada təxirə salınmadan protokollaşdırılmalı və müvafiq polis orqanında qeydiyyatdan keçirilməlidir.

**Maddə 18. Daxili qoşunların hərbi qulluqçuları tərəfindən ərazilərə, yaşayış yerlərinə, binalara və digər tikililərə daxilolma**

18.1. Daxili qoşunların hərbi qulluqçuları aşağıdakı hallarda ərazilərə, yaşayış yerlərinə, binalara və digər tikililərə (diplomatik immunitetə malik olanlardan başqa) daxil ola bilərlər:

18.1.1. insanların həyatı xilas edildikdə və əmlakları təhlükədən qorunduqda;

18.1.2. cinayətlərin qarşısı alındıqda, cinayət törətmiş və ya cinayət törətməkdə şübhəli bilinən şəxslər saxlanıldıqda;

18.1.3. fövqəladə və ya hərbi vəziyyət rejimi zamanı, habelə dini ekstremizm və terror əleyhinə xüsusi əməliyyatlar keçirildikdə.

18.2. Ərazilərə, yaşayış yerlərinə, binalara və digər tikililərə daxilolma ilə əlaqədar daxili qoşunların hərbi qulluqçusu böyük rəisini və yerli polis orqanını dərhal məlumatlandırmalıdır.

18.3. Ərazilərə, yaşayış yerlərinə, binalara və digər tikililərə daxilolma faktı qanunla müəyyən edilmiş qaydada təxirə salınmadan protokollaşdırılmalı və müvafiq polis orqanında qeydiyyatdan keçirilməlidir.

**Maddə 19. Daxili qoşunların hərbi qulluqçuları tərəfindən ərazilərin, yaşayış yerlərinin, binaların və digər tikililərin dövrələnməsi**

19.1. Daxili qoşunların hərbi qulluqçuları əməliyyat rəisinin, bu mümkün olmadıqda hərbi hissə və ya bölmə komandirinin qərarı (əmri) ilə aşağıdakı hallarda əraziləri, yaşayış yerlərini, binaları və digər tikililəri dövrələyə bilərlər:

19.1.1. fövqəladə halların, təbii fəlakətlərin və ya texnogen xarakterli qəzaların nəticələrinin aradan qaldırılması vəzifələri yerinə yetirildikdə;

19.1.2. epidemiya və epizootiya zamanı karantin tədbirləri tətbiq edildikdə;

19.1.3. kütləvi iğtişaşların və qrup halında ictimai qaydanın pozulmasının qarşısının alınması tədbirləri yerinə yetirildikdə, habelə dövlət orqanlarının (qurumlarının), mühüm əhəmiyyətli obyektlərin fəaliyyətinə və nəqliyyatın hərəkətinə mane olan hallar aradan qaldırıldıqda;

19.1.4. silahlı təhlükəli şəxs, cinayət törətməkdə şübhəli bilinən, məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran şəxslər axtarıldıqda;

19.1.5. mühafizə edilən əraziyə qanunsuz daxil olmuş şəxslər müəyyən edildikdə;

19.1.6. partlayıcı qurğu və maddələr, habelə zəhərləyici və radioaktiv maddələr axtarıldıqda.

19.2. Ərazilərin, yaşayış yerlərinin, binaların və digər tikililərin dövrələnməsi zamanı təhlükəsizliyin təmin edilməsi, ictimai qaydanın qorunması və axtarış tədbirlərinin aparılması, həmçinin cinayətin törədildiyi yerin mühafizəsi üçün nəqliyyatın və piyadaların hərəkəti məhdudlaşdırıla bilər.

19.3. Ərazilərin, yaşayış yerlərinin, binaların və digər tikililərin dövrələnməsi ilə əlaqədar daxili qoşunların hərbi qulluqçusu böyük rəisini və yerli polis orqanını dərhal məlumatlandırmalıdır.

19.4. Ərazilərin, yaşayış yerlərinin, binaların və digər tikililərin dövrələnməsi qanunla müəyyən edilmiş qaydada təxirə salınmadan protokollaşdırılmalı və müvafiq polis orqanında qeydiyyatdan keçirilməlidir.

**5-ci fəsil**
**FİZİKİ QÜVVƏNİN, XÜSUSİ VASİTƏLƏRİN, ODLU SİLAHIN, DÖYÜŞ TEXNİKASININ VƏ XÜSUSİ TEXNİKANIN TƏTBİQİ**

**Maddə 20. Fiziki qüvvənin, xüsusi vasitələrin, odlu silahın, döyüş texnikasının və xüsusi texnikanın tətbiqi şərtləri**

20.1. Daxili qoşunların hərbi qulluqçuları fiziki qüvvəni, xüsusi vasitələri, odlu silahı, döyüş texnikasını və xüsusi texnikanı tətbiq etməzdən əvvəl hüquq pozuntusunun aradan qaldırılması tələbinin yerinə yetirilməsi üçün vaxt verməklə bu barədə xəbərdarlıq edirlər (bu Qanunun 24.3-cü maddəsində göstərilən, habelə insanların həyatı və sağlamlığı üçün bilavasitə təhlükə yaratdığı və ya bu cür xəbərdarlığın gec və qeyri-mümkün olduğu hallar istisna olmaqla).

20.2. Daxili qoşunların hərbi qulluqçuları fiziki qüvvəni, xüsusi vasitələri, odlu silahı, döyüş texnikasını və xüsusi texnikanı tətbiq etdikdə tibbi zərurət olduqda bilavasitə rəisini məlumatlandırmaqla zərərçəkənlərə ilk tibbi yardım göstərirlər.

20.3. Daxili qoşunların hərbi hissə komandirləri və ya rəisləri fiziki qüvvənin, xüsusi vasitələrin, odlu silahın, döyüş texnikasının və xüsusi texnikanın tətbiqi nəticəsində alınmış xəsarət (yaralanma, travma və kontuziya) və ya ölüm halı barədə dərhal müvafiq prokurora məlumat verirlər.

20.4. Fiziki qüvvə, xüsusi vasitələr, odlu silah, döyüş texnikası və xüsusi texnika yalnız son zərurət və ya zəruri müdafiə vəziyyətində, bütün digər təsir imkanlarından istifadə lazımi nəticə vermədikdə hüquq pozuntusunun ağırlıq dərəcəsindən asılı olaraq tətbiq edilir. Bu zaman daxili qoşunların hərbi qulluqçuları tərəfindən fiziki qüvvənin, xüsusi vasitələrin, odlu silahın, döyüş texnikasının və xüsusi texnikanın tətbiqi yaranmış təhlükəyə mütənasib olmalıdır.

20.5. Daxili qoşunların hərbi qulluqçuları tərəfindən öz səlahiyyətlərini aşaraq fiziki qüvvənin, xüsusi vasitələrin, odlu silahın, döyüş texnikasının və xüsusi texnikanın tətbiqi qadağandır.

**Maddə 21. Fiziki qüvvənin tətbiqi**

Cinayətlərin və digər hüquqpozmaların qarşısını almaq, belə əməlləri törətmiş şəxsləri saxlamaq məqsədilə xidməti vəzifələri yerinə yetirən daxili qoşunların hərbi qulluqçularının qanuni tələblərinə əməl edilmədikdə, onların fiziki qüvvə, o cümlədən idman (döyüş) fəndlərini tətbiq etmək hüququ vardır.

**Maddə 22. Xüsusi vasitələrin tətbiqi**

22.1. Daxili qoşunların hərbi qulluqçularının aşağıdakı hallarda xüsusi vasitələri tətbiq etmək hüququ vardır:

22.1.1. insan həyatına və sağlamlığına real təhlükə yaradan əməllər və ya mülkiyyət əleyhinə cinayət törədildikdə;

22.1.2. qiyam və ya kütləvi iğtişaşlar baş verdikdə;

22.1.3. girov saxlanılan şəxs (şəxslər) və ya zəbt olunmuş binalar və digər tikililər, qurğular, ərazilər və nəqliyyat vasitələri azad edildikdə;

22.1.4. yaşayış yerlərinə, dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların binalarına, anbarlara (saxlanc yerlərinə) qrup halında basqın dəf edildikdə;

22.1.5. inzibati xəta və ya cinayət törətmiş və ya törətməkdə şübhəli bilinən şəxs (şəxslər) saxlanılarkən müqavimət göstərdikdə, müqavimət göstərə biləcəyinə və qaçmaq ehtimalına kifayət qədər əsas olduqda, habelə bu şəxsin (şəxslərin) azad edilməsi üçün kənar şəxslər tərəfindən güc işlədildikdə;

22.1.6. şəxsin təhlükəli hərəkətləri ilə özünə və ya ətrafdakılara zərər yetirə biləcəyi ehtimalı olduqda;

22.1.7. insanlar tərəfindən nəqliyyatın hərəkəti qrup halında dayandırıldıqda və ya məhdudlaşdırıldıqda;

22.1.8. sürücü öz hərəkətləri ilə insanların həyatına və sağlamlığına real təhlükə yaratdıqda, nəqliyyat vasitəsini dayandırmaq tələbinə tabe olmadıqda və onun saxlanılması üçün başqa imkan olmadıqda;

22.1.9. sərbəst toplaşmaq azadlığı haqqında qanunvericiliyin tələbləri pozulmaqla keçirilən toplantılar dağıdıldıqda;

22.1.10. hərbi şəhərciklərə, hərbi eşelonlara, bölmə və qoşun naryadlarına, mühafizə olunan obyektlərə basqın dəf edildikdə və ya həmin obyektlərə qanunsuz daxil olan şəxs yaxalanarkən qaçmağa cəhd göstərdikdə.

22.2. Xüsusi vasitələrin növü və tətbiqinin intensivliyi yaranmış vəziyyət, hüquq pozuntusunun xarakteri və onu törədən şəxsin şəxsiyyəti, habelə xüsusi vasitələrin taktiki-texniki xüsusiyyətləri nəzərə alınmaqla müəyyənləşdirilir.

22.3. Bu Qanunun 24.3-cü maddəsində nəzərdə tutulmuş hallarda xüsusi vasitələrin bütün növləri tətbiq edilə bilər.

22.4. Hərbi hissə komandiri xüsusi vasitələrin tətbiqi anından 24 saat müddətində müvafiq prokurora məlumat verməlidir.

**Maddə 23. Xüsusi vasitələrin tətbiqinin qadağan edildiyi hallar**

23.1. Xüsusi vasitələrin tətbiqi aşağıdakı hallarda qadağandır:

23.1.1. xüsusi təyinatlı gözyaşardıcı qaz qumbaraları (patronları) ilə şəxsə sərrast atəş açmaq;

23.1.2. suvuran maşınları havanın hərarəti mənfi olduqda tətbiq etmək;

23.1.3. məcburi dayandırma vasitələri ilə sərnişindaşıyan (sərnişin daşındıqda) və xarici dövlətlərin diplomatik nümayəndəliklərinin və konsulluqlarının avtonəqliyyat vasitələrini, habelə motosikletləri və mopedləri dayandırmaq, habelə onları məhdud görünmə şəraitində, dağ yollarında, dəmiryol keçidlərində, yol ayrıclarında, tunellərdə, körpü və estakadalarda tətbiq etmək;

23.1.4. qadınlara, azyaşlı uşaqlara, yanında azyaşlı uşaq olan, əlilliyi və digər fiziki və ya psixi pozuntuları aşkar bilinən şəxslərə qarşı (odlu silah işlətməklə basqın edildiyi və ya silahlı müqavimət göstərildiyi hallar istisna olmaqla);

23.1.5. alışma, partlama təhlükəsi olan zəhərləyici və radioaktiv maddələrin hazırlandığı yerlər, saxlandığı anbarlar (saxlanc yerləri) və belə maddələri daşıyan nəqliyyat vasitələri istiqamətində;

23.1.6. xarici dövlətlərin diplomatik nümayəndəliklərinin və konsulluqlarının yerləşdiyi ərazilərdə və binalarda (həmin dövlətlərin səlahiyyətli nümayəndələrindən müvafiq qaydada müraciətin daxil olması halları istisna olmaqla).

**Maddə 24. Odlu silahın tətbiqi**

24.1. Bu Qanunun 24.3-cü maddəsində göstərilən hallar və birdən-birə gözlənilməz hücum halı istisna olmaqla, odlu silah tətbiq edilməzdən əvvəl səslə və ya havaya atəş açmaqla silah işlədiləcək şəxsə xəbərdarlıq edilməlidir.

24.2. Daxili qoşunların hərbi qulluqçularının xəbərdarlıq etdikdən sonra aşağıdakı hallarda odlu silah tətbiq etmək hüququ vardır:

24.2.1. insan həyatına və sağlamlığına real təhlükə yaradan basqın və ya digər zorakılıq hallarında;

24.2.2. xidməti vəzifələrinin icrası zamanı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hərbi qulluqçularının və əməkdaşlarının həyatına və sağlamlığına təhlükə törədən qəsdlər baş verdikdə və ya onların silahlarının, döyüş texnikasının və xüsusi texnikanın ələ keçirilməsi cəhdlərinin qarşısı alındıqda;

24.2.3. girovlar, zəbt edilmiş binalar və digər tikililər, qurğular, ərazilər və nəqliyyat vasitələri azad edildikdə;

24.2.4. insanların həyatına, sağlamlığına və mülkiyyətinə qarşı cinayət törətmiş və gizlənməyə çalışan, habelə silahlı müqavimət göstərən şəxslər saxlanıldıqda;

24.2.5. fövqəladə və ya hərbi vəziyyət rejimi şəraitində yaşayış məntəqəsinə giriş-çıxış postlarında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əməkdaşının və ya hərbi qulluqçusunun nəqliyyat vasitəsini dayandırmaq tələbinə tabe olmayan nəqliyyat vasitəsi saxlanıldıqda;

24.2.6. qrup halında və ya silahlı basqın, o cümlədən nəqliyyat vasitələrindən istifadə etməklə törədilən basqın dəf edildikdə;

24.2.7. qanunsuz silahlı birləşmələrdə, terror təşkilatlarında və terror qruplarında, habelə silahlı müqavimət göstərən şəxsdə olan silahı, döyüş texnikasını və xüsusi texnikanı təhvil vermək tələbi yerinə yetirilmədikdə;

24.2.8. terrorçuluq və ya dini ekstremizm, yaxud dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsi ilə bağlı cinayətlərin qarşısı alındıqda.

24.3. Odlu silah aşağıdakı hallarda xəbərdarlıq edilmədən tətbiq olunur:

24.3.1. mühafizə olunan obyektə, qarovula (qoşun naryadına) silahdan, döyüş texnikasından, xüsusi texnikadan və nəqliyyat vasitələrindən istifadə etməklə törədilən basqın dəf edildikdə;

24.3.2. silahlı müqavimət göstərən şəxs zərərsizləşdirilərkən, eləcə də cinayət törətmiş şəxs silahı ələ keçirməklə və ya ağır və ya xüsusilə ağır cinayət törətmiş şəxs nəqliyyat vasitələrindən istifadə etməklə mühafizə altından qaçdıqda;

24.3.3. azadlıqdan məhrum edilmiş şəxslər tərəfindən törədilən basqın dəf edildikdə;

24.3.4. öz vəzifə borclarını icra edən daxili qoşunların və daxili işlər orqanlarının şəxsi heyətinin, məhkəmə və prokurorluq işçilərinin həyatına bilavasitə təhlükə törədən qərəzli hərəkətlər edildikdə;

24.3.5. insan həyatına və sağlamlığına real təhlükə yaradan heyvan hücumunun qarşısı alındıqda;

24.3.6. təhlükə və ya həyəcan siqnalı verildikdə, habelə yardım çağırıldıqda (təhlükəsiz yolla havaya atəş açmaqla).

24.4. Bu maddədə nəzərdə tutulmuş halların yarana biləcəyi barədə kifayət qədər əsaslar olduqda, daxili qoşunların hərbi qulluqçusunun odlu silahı hazır vəziyyətə gətirmək hüququ vardır.

**Maddə 25. Odlu silahın tətbiqinin qadağan edildiyi hallar**

25.1. Odlu silah tətbiq etmək aşağıdakı şəxslərə münasibətdə (bu Qanunun 25.2-ci maddəsi nəzərə alınmaqla) və aşağıdakı hallarda qadağandır:

25.1.1. qadınlara;

25.1.2. yanında azyaşlı uşaq olan şəxslərə;

25.1.3. əlilliyi və digər fiziki və psixi pozuntuları aşkar bilinən şəxslərə;

25.1.4. yetkinlik yaşına çatmadığı aşkar görünən və ya məlum olan şəxslərə;

25.1.5. kənar şəxslərin zərər çəkə biləcəyi hallarda;

25.1.6. alışmaq, partlamaq təhlükəsi olan zəhərləyici və radioaktiv maddələrin hazırlandığı yerlər, saxlandığı anbarlar (saxlanc yerləri) və belə maddələri daşıyan nəqliyyat vasitələri istiqamətində.

25.2. Bu Qanunun 25.1-ci maddəsində nəzərdə tutulan qadağa silahlı müqavimət göstərildiyi, insanların həyatına və sağlamlığına təhlükə yarandığı hallarda və ya silahlı, o cümlədən nəqliyyat vasitələrindən istifadə etməklə törədilən basqın hallarında bu Qanunun 25.1.1 - 25.1.4-cü maddələrində göstərilən şəxslərə şamil edilmir.

**Maddə 26. Döyüş texnikasının və xüsusi texnikanın tətbiqi**

26.1. Daxili qoşunların hərbi qulluqçuları döyüş texnikasını və xüsusi texnikanı aşağıdakı hallarda tətbiq edirlər:

26.1.1. kütləvi iğtişaşların qarşısının alınması zamanı maneələr və keçilməz sədlər aradan qaldırıldıqda;

26.1.2. girovlar, zəbt edilmiş binalar və digər tikililər, qurğular, ərazilər və nəqliyyat vasitələri azad edildikdə;

26.1.3. silahlı müqavimət göstərən, insanların həyatına və sağlamlığına təhlükə yaradan qrup halında və ya silahlı basqın edən şəxslər zərərsizləşdirildikdə (digər üsullarla mümkün olmadıqda);

26.1.4. bu Qanunun 24.2.5-ci maddəsində göstərilən üsulla nəqliyyat vasitəsini dayandırmaq mümkün olmadıqda;

26.1.5. nəqliyyat vasitələrindən istifadə etməklə törədilən basqın dəf edildikdə;

26.1.6. qanunsuz silahlı birləşmələrdə, terror təşkilatlarında və terror qruplarında, habelə silahlı müqavimət göstərən və ya basqın edən şəxsdə olan silah, döyüş sursatı, partlayıcı maddə, döyüş texnikası və xüsusi texnikanı təhvil vermək tələbi yerinə yetirilmədikdə;

26.1.7. fövqəladə hallar və kütləvi iğtişaşlar zamanı insanların həyatı xilas edildikdə və əmlakları təhlükədən qorunduqda.

**Maddə 27. Döyüş texnikasının və xüsusi texnikanın tətbiqinin qadağan edildiyi hallar**

27.1. Döyüş texnikasının və xüsusi texnikanın tətbiqi aşağıdakı hallarda qadağandır:

27.1.1. kənar şəxslərin zərər çəkə biləcəyi hallarda;

27.1.2. alışma, partlama təhlükəsi olan zəhərləyici və radioaktiv maddələrin hazırlandığı yerlər, saxlandığı anbarlar (saxlanc yerləri) və belə maddələri daşıyan nəqliyyat vasitələri istiqamətində;

27.1.3. girovlar saxlanılan yerlərdə maneələri dağıtmaq məqsədilə (əgər saxlanılan şəxslərin həyat və sağlamlığına zərər vurulma ehtimalı vardırsa).

**6-cı fəsil**
**YEKUN MÜDDƏALAR**

**Maddə 28. Daxili qoşunların şəxsi heyətinin məsuliyyəti**

28.1. Daxili qoşunların hərbi qulluqçularının və mülki işçilərinin intizam məsuliyyəti müvafiq olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi nizamnamələri və Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.

28.2. Daxili qoşunların hərbi qulluqçularının və mülki işçilərinin inzibati və cinayət məsuliyyəti müvafiq olaraq Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi və Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə tənzimlənir.

28.3. Daxili qoşunların hərbi qulluqçularının dövlətə vurduqları ziyana görə maddi məsuliyyətinin əsasları, vurulan ziyanın miqdarının müəyyən edilməsi və ödənilməsi qaydaları "Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında Əsasnamənin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

28.4. Daxili qoşunların hərbi qulluqçularının və mülki işçilərinin xidməti vəzifələrinin icrası zamanı son zərurət və zəruri müdafiə vəziyyətində vurduqları ziyana (zərərə) və mülki hüquq pozuntularına görə mülki məsuliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir.

**Maddə 29. Daxili qoşunların fəaliyyətinə nəzarət**

29.1. Daxili qoşunların fəaliyyətinə ümumi nəzarəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı həyata keçirir.

29.2. Daxili qoşunların fəaliyyətinə idarədaxili nəzarəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəhbəri və daxili qoşunların komandanlığı həyata keçirir.

29.3. Daxili qoşunlarda qanunların icrasına nəzarəti qanunla müəyyən edilmiş hallarda və qaydada prokurorluq orqanları həyata keçirirlər.

29.4. Daxili qoşunların hərbi qulluqçuları tərəfindən törədilən hüquqazidd əməllər barədə hərbi hissə komandiri 24 saat müddətində müvafiq prokurora məlumat verir və bununla bağlı qanunda nəzərdə tutulmuş digər vəzifələri həyata keçirir.

**Maddə 30. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun qüvvəyə mindiyi gündən "Daxili qoşunların statusu haqqında"Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, №17, maddə 233; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 4, maddə 365) ləğv edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2025-ci il*

# "Azərbaycan Respublikasının daxili qoşunları haqqında" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 303-VIIQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının daxili qoşunları haqqında" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 303-VIIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Azərbaycan Respublikasının daxili qoşunları haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.1-ci, 6.1-ci, 6.1.12-ci, 7.2-ci, 8.2.3-cü, 8.2.4-cü, 8.2.7-ci, 10.2-ci, 10.3-cü (hər iki halda), 10.4-cü (hər iki halda), 14.1.3-cü, 14.1.4-cü, 14.2-ci, 24.2.2-ci, 24.2.5-ci və 29.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 6.1.12-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 7.2-ci, 10.3-cü (hər iki halda) və 10.4-cü (hər iki halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 1.1.1-ci, 8.2.3-cü, 8.2.7-ci, 14.1.3-cü, 14.1.4-cü, 24.2.2-ci, 24.2.5-ci və 29.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 8.2.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti nəzərdə tutulur;

1.6. həmin Qanunun 10.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi nəzərdə tutulur;

1.7. həmin Qanunun 14.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Dövlət Mühafizə Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi nəzərdə tutulur;

1.8. həmin Qanunun 6.1-ci maddəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini aşağıdakı orqanlar həyata keçirir:

1.8.1. həmin Qanunun 6.1.1-ci, 6.1.2-ci (daxili qoşunların komandanının və ali hərbi rütbələr nəzərdə tutulan vəzifələr üzrə zabitlərin vəzifəyə təyin və vəzifədən azad edilməsinə, onların həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılmasına münasibətdə), 6.1.3-cü (daxili qoşunların hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsinə münasibətdə), 6.1.4-cü, 6.1.6-cı, 6.1.7-ci (daxili qoşunların hərbi şurasının əsasnaməsinin təsdiq edilməsinə münasibətdə) və 6.1.8-ci maddələrində müəyyən edilən səlahiyyətlərə münasibətdə Azərbaycan Respublikasının Prezidenti;

1.8.2. həmin Qanunun 6.1.9-cu maddəsində müəyyən edilən səlahiyyətlərə münasibətdə Azərbaycan Respublikasının Nazirlər Kabineti;

1.8.3. həmin Qanunun 6.1.2-ci (bu Fərmanın 1.8.1-ci yarımbəndi nəzərə alınmaqla digər zabitlərin polkovnik-leytenant, polkovnik hərbi rütbəli vəzifələrə təyin edilməsinə və vəzifədən azad edilməsinə və həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılmasına münasibətdə), 6.1.3-cü (bu Fərmanın 1.8.1-ci yarımbəndi nəzərə alınmaqla daxili qoşunların hərbi qulluqçularına ilk zabit rütbəsi və həvəsləndirmə qaydasında zabit rütbələrinin, habelə polkovnik-leytenant və polkovnik hərbi rütbələrinin verilməsinə münasibətdə), 6.1.7-ci (daxili qoşunların hərbi şurasının tərkibinin müəyyən edilməsinə münasibətdə), 6.1.11 - 6.1.22-ci maddələrində müəyyən edilən səlahiyyətlərə münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi;

1.8.4. həmin Qanunun 6.1.10-cu maddəsində müəyyən edilən səlahiyyətə münasibətdə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti;

1.8.5. həmin Qanunun 6.1.23-cü maddəsində müəyyən edilən səlahiyyətlərə münasibətdə Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq aidiyyəti dövlət orqanları (qurumları).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının daxili qoşunları haqqında" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 303-VIIQ nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi "Azərbaycan Respublikasının daxili qoşunları haqqında" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 303-VIIQ nömrəli Qanunundan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2025-ci il*

## "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi arasında qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il iyulun 22-də İstanbul şəhərində imzalanmış "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi arasında qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2025-ci il*

## "Kosmonavtların xilas edilməsi, kosmonavtların geri qaytarılması və kosmik fəzaya çıxarılmış obyektlərin geri qaytarılması haqqında Saziş"ə qoşulmaq barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası 1968-ci il aprelin 22-də London, Moskva və Vaşinqton şəhərlərində imzalanmış "Kosmonavtların xilas edilməsi, kosmonavtların geri qaytarılması və kosmik fəzaya çıxarılmış obyektlərin geri qaytarılması haqqında Saziş"ə qoşulsun.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2025-ci il*

## "Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, sosial-iqtisadi inkişaf sahəsində dövlət siyasətinin prioritetlərinə və məqsədlərinə çatmaq üçün dövlət proqramlarının, strategiyaların, konsepsiyaların və bu kimi digər strateji sənədlərin hazırlanması, onların icrasına nəzarətin həyata keçirilməsi və qarşıya qoyulmuş hədəflərə nailolma vəziyyətinin qiymətləndirilməsi, yeni çağırışlar və artan tələblər fonunda istifadəçilərin, o cümlədən aidiyyəti dövlət orqanlarının (qurumlarının) rəsmi statistika məlumatlarına tələbatının ödənilməsi üçün statistik məlumat istehsalının dayanıqlılığını və milli statistika sisteminin inkişafını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" (bundan sonra - Dövlət Proqramı) təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi:

3.1. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini əlaqələndirsin;

3.2. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Dövlət Proqramında müəyyən edilmiş tədbirlərin maliyyələşdirilməsi məqsədilə hər il dövlət büdcəsinin tərtibi prosesində zəruri maliyyə vəsaitinin nəzərdə tutulması üçün müvafiq işlər görsün.

5. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2025-ci il*

*Sərəncamın əlavəsi ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

## Baş nazir Əli Əsədov AZAL təyyarəsinin qəzasının birinci ildönümündə həlak olan ekipaj üzvlərinin məzarlarını ziyarət edib



"Azərbaycan Hava Yolları"nın Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğramasının birinci ildönümündə hadisənin səbəblərinin araşdırılması üçün yaradılmış Dövlət Komissiyasının sədri, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 25-də İkinci Fəxri xiyabana gələrək həyatlarını itirən Milli qəhrəmanlar Hökumə Əliyeva, İqor Kşnyakin və Aleksandr Kalyaninovun məzarlarını ziyarət edib.

Ə.Əsədov, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və "Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Samir Rzayev qəzada həlak olan ekipaj üzvlərinin məzarlarına gül dəstələri qoyublar.

## Azərbaycan və Qazaxıstan Baş nazirləri AZAL-ın təyyarəsinin qəzasının birinci ildönümündə bir-birilərinə başsağlığı veriblər

**Dekabrın 25-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenov "Azərbaycan Hava Yolları"nın Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğramasının birinci ildönümü ilə bağlı bir-birilərinə başsağlığı veriblər.**

Nazirlər Kabinetindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı Ə.Əsədov həmin faciəvi günlərdə hərtərəfli dəstəyə görə qardaş Qazaxıstanın hökumətinə və xalqına təşəkkürünü bildirib. Hökumət başçıları bir-birilərinə, həlak olan şəxslərin ailə üzvlərinə və yaxınlarına, həmçinin hər iki ölkənin xalqına başsağlıqlarını ifadə ediblər.

## Apellyasiya instansiyası məhkəməsinin kollegiya sədrinin, birinci instansiya məhkəməsi sədrinin və bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, aşağıdakı hakimlərin vəzifələri dəyişdirilsin:

**apellyasiya instansiyası məhkəmələri üzrə:**

1.1. Səməd Fəxrəddin oğlu Cəfərov Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının sədri təyin edilsin;

**ağır cinayətlər məhkəmələri üzrə:**

1.2. Murad Şamxal oğlu Aslanov Lənkəran Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

1.3. Firdovsi Zülfü oğlu Əliyev Masallı Rayon Məhkəməsinin hakimi və sədri vəzifələrindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

1.4. Kamil Çingiz oğlu Əliyev Yevlax Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

1.5. Aygün Arzu qızı Qurbanova Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

1.6. Asif Əmrah oğlu Əliyev Gəncə Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

**inzibati məhkəmələr üzrə:**

1.7. Natiq Əvəz oğlu İsmayılov Şamaxı Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı İnzibati Məhkəməsinin hakimi təyin edilsin;

1.8. Ramin Nizaməddin oğlu Quliyev Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı İnzibati Məhkəməsinin hakimi təyin edilsin;

1.9. Fərid Nadir oğlu Əliyev Tovuz Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Gəncə İnzibati Məhkəməsinin hakimi təyin edilsin;

**kommersiya məhkəmələri üzrə:**

1.10. Xədicə Əlicabbar qızı Səfərli Gəncə Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Gəncə Kommersiya Məhkəməsinin hakimi təyin edilsin;

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

1.11. Rəşad Seylan oğlu Məmmədov Gəncə Kommersiya Məhkəməsinin hakimi və sədri vəzifələrindən azad edilərək Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.12. Səidə Hüseynağa qızı Məmmədova Şirvan Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi təyin edilsin;

1.13. Fuad Bəhruz oğlu Babaşov Bərdə Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi təyin edilsin;

**rayon (şəhər) məhkəmələri üzrə:**

1.14. Vüsalə Yadigar qızı Məmmədova Xaçmaz Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Sumqayıt Şəhər Məhkəməsinin hakimi təyin edilsin.

2. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, aşağıdakı hakimlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

**ağır cinayətlər məhkəmələri üzrə:**

**Bakı Ağır Cinayətlər Məhkəməsi**
Quliyev Vüqar Elbrus oğlu
Namazov Fərid Arif oğlu
**Gəncə Ağır Cinayətlər Məhkəməsi**
Məmmədzadə Mikayıl Maarif oğlu
Vəliyev Elşən Yaşar oğlu
**Lənkəran Ağır Cinayətlər Məhkəməsi**
Məmmədov Neymət Hüsən oğlu

**Sumqayıt Ağır Cinayətlər Məhkəməsi**
Cəfərzadə İlham Nizami oğlu
**Şəki Ağır Cinayətlər Məhkəməsi**
Məmmədov Xaliq Musa oğlu

**inzibati məhkəmələr üzrə:**

**Bakı İnzibati Məhkəməsi**
Babayev Aydın Vahid oğlu
Cəlalov Bəhlul Məmmədcəfər oğlu
Əlizadə Fariz Ariz oğlu
Musayeva Ləman Samir qızı
**Gəncə İnzibati Məhkəməsi**
Əliyeva Gülşən Talıb qızı

**kommersiya məhkəmələri üzrə:**

**Bakı Kommersiya Məhkəməsi**
Namazova Günay Rüstəm qızı
**Şirvan Kommersiya Məhkəməsi**
Abbasov Zaur Vahid oğlu

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

**Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi**
Bağırov Zamiq Rəşid oğlu
**Bakı şəhəri Xətai Rayon Məhkəməsi**
Abdullayeva Aynur Aydın qızı
Eyvazova Samirə Əli qızı
**Bakı şəhəri Xəzər Rayon Məhkəməsi**
Rüstəmov Emin Şahin oğlu
**Bakı şəhəri Qaradağ Rayon Məhkəməsi**
Aslanova Gülnar Faiq qızı
**Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi**
Abbasov Nail İbad oğlu
Heydərova Əfsanə Elbrus qızı
**Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi**
Mirzəliyev Ruslan Əsəd oğlu
Rəcəbova Elnurə Hüseyn qızı
**Bakı şəhəri Suraxanı Rayon Məhkəməsi**
Kərimov Namiq Həsrət oğlu
Mirzəyeva Firuzə Fuad qızı
Mirzəyeva Ünsüyyət Hacımehdi qızı
**Bakı şəhəri Yasamal Rayon Məhkəməsi**
Sultanova Məmmədova Ayşən Ramiz qızı

**rayon (şəhər) məhkəmələri üzrə:**

**Ağcabədi Rayon Məhkəməsi**
Musayev Şahəli Calal oğlu
**Gəncə Şəhər Məhkəməsi**
Əlizadə Elxan Novruz oğlu
Fərhadov Fuad Əlirza oğlu
**Lənkəran Rayon Məhkəməsi**
Pənahov Anar Elman oğlu
**Neftçala Rayon Məhkəməsi**
Quliyev Samir İdris oğlu
**Salyan Rayon Məhkəməsi**
Məmmədli Ənnağı Əbdül oğlu
**Samux Rayon Məhkəməsi**
Kərimova Tərifə Əbülfət qızı
**Sumqayıt Şəhər Məhkəməsi**
Həxiyeva Şəbnəm Səlim qızı
Quliyev Ramiz Mübariz oğlu
**Şəmkir Rayon Məhkəməsi**
Məhəmmədi Həvayət Kəmaləddin qızı
**Şirvan Şəhər Məhkəməsi**
Mustafayev Ceyhun Mustafa oğlu.

3. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, hakim vəzifəsinə aşağıdakı namizədlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

**hərbi məhkəmələr üzrə:**

**Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi**
Eminov Əziz Mürsəl oğlu
**Gəncə Hərbi Məhkəməsi**
Şəbəndəyeva Təhminə Əlistan qızı

**Naxçıvan Muxtar Respublikasının rayon məhkəmələri üzrə:**

**Babək Rayon Məhkəməsi**
Əhmədova Aynur Əvəz qızı

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

**Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi**
İbrahimli Toğrul Salman oğlu
Yusifova Ülkər Fizuli qızı
**Bakı şəhəri Xətai Rayon Məhkəməsi**
Əlizadə Orxan Arzuxan oğlu
Ramazanov Zəfər Akif oğlu
**Bakı şəhəri Xəzər Rayon Məhkəməsi**
Hüseynova Mələk Bəxtiyar qızı
Məhərrəmov Vüqar Sarvan oğlu
**Bakı şəhəri Qaradağ Rayon Məhkəməsi**
Maxsudova Ülkər Taleh qızı
Məmmədova Nigar Kərəm qızı
**Bakı şəhəri Nərimanov Rayon Məhkəməsi**
Əzizova Şəbnur Rəfail qızı
**Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi**
Həsənov İlyas İnqilab oğlu
İsmayılova Səbinə Vüqar qızı
**Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi**
Süleymanov Cavid Loğman oğlu
**Bakı şəhəri Suraxanı Rayon Məhkəməsi**
Məmmədov Məmməd Əhməd oğlu

**rayon (şəhər) məhkəmələri üzrə:**

**Abşeron Rayon Məhkəməsi**
Eminbəyli Məhəmməd Muxtar oğlu
Teymur-Zadə Elvin Rasif oğlu
**Ağcabədi Rayon Məhkəməsi**
Alməmmədov Nəriman Əli oğlu
**Ağstafa Rayon Məhkəməsi**
Həsənov Cavad İsa oğlu
**Beyləqan Rayon Məhkəməsi**
İslamov Tamerlan Cəlil oğlu
**Bərdə Rayon Məhkəməsi**
Hüseynquliyeva Lamiyə Qabil qızı
**Biləsuvar Rayon Məhkəməsi**
Əliyeva Aytəkin Güləli qızı
**Gəncə Şəhər Məhkəməsi**
Babazadə Ülkər Ağamalı qızı
Bayramova Kəmalə Fətulla qızı
Məmmədova Nərgiz Ramiz qızı
**Goranboy Rayon Məhkəməsi**
Vəliyev Kazım İntiqam oğlu
**Göyçay Rayon Məhkəməsi**
Camalzadə Cavid Əhməd oğlu
**Xaçmaz Rayon Məhkəməsi**
Ağazadə Nərmin Calal qızı
**Xankəndi Şəhər Məhkəməsi**
Niyazova Səkinə Mirzə qızı
**Kürdəmir Rayon Məhkəməsi**
Muxtarov Muxtar Arif oğlu
**Qax Rayon Məhkəməsi**
Mirzəzadə Asim Vilayət oğlu
**Qazax Rayon Məhkəməsi**
Məmmədova Nigar İbrahim qızı
**Qəbələ Rayon Məhkəməsi**
Abbaszadə Nərgiz Mirzəli qızı
**Quba Rayon Məhkəməsi**
Qazıbəyov İbrahim Mehman oğlu
**Qusar Rayon Məhkəməsi**
Səfərli Günel Adil qızı
**Laçın Rayon Məhkəməsi**
Mustafayev Cavidan Mustafa oğlu
**Lənkəran Rayon Məhkəməsi**
Murquzov Elmir İlqar oğlu
**Masallı Rayon Məhkəməsi**
Qasımlı Fidan Lətif qızı
**Oğuz Rayon Məhkəməsi**
Əliyev Rəşad Ayıl oğlu
**Saatlı Rayon Məhkəməsi**
Cəmilova Aygün Fərhad qızı
**Sumqayıt Şəhər Məhkəməsi**
Məhərrəmov Vüsal Rəfi oğlu
**Şəki Rayon Məhkəməsi**
Mövlayev Azər Aydın oğlu
**Şirvan Şəhər Məhkəməsi**
Abbasova Nərmin Bəxtiyar qızı
**Yevlax Rayon Məhkəməsi**
Cəfərova Ruqiyyə Ülfət qızı.

4. Bu Sərəncamın 1-ci və 3-cü hissələri bu Sərəncam imzalandığı gündən, 2-ci hissəsi 2026-cı il yanvarın 12-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2025-ci il*

## Azərbaycan Respublikası idmançılarının və idman mütəxəssislərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Abdullayev Yaqub Bəkir oğlu
Ağarəhimov Cahangir Ağababa oğlu
Aslanova Elmira Aydın qızı
Bayramov Cahangir Tofiq oğlu
Əliyev Coşqun Ceyhun oğlu
Hüseynov Fikrət Akif oğlu
Məhərrəmov Azər Asif oğlu
Məmmədov Eduard Tofiq oğlu
Musayeva Vəfa Təbriz qızı
Rəcəbov Nurəddin Rəcəb oğlu.

2. Azərbaycanda idmanın inkişafında xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə aşağıdakı şəxslərə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adı verilsin:

Gözəlbəyli Zöhrab Katib oğlu
İmaməliyev Ələkbər Əbdülbağı oğlu
Qədimova İlahə Akif qızı
Mirəliyev Mövlud Mustafa oğlu.

3. Azərbaycanda idmanın inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Əliyev Qərib Tələt oğlu
Həsənov Tərlan Əliheydər oğlu
Xudiyev Asim Xəlil oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2025-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Zati-aliləri!

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik və rifah arzularımı qəbul etməyinizi xahiş edirəm.

***II Əl-Hüseyn bin ABDULLAH,***
***İordaniya Haşimilər Krallığının Vəliəhd Şahzadəsi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi təbrik edirəm.

Sizin həyat yolunuz böyük məsuliyyət hissinə və öz xalqına sədaqətə malik qətiyyətli, iradəli və cəsur bir insanın yoludur.

Məlumdur ki, Siz uzun illər ərzində fəaliyyətinizlə Azərbaycanın vətəndaşları, onların rifahı və təhlükəsizliyi naminə çox böyük işlər görmüsünüz, ən çətin vəziyyətlərdə özünüzü mətinliklə və ləyaqətlə aparmış, qarşıya qoyulan vəzifələri yerinə yetirmisiniz.

Azərbaycanda həyata keçirdiyiniz islahatlar kursu, siyasi sabitliyin möhkəmləndirilməsi və milli iqtisadiyyatın inkişafı, vətəndaşların rifahının yüksəldilməsi Sizə xalqın ən yüksək etimadını qazandırmışdır.

Əminəm ki, Siz daha parlaq gələcəyə doğru çox addımlar atacaqsınız, iş təcrübəniz və məsuliyyətiniz Azərbaycan xalqının maraqları naminə nəzərdə tutulan bütün planların həyata keçməsinə kömək edəcəkdir.

Sizə, doğmalarınıza və yaxınlarınıza möhkəm cansağlığı, uzun ömür, davamlı sülh, firavanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Ramzan KADIROV,***
***Rusiya Federasiyasının Çeçenistan Respublikasının başçısı***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Zati-alinizi səmimiyyətlə təbrik edir, Sizə və ailənizə cansağlığı, uzun ömür, xoşbəxtlik və rifah arzulayıram.

Zati-alinizin Ali Baş Komandan kimi qətiyyətli rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi və 24 saatlıq antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi təkcə qardaş Azərbaycan xalqı üçün deyil, həm də Türkiyə xalqı üçün böyük qürur və şərəf mənbəyi olmuşdur.

Cənab Prezidentimiz Rəcəb Tayyib Ərdoğanla birlikdə həyata keçirdiyiniz ortaq ideallar və uğurlu əməkdaşlıq bizə gələcək üçün böyük ümid və ruh yüksəkliyi verir.

Sizin Qafqazda sülhün memarı kimi humanist və müdrik siyasətinizlə bütün dünyaya nümunəvi liderlik göstərdiyinizi böyük heyranlıqla izləyirik.

Qardaş Azərbaycanın bütün məqsədlərinə uğurla çatacağı ümidi ilə qarşıdan gələn Yeni il münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Zati-alinizə dərin hörmət və ehtiramımı bildirirəm.

***Şamil AYRIM,***
***Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri***

❖ ❖ ❖

Zati-aliləri!

İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin Avropa Mərkəzi Ərazi İdarəsi adından doğum gününüz münasibətilə ən səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirəm.

Bu ilin noyabr ayında Bakıya səfərimiz zamanı Sizinlə görüşməyimiz bizim üçün şərəf idi. Dəyərli vaxtınızı ayırdığınıza və bizə diqqət göstərdiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Sizə möhkəm cansağlığı, ölkə rəhbəri kimi fəaliyyətinizdə uğurlar, güc-qüvvət, Azərbaycan xalqına davamlı tərəqqi, sülh, sevinc arzulayırıq.

*Hörmətlə,*

***Cek GERARD,***
***ABŞ-nin İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin Avropa Mərkəzi Ərazi İdarəsinin birinci məsləhətçisi***

❖ ❖ ❖

Zati-aliləri!

Otuz altı Avropa ölkəsindən aparıcı alimləri, ictimai xadimləri birləşdirən platforma - Avropa Müsəlman Forumu adından Sizə doğum gününüz münasibətilə ən səmimi təbriklərimizi çatdırmaqdan şərəf duyuruq.

Azərbaycan Respublikasının suverenliyinin, sabitliyinin və beynəlxalq mövqeyinin möhkəmlənməsində həlledici rol oynayan liderliyinizi yüksək dəyərləndiririk. Sizin müdrik rəhbərliyiniz altında Azərbaycan zəngin mədəni irsini, mənəvi dəyərlərini qoruyub saxlayaraq qlobal miqyasda nüfuzlu bir aktor kimi tanınır.

Avropa Müsəlman Forumu Azərbaycan Respublikası ilə konstruktiv münasibətlərini və Zati-alinizin dialoqa, əməkdaşlığa və qarşılıqlı anlaşmaya töhfələrini yüksək qiymətləndirir. Bu töhfələr islam dəyərlərinin, mədəniyyətlərarası harmoniyanın, birgəyaşayışın təşviqində mühüm rol oynayır.

Zati-alinizə möhkəm cansağlığı, bol enerji və Azərbaycan xalqına xidmətinizdə uğurlar diləyirik. Həmçinin Azərbaycan Respublikasına davamlı sülh, firavanlıq və daha da çox tərəqqi arzulayırıq.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımızı qəbul etməyinizi xahiş edirik.

***Abdul-Vahed NİYAZOV,***
***Avropa Müsəlman Forumunun prezidenti***

*Forumun İdarə Heyətinin üzvləri:*
***Nader AKKAD - İtaliya,***
***İqbal SAKRANİ - Böyük Britaniya,***
***Nazir AHMED - Böyük Britaniya,***
***Anna STAMOU - Yunanıstan,***
***Romas YAKUBAUSKAS - Litva,***
***Doğan BEKİN - Türkiyə***

❖ ❖ ❖

Zati-aliləri, çox hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi Rusiya Müsəlmanları Ruhani Məclisi adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Müasir Azərbaycanın sosial-iqtisadi və ictimai-siyasi inkişafda, beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsində bütün möhtəşəm nailiyyətləri Sizin adınızla bağlıdır. Uzun illər Azərbaycan Prezidenti vəzifəsində səylə çalışaraq respublikada dövlətçiliyin, ictimai vəhdətin möhkəmləndirilməsinə, millətlərarası və dinlərarası münasibətlərin harmoniyasına mühüm töhfələr verirsiniz.

Siz haqlı olaraq qlobal miqyasda ən nüfuzlu siyasi xadimlərdən biri hesab edilirsiniz. Fərəhlə qeyd edirik ki, Siz insanların sabit və təhlükəsiz həyatı naminə mədəniyyətlərarası dialoqun inkişafı, dinlərarası sülhün möhkəmləndirilməsi üçün genişmiqyaslı və mühüm işlər aparırsınız.

Mənəvi inkişaf məsələlərinə gəldikdə, biz ənənəvi islam dəyərlərinin qorunmasına, inancından və milliyyətindən asılı olmayaraq, Rusiya və Azərbaycan vətəndaşları arasında qarşılıqlı hörmət və anlaşma mühitinin dəstəklənməsinə Sizin göstərdiyiniz diqqəti yüksək qiymətləndiririk.

Sizə möhkəm cansağlığı, həmişə tükənməz həyat enerjisi və mətinlik arzulayıram. Qoy həyatınız xoşbəxtlik, sevinc və uğurlarla dolu olsun, bütün təşəbbüsləriniz müvəffəqiyyətlə başa çatsın! Etibarlı silahdaşlar və sadiq dostlar, bütün təşəbbüslərinizdə Sizi dəstəkləyən yaxınlarınız həmişə yanınızda olsun!

Uca Allah Sizi qorusun, xeyirxah əməllərə görə mükafatlandırsın!

*Hörmətlə və xeyir-dualarla,*

***Albir həzrət KRQANOV,***
***Moskvanın müftisi, Rusiya Müsəlmanları Ruhani Məclisinin rəhbəri***

❖ ❖ ❖

Zati-aliləri!

"ACWA Power" şirkətinin Direktorlar Şurası və bütün kollektivi adından Sizə doğum gününüz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram. Bu əlamətdar gün Azərbaycan Respublikasına inkişafın bütün sahələrində nailiyyətlər qazandıran uzaqgörən liderliyinizi qeyd etmək üçün yaxşı fürsət yaradır.

Zati-alinizin müdrik və qətiyyətli rəhbərliyi altında Azərbaycan suverenliyini, ərazi bütövlüyünü bərpa etmiş və möhkəmləndirmiş, bu da beynəlxalq ictimaiyyətdə dərin hörmət, ölkə vətəndaşlarında böyük qürur hissi yaratmışdır. Azad edilmiş ərazilərin uğurla bərpası və inteqrasiyasından tutmuş mühüm əhəmiyyətə malik regional və qlobal enerji layihələrinə qədər Azərbaycanın əldə etdiyi çox böyük nailiyyətlər Sizin uzaqgörənliyinizin və xalqınızın firavanlığına sarsılmaz sadiqliyinizin əyani sübutudur.

İqtisadi şaxələndirməyə, ardıcıl inkişafa və "yaşıl keçid"ə davamlı diqqət yetirməyiniz firavan və sabit gələcəyin təməlini təşkil edir. COP29-a evsahibliyi etmək şərəfi Azərbaycanın artan qlobal təsirini, davamlı və təhlükəsiz enerji mənzərəsinin formalaşdırılmasında liderliyini nümayiş etdirir.

"ACWA Power" bu mühüm prosesləri dəstəkləməkdən və öz töhfəsini verməkdən qürur duyur. Tərəfdaşlığımız vasitəsilə Zati-alinizin daha təmiz, daha təhlükəsiz enerji gələcəyi ilə bağlı təşəbbüslərinə dəstək verərək, ölkələrimiz arasında əlaqələri daha da möhkəmləndirməyə sadiq qalırıq.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımı, cansağlığı, xoşbəxtlik, uğurlar, Azərbaycan xalqına davamlı sülh və rifah arzularımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Məhəmməd ƏBUNƏYYAN,***
***Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin təsisçisi və Direktorlar Şurasının sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz əsl Azərbaycan vətənpərvəri, güclü və müdrik dövlət xadimisiniz. Siz ildən-ilə doğma ölkənizi daha böyük tərəqqiyə doğru aparır, respublika vətəndaşlarının həyatının bütün sahələrinin planlı və dinamik inkişafına töhfə verirsiniz. Sizin həyatınız parlaq səhifələr və böyükmiqyaslı nailiyyətlərlə zəngindir. Vətənin mənafeyi naminə uzun illər ərzində göstərdiyiniz fədakar fəaliyyətin əhəmiyyətini yüksək qiymətləndirməmək mümkün deyil.

Qoy həyatınızın növbəti ili yeni qələbələrlə və bütün təşəbbüsləriniz uğurlarla əlamətdar olsun!

Sizə və yaxınlarınıza möhkəm cansağlığı, xoşbəxtlik, hər zaman ruh yüksəkliyi, tükənməz enerji və rifah arzulayıram.

*Hörmətlə,*

***Pyotr QLIBOÇKO,***
***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, professor***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

İcazə verin, doğum gününüz münasibətilə Sizi M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin minlərlə nəfərdən ibarət kollektivi adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edim.

Ədalət prinsiplərinə, sosial məsuliyyətə sadiqliyiniz və vətəndaşların rifahına göstərdiyiniz qayğı səmimi heyranlıq doğurur. Azərbaycan Respublikasının sabitliyinin, təhlükəsizliyinin və rifahının təmin edilməsi istiqamətində göstərdiyiniz səylər ölkəyə öz iqtisadi, mədəni potensialını qoruyub saxlamağa və artırmağa imkan verib ki, bu da müasir şəraitdə xüsusilə böyük əhəmiyyət kəsb edir.

Sizin elm və təhsilin inkişafına verdiyiniz töhfəni, innovativ layihələrə göstərdiyiniz dəstəyi və ənənəvi dəyərlərin qorunmasını xüsusi qeyd etmək istərdim. Bütün bunlar gələcək nəsillər üçün möhkəm təməl yaradır.

Əminəm ki, Moskva Dövlət Universiteti ilə Azərbaycanın elm və təhsil mərkəzləri arasında əməkdaşlığın gələcək inkişafı ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə töhfə verəcəkdir.

İcazə verin, Moskva Dövlət Universitetinin Bakı şəhərindəki filialına göstərdiyiniz əvəzsiz dəstəyə, həmçinin ümumilikdə təhsil və elmin inkişafı məsələlərinə ayırdığınız diqqətə görə Sizə səmimi minnətdarlığımı və təşəkkürümü bildirim.

Möhtərəm İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq, doğma ölkənizin rifahı və dövlətlərimiz arasında hərtərəfli əməkdaşlığın inkişafı üçün nəzərdə tutduğunuz bütün planların həyata keçməsində uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Viktor SADOVNİÇİ,***
***M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru***

❖ ❖ ❖

Çox hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin həyat yolunuz Vətənə fədakar xidmətin parlaq nümunəsidir və həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda milyonlarla insanı ruhlandırır. Sizin müdrik rəhbərliyiniz altında ölkə tərəqqi yolu ilə inamla irəliləyir, müstəqilliyini daha da möhkəmləndirir, regionda sülh və sabitliyin simvoluna çevrilir.

Tarixi ədalətin bərpası - Qarabağın azad edilməsi üçün atdığınız böyük addımlara görə Sizə xüsusi olaraq minnətdarıq. Bu tarixi Qələbə strateji uzaqgörənliyiniz, əzmkarlığınız və çox böyük səyləriniz sayəsində mümkün olmuşdur.

Bu gün Siz öz zəngin təcrübənizdən istifadə və bütün resursları səfərbər edərək Azərbaycana yeni nailiyyətlər qazandırırsınız. Azad edilmiş ərazilərin bərpası, ölkənin beynəlxalq mövqeyinin daha da möhkəmləndirilməsi və Azərbaycan üçün yeni üfüqlər açan siyasi qələbələr bu nailiyyətlərin əyani təsdiqidir.

Milli ruhun gücləndirilməsi, iqtisadiyyatın, elmin, təhsilin və sosial sahələrin inkişafı üçün gördüyünüz işlər dövlətin tərəqqisi və hər bir vətəndaşın rifahı üçün möhkəm təməl yaradır. Siz ən mürəkkəb problemləri şərəf və ləyaqətlə həll etməyə qadir olan, bu günün çətinliklərini və sabahın perspektivlərini görən bir liderin müdrikliyini təcəssüm etdirirsiniz.

Sizə və gözəl ailənizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, rifah, Azərbaycanın firavanlığı, tərəqqisi naminə səmərəli fəaliyyətinizdə tükənməz enerji və yeni-yeni uğurlar arzulayıram.

Doğum gününüz mübarək!

*Dərin hörmətlə Sizin,*

***Məmməd ƏLİYEV,***
***Rusiya Elmlər Akademiyasının və Rusiya Tibb Elmləri Akademiyasının akademiki, "Dostluq", "Şöhrət" və "Şərəf" ordenləri laureatı, Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu ilə təltif edilmiş, Rusiya Federasiyasının dövlət və hökumət mükafatları laureatı, Rusiyanın Əməkdar elm xadimi və "Dostluq" ordeni laureatı***

❖ ❖ ❖

Zati-aliləri, hörmətli İlham Heydər oğlu!

"TRACECA" Hökumətlərarası Komissiyasının Daimi Katibliyi adından və şəxsən öz adımdan Sizə dərin ehtiramımı bildirir, doğum gününüz münasibətilə səmimi təbriklərimi çatdırıram.

Bu əlamətdar gündə Sizə, yaxınlarınıza və bütün Azərbaycan xalqına möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq və rifah arzu edirəm.

Sizin uzaqgörən rəhbərliyinizlə Azərbaycan Respublikası dinamik iqtisadi artımı, institusional islahatları və fəal xarici siyasəti özündə ehtiva edən inkişaf kursunu davam etdirir. Bütün sahələrdə əldə edilən nailiyyətlər ölkənin beynəlxalq əməkdaşlığının genişləndirilməsi, regional və qlobal səviyyələrdə nüfuzunun möhkəmləndirilməsi üçün möhkəm təməl yaradır.

"TRACECA" Hökumətlərarası Komissiyasının Daimi Katibliyi Azərbaycanın tərəqqisi və əməkdaşlığın çoxsaylı sahələr üzrə, o cümlədən nəqliyyat sektorunun təkmilləşdirilməsi istiqamətində göstərdiyiniz səyləri dərin hörmətlə qeyd edir. Fürsətdən istifadə edərək, Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizinin bütün iştirakçı ölkələrinin mənafeyi naminə "TRACECA"nın fəaliyyətinə Azərbaycan Respublikasının göstərdiyi dəstəyə görə səmimi minnətdarlığımızı bildirirəm.

Zati-aliləri, Sizi bir daha təbrik edir, ən xoş arzularımı bildirirəm.

*Hörmətlə,*

***Asset ASSAVBAYEV,***
***"TRACECA" Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Baş katibi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

İcazə verin, doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırım.

Siz Azərbaycan Respublikasının müasir tarixinin görkəmli şəxsiyyətisiniz. Uzaqgörən siyasətçi kimi mühüm keyfiyyətləriniz, geniş düşüncəniz və məqsədlərinizə çatmaqda əzmkarlığınız Azərbaycan Respublikasının Prezidenti kimi uğurlu fəaliyyətinizi müəyyən etmişdir.

Əminəm ki, müdrik lider və dövlət xadimi kimi istedadınız uzun illər ərzində Azərbaycan Respublikasını gücləndirəcək və inkişaf etdirəcəkdir.

Sizə möhkəm cansağlığı, gözəl ölkənizin zəhmətkeş xalqının rifahı naminə fəaliyyətinizdə tükənməz enerji və yeni böyük nailiyyətlər arzularımı qəbul etməyinizi xahiş edirəm.

*Dərin hörmətlə,*

***İqor MAKAROV,***
***"ARETİ" Beynəlxalq Şirkətlər Qrupunun prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Rusiyanın TASS informasiya agentliyinin kollektivi Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir.

Rusiya ilə Azərbaycan arasında mehriban qonşuluq prinsiplərinə əsaslanan və zamanın sınağından çıxmış sıx münasibətlər mövcuddur. Sizin bu ilin oktyabr ayında Düşənbədə Rusiyanın dövlət başçısı ilə görüşünüz iki ölkə arasında əməkdaşlığın konyunktur dalğalanmalarına məruz qalmamasının bariz nümunəsi oldu. Həmin görüş Moskva ilə Bakının konstruktiv dialoqa və regional sabitliyin birgə gücləndirilməsinə hazır olduğunu nümayiş etdirdi.

İqtisadi və humanitar sahələrdə birgə proqramların həyata keçirilməsini və dövlətlərarası əlaqələrin genişləndirilməsini təşviq etməklə Siz hər iki ölkə üçün uğurlu gələcəyə zəmanət verən tarixi təməli möhkəmləndirirsiniz.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, sülh, firavanlıq və Azərbaycan-Rusiya münasibətlərinin yaxşılaşması istiqamətində təşəbbüslərinizdə yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

***Andrey KONDRAŞOV,***
***Rusiyanın TASS İnformasiya Agentliyinin baş direktoru***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

"Qazprom" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyəti adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizə möhkəm cansağlığı, səadət, Azərbaycanın inkişafına yönəlmiş bütün planlarınızın uğurla reallaşmasını, xalqınızın firavanlığı naminə səmərəli fəaliyyətinizdə yeni böyük nailiyyətlər arzulayıram.

*Hörmətlə,*

***Aleksey MİLLER,***
***Rusiyanın "Qazprom" Publik Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Çox hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

Sizin çoxillik ali dövləti fəaliyyətiniz Azərbaycanın inkişafının əsas mərhələləri ilə ayrılmaz şəkildə bağlıdır. Strateji məsələlərə ardıcıl yanaşmanız, eləcə də dövlətin dayanıqlılığının gücləndirilməsi və vətəndaşların rifahının yaxşılaşdırılması işlərində xidmətləriniz Sizə həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda layiqli hörmət qazandırıb.

Sizin rəhbərliyinizlə Azərbaycan iqtisadi modernləşmə və milli potensialının gücləndirilməsi prioritetlərini inamla reallaşdırır. Sizə xas olan strateji baxış və uzunmüddətli hədəflərə çatmaq əzminiz ölkənin bundan sonra da davamlı şəkildə irəliyə hərəkət etməsi üçün möhkəm təməl yaradır.

Mürəkkəb və dinamik şəkildə dəyişən qlobal gündəm şəraitində düşünülmüş qərarlar, eləcə də tərəfdaşlarla davamlı, praqmatik və qarşılıqlı hörmətə əsaslanan əlaqələrin genişləndirilməsi ilə bağlı nümayiş etdirdiyiniz mövqe xüsusilə dəyərlidir.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, tükənməz enerji, hər zaman ruh yüksəkliyi və Azərbaycanın rifahı naminə ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayıram. Əminəm ki, müdrikliyiniz və liderlik istedadınızla bundan sonra da ölkənizin tərəqqisi üçün böyük işlər görməkdə davam edəcəksiniz.

*Hörmətlə,*

***German QREF,***
***Rusiya Federasiyasının "Sberbank" Publik Səhmdar Cəmiyyətinin prezidenti, İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

Siz istedadlı siyasi və dövlət xadimi olaraq Azərbaycan Respublikasının inkişafına böyük töhfə vermisiniz.

Bu gün Rusiya ilə Azərbaycan arasında əlaqələr bərabərlik, əsrlərə söykənən dostluq və qarşılıqlı hörmət ənənələri əsasında inkişaf etməyə davam edir.

Ölkələrimiz ən müxtəlif sahələrdə, o cümlədən hərbi-texniki sahədə əməkdaşlığı genişləndirir.

Əminəm ki, Rusiya ilə Azərbaycan arasında dialoq bundan sonra da konstruktiv olacaqdır.

Sizə möhkəm cansağlığı arzulayıram.

*Hörmətlə,*

***Sergey ÇEMEZOV,***
***Rusiya Federasiyasının "Rostex" Dövlət Korporasiyasının baş direktoru***

❖ ❖ ❖

Zati-aliləri!

"Mir" Dövlətlərarası Teleradio Şirkəti adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə ən səmimi və xoş arzularla təbrik edirəm.

Sizə və yaxınlarınıza möhkəm cansağlığı, rifah, qarşıya qoyduğunuz məqsədlərin həyata keçməsində bundan sonra da uğurlar, Azərbaycan xalqına isə davamlı sülh və firavanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Radik BATIRŞİN,***
***"Mir" Dövlətlərarası Teleradio Şirkətinin sədri***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Hörmətli İlham Heydər oğlu!

Sizə doğum gününüz münasibətilə səmimi təbriklərimi çatdırıram.

Biz İsraildə Sizin Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmlənməsinə xidmət edən fəaliyyətinizi diqqətlə izləyirik. Siz dəfələrlə xarici təzyiqlər qarşısında əyilməyən lider kimi qətiyyət nümayiş etdirmisiniz. Biz israillilər dövlətimizlə qurduğunuz və bütün cəhdlərə baxmayaraq, heç kəsin xələl gətirə bilmədiyi dostluğa və tərəfdaşlığa görə Sizə səmimi-qəlbdən minnətdarıq.

Azərbaycan yəhudiləri, eləcə də ölkənizdəki digər azlıqların nümayəndələri dini etiqad azadlığına, təhlükəsizliyə, bərabər hüquqlara, antisemitizmə yol verilməməsinə görə Sizə təşəkkür edirlər.

Sizin Qarabağın işğaldan azad edilməsi ilə nəticələnən addımlarınız dünyada çox sayda xalqa ədalətin bərpa oluna biləcəyi ümidini verib. Bəzən bu, dərhal baş vermir, çünki bunun üçün gücü və münasib zamanı müəyyənləşdirməyə imkan verən müdriklik tələb olunur. Həqiqi nəticələr məhz bu yolla əldə edilir. Əsl dövlət liderləri "birgünlük siyasətçilər"dən fərqli olaraq məhz belə davranırlar.

Cənab Prezident, Sizin uğurlarınızı saymaqla bitməz. Azərbaycanın Sizin rəhbərliyinizlə sürətlə inkişaf etməsi, regionun lider dövlətinə çevrilməsi xüsusi qeyd edilməlidir.

İstər xarici ölkə liderlərinin, istərsə də milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycanda və dünyada yaşayan sadə insanların Sizə olan hörməti gördüyünüz işlərin bəhrəsidir. Ölkənizin rifahı naminə fəaliyyətiniz Sizə böyük ehtiram və rəğbət yaradıb.

Cənab Prezident, biz Sizin hamıya təklif etdiyiniz bu dostluq formulunu alqışlayırıq - Azərbaycan bərabərhüquqlu münasibətlər əsasında sizin dostunuz olmağa hazırdır. Lakin heç vaxt Azərbaycana nəyisə zorla qəbul etdirməyə çalışmayın.

Tam şəkildə əminik ki, Siz həm ölkə daxilində, həm də xaricdə yaşayan azərbaycanlılara hələ çoxlu qələbələr, nailiyyətlər bəxş edəcəksiniz.

Əziz İlham Heydər oğlu, icazə verin, doğum gününüz münasibətilə Sizi bir daha təbrik edim, Sizə və yaxınlarınıza möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycanı bundan sonra da uğurlara və firavanlığa doğru aparan fəaliyyətinizdə bol enerji arzulayım.

*Dərin hörmətlə,*

***Adam AMİLOV,***
***"AzİZ" - İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının prezidenti***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə cəmiyyətimizin üzvləri adından və şəxsən öz adımdan təbriklərimizi çatdırmaqdan, möhkəm cansağlığı, ali missiyanızda davamlı uğurlar arzulamaqdan böyük məmnunluq duyuram.

Qoy həyatınızın bu yeni ili həm Sizin üçün, həm də bütün azərbaycanlılar üçün yeni uğurlar və tərəqqi gətirsin!

Xalqınızın əmin-amanlığı, sabitliyi və firavanlığı naminə fəaliyyətinizi bundan sonra da qətiyyətlə davam etdirməyinizi arzulayıram.

Cənab Prezident, ən yüksək ehtiramımı və dərin hörmətimi qəbul etməyinizi xahiş edirəm.

***Məhəmməd FƏQİRİ,***
***Mərakeş-Azərbaycan Dostluq Cəmiyyətinin sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi Dünya Azərbaycanlı Alimlər Birliyinin üzvləri adından və şəxsən öz adımdan doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

2022-ci ildə gözəl Şuşamızda Sizin də iştirakınızla keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər qurultayındakı çıxışımda dediyim kimi, mən qalib Ordumuzun və Müzəffər Ali Baş Komandanımızın yanında olan diaspor ordusunun bir nümayəndəsiyəm.

Sizin 2024-cü ilin sentyabr ayında Bakıda keçirilən Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunun iştirakçılarına ünvanladığınız müraciətin bizə - xaricdə yaşayan və ürəyi daim Azərbaycanla döyünən elm adamlarına necə gözəl təsir bağışladığını, nə qədər ruh yüksəkliyi verdiyini sözlərlə ifadə etmək qeyri-mümkündür.

Cənab Prezident, mən 35 ildən çoxdur ki, Almaniyada yaşayan bir diaspor nümayəndəsi, həm də Dünya Azərbaycanlı Alimlər Birliyinin sədri kimi bildirirəm ki, hər zaman Sizin yanınızdayıq.

Allah Sizi və qalib xalqımızı qorusun!

*Hörmətlə,*

***Məsud ƏFƏNDİYEV,***
***Dünya Azərbaycanlı Alimlər Birliyinin sədri,***
***Azərbaycanın Əməkdar elm xadimi,***
***Almaniya hökumətinin təsis etdiyi "Aleksander fon Humboldt" mükafatını alan ilk azərbaycanlı, professor***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Sizi doğum gününüz münasibətilə Avropa Azərbaycan Mərkəzinin və Almaniya Azərbaycanlıları Alyansının adından səmimi-qəlbdən təbrik edir, Zati-alinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və Azərbaycanın tərəqqisi naminə həyata keçirdiyiniz ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzulayırıq.

Azərbaycan Respublikasının inkişafı, xalqımızın rifahının yüksəldilməsi, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsi və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması istiqamətində rəhbərliyinizlə həyata keçirilən məqsədyönlü siyasət və görülən işlər dünya azərbaycanlıları tərəfindən böyük rəğbət və qürur hissi ilə qarşılanır. Sizin qətiyyətli liderliyiniz sayəsində əldə olunan nailiyyətlər ölkəmizin gələcək inkişafı üçün möhkəm təməl formalaşdırır.

Bu əlamətdar gündə Zati-alinizə bir daha təbriklərimizi, yeni-yeni müvəffəqiyyətlər, tükənməz enerji arzularımızı çatdırırıq.

Doğum gününüz mübarək olsun!

*Dərin hörmətlə,*

***Zaur ƏLİYEV,***
***Avropa Azərbaycan Mərkəzinin sədri,***
***Almaniya Azərbaycanlıları Alyansının İdarə Heyətinin üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Niderlandda fəaliyyət göstərən Belçika-Niderland Koordinasiya Şurasının nəzdindəki təşkilatlar adından Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edir, Zati-alinizə möhkəm cansağlığı, uzun ömür və gələcək fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayırıq.

Sizin uzaqgörən, uğurlu daxili və xarici siyasətiniz nəticəsində Azərbaycan bu gün regionun ən güclü və nüfuzlu dövlətlərindən birinə çevrilmişdir. Ölkəmizin siyasi sabitliyi, iqtisadi inkişafı və beynəlxalq arenada artan nüfuzu məhz Sizin qətiyyətli və müdrik liderliyinizin bariz göstəricisidir.

Sizin rəhbərliyiniz altında Azərbaycan xalqı tarixi uğurlara imza atmışdır. Qarabağın işğaldan azad edilməsi və Vətən müharibəsində qazanılan möhtəşəm Qələbə tariximizə qızıl hərflərlə yazılmışdır. Bu böyük qüruru bizə yaşatdığınız üçün Sizə dərin minnətdarlığımızı bildiririk.

Siz təkcə Azərbaycanda deyil, dünyanın müxtəlif ölkələrində yaşayan bütün azərbaycanlıların Prezidenti, milli birliyimizin və həmrəyliyimizin rəmzisiniz. Diasporumuzun güclənməsi və azərbaycançılıq ideyasının möhkəmləndirilməsi istiqamətində həyata keçirdiyiniz ardıcıl siyasət xüsusi əhəmiyyət daşıyır.

Azərbaycanın davamlı inkişaf etməsində, bölgədə gücünün artmasında və beynəlxalq mövqelərinin möhkəmlənməsində Sizin rolunuz əvəzsizdir.

Sizə gələcək fəaliyyətinizdə uğurlar diləyir, rəhbərliyiniz altında Azərbaycanın daha da inkişaf etməsini və yeni zirvələr fəth etməsini arzulayırıq.

*Dərin hörmətlə,*

***Elsevər MƏMMƏDOV,***
*Belçika-Niderland Koordinasiya Şurasının Niderland üzrə əlaqələndiricisi, Benilüks Azərbaycanlıları Konqresinin sədri və Qarabağ İdman Klubunun rəhbəri,*
***İlhan AŞKIN,***
*Azərbaycan Türk Mədəniyyət Dərnəyinin sədri,*
***Elxan MİRHƏŞİMLİ,***
*Hollandiya Azərbaycan Evinin rəhbəri,*
***Emil ƏLİYEV,***
*Avropa Azərbaycanlıları Media Qrupunun rəhbəri,*
***Mayisə AĞAMİRZƏYEVA,***
*Ana Vətən Avropa Azərbaycanlı Qadınlar Birliyinin sədri,*
***Kəmalə CƏLİLOVA,***
*Beynəlxalq Azərbaycan Xanımlar Klubunun rəhbəri,*
***Firəngiz BAĞIROVA,***
*Niderland Azərbaycan Odlar Yurdu Cəmiyyətinin rəhbəri*

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu (MDBMİ) nəzdində fəaliyyət göstərən Azərbaycan Klubunun üzvləri adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə ən xoş arzularımızı çatdırıram.

Sizin müdrik, prinsipial və uzaqgörən rəhbərliyiniz altında Azərbaycan Respublikası müasir çağırışlara layiqincə cavab verən, beynəlxalq arenada nüfuzu daim artan güclü və suveren dövlət kimi mövqeyini daha da möhkəmləndirmişdir. Milli maraqlara əsaslanan ardıcıl dövlət siyasətiniz, sosial-iqtisadi inkişaf strategiyanız və müstəqil xarici siyasət kursunuz gənc nəsil üçün nümunə və ilham mənbəyidir.

Bizim üçün xüsusi qürur və mənəvi dəyər kəsb edən məqam ondan ibarətdir ki, Siz MDBMİ-nin məzunu olaraq bu ali məktəbin tarixi və intellektual irsinin parlaq nümayəndələrindən birisiniz. Bu fakt MDBMİ-də təhsil alan azərbaycanlı tələbələr üçün böyük stimul olmaqla yanaşı, üzərimizə xüsusi və məsuliyyətli bir missiya qoyur. Azərbaycanı beynəlxalq akademik mühitdə təmsil edən tələbələr kimi biz ölkəmizin adını daim uca tutmağı, dövlətçilik ənənələrinə və milli maraqlara sadiq qalmağı özümüz üçün yüksək mənəvi borc hesab edirik.

Sizin rəhbərliyinizlə həyata keçirilən gənclər və təhsil siyasəti, intellektual potensialın inkişafına göstərilən diqqət Azərbaycanın gələcəyinə yönəlmiş strateji baxışın bariz nümunəsidir. Xaricdə təhsil alan gənclər, o cümlədən MDBMİ tələbələri ölkəmizin uğurlarını böyük qürur hissi ilə izləyir və Vətənlə mənəvi bağlılıqlarını daha da möhkəmləndirirlər.

Biz Sizə güclü, müasir və qalib Azərbaycanın Prezidenti, milli birliyin və dövlətçilik ənənələrinin simvolu kimi dərin hörmət bəsləyirik. Sizin fəaliyyətiniz Azərbaycan gəncliyində dövlətə, xalqa və milli dəyərlərə xidmət idealını möhkəmləndirir.

Hörmətli cənab Prezident, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, uzun ömür, tükənməz enerji və Azərbaycan xalqının rifahı naminə həyata keçirdiyiniz ali missiyada yeni-yeni uğurlar arzulayırıq. Qoy yorulmaz fəaliyyətiniz ölkəmizə davamlı inkişaf, sülh və tərəqqi gətirsin!

*Dərin hörmət və ehtiramla,*

***Murad PİRMƏMMƏDOV,***
***Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu nəzdində fəaliyyət göstərən Azərbaycan Klubunun sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandan!

Karabük Azərbaycanlıların Həmrəylik, Mədəniyyət və İncəsənət Dərnəyi adından Zati-alinizə doğum gününüz münasibətilə səmimi təbriklərimizi çatdırmaqdan qürur duyuruq.

Sizin milli dövlətçiliyimiz və suverenliyimizin daha da möhkəmlənməsinə göstərdiyiniz diqqət bizim Vətənə bağlılığımızı gücləndirir. Azərbaycanın beynəlxalq arenada nüfuzunun artması, güclü bir dövlət kimi dünyada öz sözünü deməsi məhz Sizin siyasi iradəniz nəticəsində mümkün olmuşdur. Sizin qətiyyətiniz sayəsində 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanaraq Qarabağımızı azad etdik, dünyada qalib xalq olaraq tanındıq.

Bizə yaşatdığınız bu böyük sevinc və qürura görə Sizə minnətdarıq.

Fürsətdən istifadə edərək, Sizi 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də təbrik edirik.

*Dərin hörmətlə,*

***Eşqin İSMAYILOV,***
***Türkiyədə fəaliyyət göstərən Karabük Azərbaycanlıların Həmrəylik, Mədəniyyət və İncəsənət Dərnəyinin sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimizi, xoş arzularımızı çatdırmaqdan məmnunluq duyuram.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikasındakı inkişaf proseslərini, ölkənin nailiyyətlərini diqqətlə izləyirik. Azərbaycanın yüksəlişi, bütün sahələrdə əldə etdiyi uğurlar bizim üçün qürur mənbəyidir.

Sizin qətiyyətli liderliyinizlə 44 günlük Vətən müharibəsində qazanılan və bu il beşinci ildönümü qeyd edilən Zəfər təkcə Azərbaycanın deyil, bütün türk dünyasının bayramıdır. Regionda sülhün və təhlükəsizliyin təmin edilməsi istiqamətində göstərdiyiniz səylər təqdirəlayiqdir.

Fürsətdən istifadə edərək, Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə də təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqının firavanlığı naminə fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

*Hörmətlə,*

***Ziya Zakir ACAR,***
***İğdır Azərbaycan Evinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin kollektivi adından səmimi-qəlbdən təbrik edir, Sizə dərin hörmət və ehtiramımızı bildirirəm.

Sizin müdrik və uzaqgörən rəhbərliyiniz altında Azərbaycan Respublikası son illər ərzində dinamik inkişaf yolu keçmiş, güclü və nüfuzlu dövlətə çevrilmişdir. Dövlət müstəqilliyinin möhkəmləndirilməsi, milli maraqların qətiyyətlə qorunması və xalqın rifahının yüksəldilməsi istiqamətində həyata keçirdiyiniz ardıcıl və prinsipial siyasət Azərbaycan xalqının Sizə olan böyük inam və etimadının bariz ifadəsidir.

Bu uğurlu siyasi xəttin ən parlaq nəticələrindən biri isə Sizin Ali Baş Komandan kimi rəhbərliyinizlə qazanılmış tarixi Zəfərdir. Həmin Zəfər Azərbaycan dövlətçiliyinin şanlı səhifələrindən biri olmaqla yanaşı, xalqımızın birlik və əzminin, Sizin isə güclü siyasi iradənizin aydın göstəricisidir. Bu Qələbə bu gün bütün dünya azərbaycanlıları üçün qürur və mənəvi güc mənbəyinə çevrilmişdir.

Eyni zamanda xaricdə yaşayan soydaşlarımızın, o cümlədən Gürcüstan azərbaycanlılarının milli-mədəni kimliyinin qorunmasına, ana Vətənlə əlaqələrinin möhkəmləndirilməsinə göstərdiyiniz diqqət və qayğı xüsusi rəğbətlə qarşılanır və yüksək dəyərləndirilir.

Doğum gününüz münasibətilə Sizə möhkəm cansağlığı, uzun ömür və ailə səadəti arzulayıram. Azərbaycan dövlətinə və xalqına xidmət yolunda ali vəzifənizin icrasında Sizə daim uğurlar diləyirəm. Əminəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan bundan sonra da böyük nailiyyətlər əldə edəcək, beynəlxalq nüfuzunu və inkişaf tempini ardıcıl şəkildə yüksəldəcəkdir.

*Dərin hörmətlə,*

***Murad MURADOV,***
***Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin icraçı direktoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Rustavi Təhsil və Mədəniyyət Mərkəzinin kollektivi Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir.

Sizin rəhbərliyiniz altında Azərbaycan Respublikası böyük nailiyyətlər qazanmış, beynəlxalq aləmdə nüfuzunu daha da artırmış, milli-mənəvi dəyərlərin qorunması və inkişafı istiqamətində əhəmiyyətli nəticələr əldə etmişdir. Təhsil, mədəniyyət və gənclərin inkişafına göstərdiyiniz xüsusi diqqət hər zaman yüksək qiymətləndirilir. Azərbaycan torpaqlarının işğaldan azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpası xalqımızın Zəfər salnaməsinə məhz Sizin adınızla yazılmışdır.

Gürcüstanda yaşayan azərbaycanlılar Sizin diqqət və qayğınızı daim öz üzərlərində hiss edirlər. Biz həmişə zəngin mədəniyyətimiz, şanlı tariximiz, milli-mənəvi dəyərlərimiz və ənənələrimizlə haqlı olaraq fəxr etmişik. Amma bu gün bizim ən böyük qürur və iftixar mənbəyimiz milli dövlətimiz olan Azərbaycan Respublikası, onun dünyada yüksələn nüfuzu, güclənən mövqeyidir. Bu qüruru və iftixarı bizə bəxş etdiyiniz üçün Sizə minnətdarıq.

Sizə möhkəm cansağlığı, uzun ömür, şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar, Azərbaycan xalqının rifahı naminə həyata keçirdiyiniz işlərdə davamlı nailiyyətlər arzulayırıq.

*Dərin hörmət və ehtiramla,*

***Rustavi Təhsil və Mədəniyyət Mərkəzinin kollektivi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandan!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik.

Sizin liderliyinizlə Azərbaycan son 200 illik tariximizdə ilk dəfə olaraq itirdiyi torpaqları geri qaytararaq bir ilkə imza atdı. 44 günlük Vətən müharibəsində qazanılan şanlı Zəfərlə torpaqlarımız işğaldan azad olundu, Azərbaycan qalib dövlət kimi adını tarixə yazdı və bu statusla da dünyada tanındı.

Sizin uzaqgörənliyiniz sayəsində Azərbaycan təkcə regional deyil, qlobal miqyasda mühüm tranzit və strateji əhəmiyyətli aktora çevrilmişdir. Siz bütün təzyiqlərə cəsarətlə sinə gərərək ölkəmizin milli maraqlarını qətiyyətlə qorumusunuz.

Möhtərəm cənab Prezident, doğum gününüz mübarək!

Ulu Tanrıdan Sizə möhkəm cansağlığı, dövlətçiliyimizin daim qorunması və möhkəmləndirilməsi naminə həyata keçirdiyiniz bütün işlərinizdə müvəffəqiyyətlər arzulayırıq!

*Dərin ehtiramla,*

***Ayda ƏMİR HAŞİMİ,***
***Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının Stokholm şəhəri üzrə koordinatoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizi Estoniya-Azərbaycan Evi adından səmimi-qəlbdən təbrik edir, dərin hörmət və ehtiramımızı bildiririk.

Sizin uzaqgörən və qətiyyətli rəhbərliyiniz sayəsində Azərbaycan Respublikası mühüm tarixi nailiyyətlər əldə etmiş, dövlət suverenliyini və ərazi bütövlüyünü tam təmin etmiş, beynəlxalq aləmdə mövqelərini daha da gücləndirmişdir. Bu böyük uğurlar xaricdə yaşayan azərbaycanlılar üçün qürur mənbəyi olmaqla yanaşı, Vətənlə mənəvi bağlarımızı daha da möhkəmləndirir.

Sizin ardıcıl və məqsədyönlü diaspor siyasətiniz dünya azərbaycanlılarının birliyinin möhkəmlənməsi, milli kimliyimizin qorunması, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması baxımından xüsusi önəm kəsb edir. Biz də Estoniya-Azərbaycan Evi olaraq bu siyasətə uyğun şəkildə ölkəmizi layiqincə təmsil etməyə və Azərbaycan-Estoniya əlaqələrinin inkişafına töhfə verməyə çalışırıq.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, uzun ömür və ali dövləti fəaliyyətinizdə yeni-yeni müvəffəqiyyətlər arzulayırıq. Sizin rəhbərliyiniz altında Azərbaycan dövlətinin daim güclənəcəyinə, xalqımızın sülh və rifah şəraitində yaşayacağına inanırıq.

*Dərin hörmətlə,*

***Zəhra QƏHRƏMANLI,***
***Estoniya-Azərbaycan Evinin rəhbəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə dərin hörmət və ehtiramla səmimi-qəlbdən təbrik edir, Zati-alinizə möhkəm cansağlığı, uzun ömür və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan dövlətinin daha da qüdrətlənməsi, xalqımızın rifahının yüksəldilməsi naminə həyata keçirdiyiniz bütün təşəbbüslərdə Sizə davamlı nailiyyətlər arzu edirəm.

Cənab Prezident, Sizin keçdiyiniz həyat və liderlik yolu təkcə dövlət idarəçiliyini deyil, xalqın Sizə olan inamını, ümidlərini, tarixi yaddaşını və gələcəyə yönəlmiş baxışlarını özündə ehtiva edir. Bu yol son dərəcə böyük məsuliyyət tələb edən, eyni zamanda yüksək mənəvi dəyərə malik bir missiyadır və Siz bu missiyanı əzmkarlıq və ləyaqətlə həyata keçirirsiniz.

Arzu edirəm ki, gücünüz və qətiyyətinizlə Azərbaycan xalqına hər zaman yeni-yeni zəfərlər bəxş edəsiniz.

Doğum gününüz mübarək, cənab Prezident!

*Hörmətlə,*

***Günel BABANLI,***
***Serbiyanın Belqrad Universitetində fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin rəhbəri, filologiya üzrə fəlsəfə doktoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Zati-alinizi doğum gününüz münasibətilə Monreal Kanada Azərbaycan Cəmiyyəti adından səmimi-qəlbdən təbrik edirəm.

Sizə möhkəm cansağlığı, uzun ömür və Azərbaycan dövlətinin tərəqqisi naminə həyata keçirdiyiniz ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzulayıram.

Sizin uzaqgörən siyasətiniz, qətiyyətli liderliyiniz və milli maraqlara əsaslanan fəaliyyətiniz nəticəsində Azərbaycan bu gün beynəlxalq aləmdə güclü, müstəqil və nüfuzlu dövlət kimi tanınır. Bu uğurlar xaricdə yaşayan azərbaycanlılar üçün böyük iftixar mənbəyidir, eyni zamanda bizi Vətənimizlə daha sıx bağlayır və həmrəyliyimizi daha da möhkəmləndirir.

Arzu edirik ki, dövlətimiz üçün müəyyən etdiyiniz inkişaf yolu Sizin rəhbərliyinizlə daim uğurla davam etsin, xalqımız hər zaman rifah və əmin-amanlıq şəraitində yaşasın. İnanırıq ki, Azərbaycan Sizin rəhbərliyiniz altında gələcəkdə daha böyük nailiyyətlərə imza atacaqdır.

Cənab Prezident, Sizi doğum gününüz münasibətilə bir daha ürəkdən təbrik edir, dərin ehtiram və hörmətimi ifadə edir, ölkəmizin və xalqımızın rifahı naminə fəaliyyətinizdə yeni-yeni müvəffəqiyyətlər arzulayıram.

*Hörmətlə,*

***Rəna MÜSLÜMOVA,***
***Monreal Kanada-Azərbaycan Cəmiyyətinin təsisçisi və sədri***

# Böyük qayıdış proqramının icrası institusional inkişaf üçün zəmin yaradıb

Azərbaycanın işğaldan azad etdiyi Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi bərpa-quruculuq işləri, şəhərsalma və dayanıqlı inkişaf sahəsindəki təcrübəsi nümunə kimi təqdir olunur. Təsadüfi deyil ki, işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də əks olunan 5 ümummilli məqsədlərdən biri kimi qeyd olunub. Son 5 ildə bu proses plan üzrə davam edir, insanlar böyük qürur hissi ilə doğma yurdlarına qayıdırlar.

Artıq 30-dan çox yaşayış məntəqəsinə köç həyata keçirilib. İlkin mərhələdə ayrılmış vəsaitlərlə infrastrukturun təməli qoyulub, növbəti illərdə isə daha geniş sosial və iqtisadi layihələrin reallaşdırılması planlaşdırılıb.

Bu günlərdə Xankəndinin Kərkicahan qəsəbəsinə, həmçinin Ağdamda 2-ci yaşayış kompleksinə köç oldu. Prezident İlham Əliyev Qarabağa səfəri çərçivəsində yeni köç edən sakinlərlə görüşdü. Sevindirici haldır ki, Ağdamda üç kənddə artıq yaşayış var. Ağdam sakinlərinin də təhlükəsiz yaşayışı üçün hər cür şərait yaradılıb. Dövlət başçımız həmçinin Qarabağa budəfəki səfəri zamanı da yeni infrastruktur obyektlərinin açılışında iştirak etdi. Antiterror əməliyyatlarından sonra Azərbaycan Qarabağ və Şərqi Zəngəzura tam nəzarət edir. Təbii ki, böyük abadlıq məkanı kimi Qarabağ və Şərqi Zəngəzurun mənzərəsi Azərbaycanın gücünü göstərir. İşğaldan azad olunan ərazilərin qısa müddətdə bərpası və yenidən qurulması əsl nümunə kimi qiymətləndirilməlidir.



Cənab Prezident Ağdam sakinləri ilə görüşdə bir daha münaqişənin tarixindən bəhs edərək bildirdi ki, 30 illik işğal dövründə erməni işğalçıları Qarabağda şəhər və kəndlərimizi dağıtmış, urbisid siyasəti həyata keçirmişdir. Burada hətta tarixi və dini abidələr də məqsədli şəkildə viran qoyulmuşdur. Böyük Zəfərdən dərhal sonra öz daxili imkanları hesabına bərpa-quruculuq işlərinə başlayan Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzurun yeni siması fonunda uğurlu şəhərsalma siyasəti reallaşdırır. İşğaldan azad olunmuş ərazilərin bərpası fonunda Azərbaycanın şəhərsalma və dayanıqlı inkişaf sahəsində həyata keçirdiyi islahatlar, qarşıya qoyulmuş strateji prioritetlər, kompleks və inteqrasiya olunmuş yanaşmalar da sosial rifaha, iqtisadi dayanıqlılığa töhfə verməkdədir.

Ermənistanın işğal dövründə xarabazara çevirdiyi torpaqlarda son 5 ildə yeni şəhərlər və kəndlər inşa olunur. Böyük qayıdış proqramı uğurla icra edilir. Hazırda azad edilmiş ərazilərdə 60 mindən çox insan yaşayır, çalışır və təhsil alır.

Böyük qayıdış proqramının icrası ölkənin sosial, iqtisadi və institusional inkişafı üçün mühüm zəmin yaradıb. Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir.

Ümumilikdə, 2020-ci ildən bəri işğaldan azad olunmuş ərazilərdə inşa olunan infrastruktur layihələrinin iqtisadiyyatımız üçün yaradacağı əlavə dəyər orta və uzunmüddətli dövrdə gözlənilir.

Prezident İlham Əliyev Ağdamda 2-ci yaşayış kompleksinin sakinləri ilə görüşdə də bəyan etdi ki, bütün xalqımız, o cümlədən keçmiş məcburi köçkünlər bilirdilər və inanırdılar ki, tarixi ədalət bərpa ediləcək. Dövlət başçımız bir daha beynəlxalq birliyin ikili standartlar siyasətini xatırlatdı. Ermənistan-Azərbaycan münaqişəsi ilə məşğul olan, beynəlxalq təşkilatlar tərəfindən bu vəzifəni icra etməli olan qurumların işğalçı, talançı dövlətlə həmrəy olduqlarını bildirdi.

"Mən 17 il ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri ilə təmasda olmuşam, onlarla çoxsaylı görüşlər keçirmişəm. Hər dəfə görüşəndə illər keçdikcə görürdüm ki, bunların məqsədi məsələni həll etmək, işğala son qoymaq, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına nail olmaq yox, işğalı əbədi etmək idi. Sanki danışıqlar masasında bir tərəfdə Ermənistan və Minsk qrupunun həmsədrləri, digər tərəfdə isə Azərbaycan idi" - deyən dövlətimizin başçısı 30 il ərzində işğalçıya qarşı heç bir sanksiyanın tətbiq olunmadığını təəssüflə qeyd etdi. Cənab Prezidentin də söylədiyi kimi, "Bu gün dünyada müxtəlif yerlərdə müharibələr, toqquşmalar, münaqişələr baş alıb gedir. Beynəlxalq təşkilatlar, böyük nüfuzlu ölkələr dərhal sanksiyalar tətbiq edirlər. Çünki sanksiyaların da böyük təsiri var. Xüsusilə Ermənistan kimi kiçik, kasıb ölkəyə əgər sanksiyalar tətbiq edilsəydi, əlbəttə, işğala son qoyardı". Lakin beynəlxalq ictimaiyyət ədalət hissini itirməklə Azərbaycan xalqının hüquqlarının kobud şəkildə pozulmasına, işğala, separatizmə göz yumdu.

Azərbaycan belə mürəkkəb şəraitdə öz qələbəsini məhz öz gücü hesabına təmin etdi. Bu isə bir daha cənab Prezidentin həyata keçirdiyi uğurlu siyasətin nəticəsində mümkün oldu. Azərbaycan işğalın nəticələrini aradan qaldırır, amma keçmişi heç vaxt unutmayacaq. Dövlətimizin başçısının da söylədiyi kimi, "bundan sonra sülh içində, təhlükəsizlik içində yaşamaq üçün biz bu tarixi heç vaxt unutmamalıyıq".

*Nigar MƏMMƏDOVA,*
*Milli Məclisin deputatı*




# Ağ damlı şəhərə həyat qayıdır - ilk köç, ilk qayıdış

Vətən müharibəsinin üzərindən heç bir il keçməmiş, 2021-ci il mayın 28-i tarixində Prezident İlham Əliyev tərəfindən Qarabağ bölgəsinin ilk təməl daşının Ağdamda qoyulması rəmzi xarakter daşıyırdı. Qalib Lider ilk olaraq, erməni vandalları tərəfindən "Qafqazın Xirosiması"na çevrilən bu tarixi Azərbaycan şəhərinin yeni bünövrəsini qoymaqla həm xalqımıza qarşı olmazın faciələr, işğal, məcburi köçkünlük yaşatmış düşmənə, həm də ona havadarlıq edən qüvvələrə Azərbaycan xalqının əzmini, qüdrətini, gücünü nümayiş etdirdi. Yerlə yeksan edilərək xarabalığa çevrilən "ruhlar şəhəri"nin yerində qurulan yeni Ağdam Azərbaycan tarixinin dirçəliş ünvanı kimi ölkəmizin simvoluna çevrildi.

O da təsadüfi olmadı ki, qurucu lider İlham Əliyev öz ad günündə - bu ilin 24 dekabrında Ağdam şəhərinə ilk köçün, ilk qayıdışın baş verdiyi, həyatın döndüyü tarixi gündə ağdamlıların yurd sevincini onlarla birlikdə yaşadı. Öz əlləri ilə yeni evlərinin açarlarını təqdim etdiyi sakinlərin əziz qonağı oldu, Qarabağın şan-şöhrətli şəhərindən, "Bu gün Ağdam rayonunda artıq həyat bərpa edilir", - deyə qürurla bəyan etdi.

## Ağ günlərin şahidiyik

Azərbaycan xalqı olaraq cəmi bir neçə il əvvələ qədər bir həyat nişanəsi belə tapmaq mümkün olmayan, məzarlıqları yerlə yeksan edilən Ağdamın ağ günlərinə şahidlik etməyimizin özü İlahi ədalətin yerini tapmasının təzahürü kimi qəlblərimizi fərəhləndirir. Birinci Qarabağ müharibəsində qəhrəmanlıqla düşmənlə layiqli mübarizə aparan Ağdam rayonu 6 mindən çox şəhid verdi, işğal zamanı ən dəhşətli talanla, dağıntılarla üzləşdi. Ağdam xarabazarlığa döndərildi, başdan-başa mina tarlasına çevrildi.

Təkcə onu qeyd edək ki, vaxtilə şan-şöhrəti, zənginliyi ilə adından söz etdirən Ağdam şəhərində düşmən  tək bircə "salamat" bina saxlamışdı: Ağdam Cümə məscidini. Bu qədim məsciddən geriyə qalan uçuq divarlar isə hərbi məqsədlərə görə "salamat" saxlanılmışdı. Düşmən Qarabağın simvolu olan Ağdamı tar-mar etməklə xalqımızın qayıdış ümidini öldürmək istəyirdi.

Ancaq 2020-ci ilin Zəfəri Ağdamın tarixini yenidən yazdı. Kəlbəcər və Laçınla bərabər bir güllə atılmadan, bir itki verilmədən qaytarılan bu rayonumuzda da çox qısa zamanda quruculuq və bərpa işlərinə başlanıldı. 2021-ci ilin 28 may tarixində Ağdam şəhərində 140 illik tarixə malik 1 saylı məktəbin, eyni zamanda gələcəkdə burada iş yerlərinin yaradılması üçün ərazisi təqribən 200 hektara yaxın olan Ağdam Sənaye Parkının, Bərdə-Ağdam avtomobil yolunun təməli qoyuldu, İmarət kompleksinin bərpası ilə əlaqədar işlərə start verildi. İşğal və Zəfər muzeyi konsepsiyası dövlət başçısına təqdim edildi, həmçinin şəhərin içində olacaq 125 hektarlıq böyük meşə sahəsinin bünövrəsi qoyuldu.

2022-ci il oktyabrın 4-də isə Prezident İlham Əliyev tərəfindən Ağdamın 3 kəndinin - Xıdırlı, Kəngərli və Sarıcalının təməlləri atıldı. Beləliklə, Ağdamda yeni və möhtəşəm quruculuq dövrü başladı. Ötən qısa müddətdə görülən kompleks işlərin nəticəsidir ki, artıq adıçəkilən yaşayış məskənlərinə qayıdış həyata keçirilib, rayonun Sarıcalı, Kəngərli və Xıdırlı kəndlərinin sakinləri doğma yurdlarında xoşbəxt həyata başlayıblar.

## Əlamətdar və tarixi gün

Dekabrın 23-24-də Qarabağda səfərdə olan Prezident İlham Əliyev əvvəlcə Xankəndidə, Kərkicahan qəsəbəsində və Xocalının Ballıca kəndində bir sıra açılışlarda və təməlqoyma mərasimlərində iştirak edib, həmçinin Kərkicahan qəsəbəsinə köçən sakinlərlə görüşüb. Həmin tarixdə dövlətimizin rəhbəri İlham Əliyev Ağdam Sənaye Parkında "Saloğlu Qarabağ" MMC-nin istehsal müəssisəsinin təməlini qoyub, "Construction" MMC-nin metal elektrik dirəklərinin istehsalı müəssisəsinin açılışında iştirak edib. Prezidentin iştirakı ilə Ağdam şəhərində "Hilton Garden Inn Agdam" hoteli istifadəyə verilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 24-də Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışında iştirak edib və buraya köçən sakinlərlə görüşüblər.

Məlumat verilib ki, ərazisi 13 hektardan çox olan kompleksdə 11 məhəllə var. Burada 60 bina inşa edilib. Kompleksdə 114-ü birotaqlı, 464-ü ikiotaqlı, 536-sı üçotaqlı, 154-ü dördotaqlı olmaqla ümumilikdə 1268 mənzil var. Dekabrda buraya 104 ailənin (426 nəfər) köçürülməsi nəzərdə tutulur. 2026-cı ilin yanvar-fevral aylarında isə daha 1164 ailə (4772 nəfər) köçürüləcək.

Qeyd edək ki, dövlətimizin başçısı bu kompleksin təməlini 2023-cü ildə qoyub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu ilin fevralında kompleksdə görülən tikinti işlərinin gedişi ilə tanış olublar.

Ağdam şəhərinə köçən sakinlərlə görüşü zamanı dövlətimizin başçısı İlham Əliyev bu günün Ağdam şəhərinin tarixində çox əlamətdar və tarixi bir gün olduğunu dedi: "Uzun fasilədən sonra ağdamlılar öz doğma şəhərinə qayıdırlar. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Əminəm ki, burada siz rahat yaşayacaqsınız, əmin-amanlıq şəraitində yaşayacaqsınız. Siz buna layiqsiniz. Uzun illər köçkün həyatını yaşamış insanlar üçün bu gün Ağdam şəhərində və işğaldan azad edilmiş bütün başqa ərazilərdə yeni, müasir şəhərlər, kəndlər, qəsəbələr salınır və artıq Böyük qayıdış proqramının əyani təzahürlərini hər kəs görə bilir".

Bu gün yalnız Ağdamda deyil, işğaldan azad edilən bütün ərazilərimizdə mühüm quruculuq işləri həyata keçirilir və Böyük qayıdış proqramı uğurla icra edilir.

Ağdam rayonunda da artıq bir neçə önəmli infrastruktur obyekti, mədəni obyekt istismara verilib. Sənaye potensialına görə Ağdam Bakı, Sumqayıt və Gəncədən sonra dördüncü sənaye mərkəzi olacaq. Rayonda nəqliyyatla bağlı məsələlər də həllini tapır. Xatırladaq ki, 2023-cü il dekabrın 24-də Prezident tərəfindən Bərdə-Ağdam avtomobil yolunun açılışı olub. Bu il mayın 10-da ölkəmizin rəhbəri Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin açılışında iştirak edib. Hazırda Ağdam-Xankəndi dəmir yolunun inşası gedir. Eyni zamanda suvarma sahəsində işlər görülür və Xaçınçay su anbarı yenidən qurulub.

Qarabağ və Şərqi Zəngəzurda tarixi, dini, mədəni abidələrimiz də yüksək səviyyədə bərpa olunur. Ağdam Cümə məscidi ilk bərpaolunan tarixi-dini abidədir. Qiyaslı məscidinin açılışı həyata keçirilib, "İmarət" kompleksi bərpa edilib.

Ağdam şəhərinə köç edən sakinlərlə görüşü zamanı quruculuq istiqamətində görülən işlərin miqyasına vurğu edən dövlətimizin başçısı qeyd etdi ki, hər şey göz qabağındadır: "Bütün bunlar da cəmi 5 il ərzində yaradılıb. Yəni bilirsiniz o nəyi göstərir? Təkcə söhbət ondan getmir ki, biz proqram qəbul etmişik və təbii ki, nəzarət var. Mən də dəfələrlə azad edilmiş ərazilərə gedərkən özüm şəxsən nəzarət edirəm. Söhbət ondan gedir ki, bütün xalqımız bu işləri böyük həvəslə görür. Əgər bu amil olmasaydı, biz qısa müddət ərzində bu qədər işi görə bilməzdik".

Bəli, bütün bunlar xalqımızın milli iradəsindən güc alan Prezident İlham Əliyevin şəxsi əzmini və qətiyyətini nümayiş etdirən möhtəşəm qayıdış gerçəkliyidir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2026-cı ilin yanvar ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Vəzifəli şəxs | Qəbul günü |
|---|---|
| **Əli Cavad oğlu ƏHMƏDOV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini | 19 |
| **Ziyafət Abbas oğlu ƏSGƏROV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 21 |
| **Musa Cəfər oğlu QASIMLI**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 16 |
| **Rafael Baba oğlu HÜSEYNOV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 30 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ**<br>Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 19 |
| **Arzu Nəsib oğlu NAĞIYEV**<br>Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 29 |
| **Zahid  Məhərrəm oğlu ORUC**<br>Milli Məclisin İnsan hüquqları komitəsinin sədri | 22 |
| **Sadiq Haqverdi  oğlu QURBANOV**<br>Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 27 |
| **Azər Kamal oğlu ƏMİRASLANOV**<br>Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 26 |
| **Tahir Musa oğlu RZAYEV**<br>Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 22 |
| **Musa İsa oğlu QULİYEV**<br>Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 26 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV**<br>Milli Məclisin Səhiyyə komitəsinin sədri | 23 |
| **Hicran Kamran qızı HÜSEYNOVA**<br>Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 16 |
| **Şahin Əmir oğlu İSMAYILOV**<br>Milli Məclisin Gənclər və idman komitəsinin sədri | 29 |
| **Fazil Qəzənfər oğlu MUSTAFA**<br>Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 28 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV**<br>Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 21 |
| **Anar Camal oğlu İSGƏNDƏROV**<br>Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 27 |
| **Polad BÜLBÜLOĞLU**<br>Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 28 |
| **Səməd İsmayıl oğlu SEYİDOV**<br>Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr  komitəsinin sədri | 23 |
| **Eldar Rza oğlu İBRAHİMOV**<br>Milli Məclisin İntizam komissiyasının sədri | 30 |
| **Fərid Famil oğlu HACIYEV**<br>Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 5 |
| **Firudin Süleyman oğlu HACIYEV**<br>Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdiri | 7 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD**<br>Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 14 |
| **Məhəmməd İmran oğlu BAZIQOV**<br>Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 9 |
| **Adil İsrayıl oğlu VƏLİYEV**<br>Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 13 |
| **Şakir Himalay oğlu ŞABANOV**<br>Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri | 15 |
| **Ayan Zəfər qızı MURTUZOVA**<br>Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 12 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Qəbul otağında qəbul olunur.**

**Ünvan: Bakı şəhəri, Parlament prospekti 1.**

**"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərini təmin etmək məqsədilə;**

**Qəbul vaxtı: saat 14:00-dan başlayır.**

**Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.**

**Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.**

**Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim edir.**

**Telefonlar: (012) 510-99-38; (012) 510-89-14; (012) 492-74-05.**

# Masallı "Konstitusiya və Suverenlik İli"ndə daha da yaşıllaşıb

Masallıda "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar növbəti ağacəkmə aksiyası keçirilib.

Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə Qızılağac kəndində keçirilən aksiya Azərbaycan Prezidenti İlham Əliyevin doğum gününə həsr olunmuşdu. RİH əməkdaşları, ərazi nümayəndələri, bələdiyyə sədrləri və kənd sakinlərinin iştirak etdikləri aksiyada müxtəlif növdən olan xeyli meyvə və dekorativ ağaclar, kollar əkilib.

*"Azərbaycan"*





# Qətiyyətin təntənəsi

## İlham Əliyev Vətən müharibəsində Azərbaycanın hansı qüvvələrə qalib gəldiyini bir daha xatırlatdı

**Dekabrın 24-də Qarabağa səfər edən Prezident İlham Əliyev Xankəndi və Ağdamda bir sıra mühüm obyektlərin açılışını etdi, təməlqoyma mərasiminə qatıldı. Doğum gününü hər zaman keçmiş məcburi köçkünlərlə birgə qeyd edən dövlət başçısı bu dəfə sevincini Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışında buraya köçən sakinlərlə paylaşdı.**

Hər zaman olduğu kimi, İlham Əliyev bir daha keçmişi xatırlamaqla Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, torpaqlarımızın işğalı, ermənilərin həyata keçirdikləri vandalizm aktları, terrorizm, talançılıq siyasətindən və bu istiqamətdə işğalçı ölkəyə verilən siyasi, iqtisadi, maliyyə və hərbi dəstəkdən söz açdı.

### İşğalçı dövlətlə hər zaman həmrəy olan Minsk qrupu və onun yarıtmaz fəaliyyəti

Prezident konkret olaraq vurğuladı ki, Ermənistan-Azərbaycan münaqişəsi ilə məşğul olan, beynəlxalq təşkilatlar tərəfindən bu vəzifəni icra etməli olan qurumlar Ermənistanla, yəni işğalçı, talançı dövlətlə həmrəy olublar.

Bu ölkəyə siyasi dəstək verən ilk qurum, artıq tarixin arxivinə göndərilən ATƏT-in Minsk qrupu idi. Bu qrup 1992-ci ildə yaradılıb. Bu qrupun və onun həmsədrlərinin məqsədi məsələni həll etmək əvəzinə, bu işğalı əbədi etmək, Ermənistana haqq qazandırmaq, Azərbaycan xalqını və dövlətini isə işğalla barışdırmaq olub: "Mən 17 il ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri ilə təmasda olmuşam, onlarla çoxsaylı görüşlər keçirmişəm. Hər dəfə görüşəndə illər keçdikcə görürdüm ki, bunların məqsədi məsələni həll etmək, işğala son qoymaq, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına nail olmaq yox, işğalı əbədi etmək idi. Sanki danışıqlar masasında bir tərəfdə Ermənistan və Minsk qrupunun həmsədrləri, digər tərəfdə isə Azərbaycan idi. Bax, bu 17 il ərzində keçirdiyim saysız-hesabsız görüşlərin nəticəsi budur".

Prezident diqqətə çatdırdı ki, həmin həmsədrlərin məqsədi azərbaycanlıları öz torpaqlarını əbədi itirdikləri fikri ilə barışdırmaq olub və hesab edirmişlər ki, buna nail olacaqlar: "Hesab edirdilər ki, bizi inandırmağa nail olacaqlar ki, biz öz əzəli torpaqlarımızdan əl çəkək. Ancaq yenə də Ermənistan dövləti kimi səhv etdilər. Mən işğal dövründə dəfələrlə demişdim ki, xalqımız və dövlətimiz heç vaxt işğalla barışmayacaq, nəyin bahasına olursa-olsun, öz doğma torpaqlarını qaytaracaq. Bunu Prezident kimi fəaliyyətə başladığım ilk dəqiqələrdə - birinci andiçmə mərasimindəki çıxışımda və ondan sonrakı dövrdə bildirmişəm. Bu illər ərzində biz bir məqsəd ətrafında birləşmişdik ki, bir nöqtəyə vuraraq xalqımız bu müqəddəs missiyanı yerinə yetirsin", - deyə dövlət başçısı vurğulayıb.

Bütün bu reallıqları, yəni əsl həqiqəti, Minsk qrupunun illərlə oynadığı oyunların ssenarisini İlham Əliyev birbaşa onların üzünə söylədiyi tarixi də Azərbaycan xalqı unutmur. Şanlı Zəfərimizdən sonra, 2020-ci il dekabrın 12-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, ABŞ-dən olan həmsədri Endrü Şoferi, Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki onların xahişi ilə qəbul edən Müzəffər Ali Baş Komandan İlham Əliyev özlərini diplomat adlandıran şəxslərə əsl diplomat dərsi keçdi və onlara çatdırdı ki, Azərbaycan ərazi bütövlüyünü təmin etdikdən sonra indi Bakıya hansı üzlə gəliblər?!

Zəfərdən sonra İlham Əliyevin qalib komandan kimi ilk israrlı tələblərindən biri bu qurumun ləğv edilməsi idi. 2025-ci ildə bu proses də ömrünü başa vurdu. Cari ilin avqustunda ABŞ-yə tarixi səfər zamanı Azərbaycan və Ermənistanın Minsk qrupunun ləğvi ilə bağlı ATƏT-in fəaliyyətdə olan sədrinə müraciət etməsi, ləğv prosesinin 2025-ci il dekabrın 1-də başa çatması İlham Əliyevin qətiyyətinin növbəti təntənəsi oldu.

### İşğal dövründə Ermənistana göstərilən hərbi və siyasi dəstək

Prezident işğal dövründə Ermənistana göstərilən hərbi dəstəkdən də söz açdı. İqtisadi cəhətdən tənəzzülə uğramış bir ölkənin çox baha qiymətə hərbi texnikalar, silah-sursatlar alması, əlbəttə ki, qeyri-mümkündür. Amma 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun məhv etdiyi, qənimət götürdüyü texnikalar bir daha göstərdi ki, işğalçı ölkəyə havayı yardımlar edilib.

Araşdırmalar göstərirdi ki, Ermənistan dayanmadan silahlanır. Hansı ölkədən hansı silahların alındığı, pay verildiyi də Azərbaycana bəlli idi. 1998-ci ildə Rusiya tərəfindən Ermənistana 1 milyard dollar məbləğində silah-sursat verilməsi, bu prosesin sonrakı illərdə müntəzəm qaydada davam etməsi yalan deyildi.

Azərbaycanın işğal olunduğu ərazilərində Ermənistan hərbi qüvvələrinin xidmət göstərdiyi hamıya bəlli olsa da, buna görə Ermənistana qarşı heç bir tədbir, sanksiya həyata keçirilmirdi.

Bu gün dünyada müxtəlif yerlərdə müharibələr, toqquşmalar, münaqişələr baş alıb gedir. Ya beynəlxalq təşkilatlar, ya da böyük nüfuzlu ölkələr dərhal nə edirlər? Sanksiyalar tətbiq edirlər. Çünki sanksiyaların böyük təsiri var. Xüsusilə Ermənistan kimi kiçik və zəngin olmayan, demək olar ki, kasıb ölkəyə əgər sanksiyalar tətbiq edilsəydi, Ermənistan işğala son qoyardı. Ancaq nəinki sanksiyalar tətbiq edilmədi, əksinə, onlara bəziləri pulsuz silahlar verirdi, özü də bir milyon dollarlıq yox, milyardlarla dollar dəyərində...

Prezident dedi ki, həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı nəticəsində Ermənistandan qənimət kimi götürdüyümüz və məhv etdiyimiz silahların pul dəyəri təqribən 5-6 milyard dollardır. Bunların dağılmış bəzi nümunələri Bakıda Hərbi Qənimətlər Parkında nümayiş etdirilir, o cümlədən "İsgəndər M" ballistik raketi, hansı ki, ümumiyyətlə, Ermənistanda olmamalı idi. Çünki "İsgəndər M" raketinin ixracı qadağandır. Əgər belə demək mümkündürsə, ixraca açıq olan "İsgəndər E", yəni eksport növüdür. "İsgəndər M" raketi necə Şuşaya zərbə endirdi? Elə bu, böyük sualdır. Yəni pulsuz silah, maliyyə yardımı...

"Bax, görün biz kimlərlə kəllə-kəllə getmişik. Biz görün Ermənistana olan hansı dəstəyin fonunda İkinci Qarabağ müharibəsində Qələbə qazanmışıq. Yəni ona görə bütün bunlar, necə deyərlər, həm düzgün çatdırılmalıdır, həm də bizim təhsil müəssisələrimizdə, ictimai məkanda dəqiq təqdim edilməlidir, yəni bu unudulmamalıdır və biz də heç vaxt unutmamalıyıq", - deyə Prezident vurğulayıb.

Azərbaycan xalqına yaxşı bəllidir ki, 2016-cı il Aprel döyüşlərindən sonra Ermənistana ixracı qadağan olunan "İsgəndər M" raketlərinin verilməsi, müharibə dövründə həmin raketlə Şuşanın vurulması, 44 günlük müharibə dövründə Ermənistanın silahlandırılması, təyyarələrlə İran ərazisindən Ermənistana silah-sursat göndərilməsi faktları reallığı əks etdirir. Həmin dövrdə mediada yayımlanan silah daşıyan Rusiya təyyarələrinin uçuş trayektoriyasını əks etdirən xəritələr, Rusiyaya səfər edən Ermənistan rəsmilərinin təyyarələrində silah göndərilməsi, İran ərazisindən dəmir yolu ilə daşınan silah-sursatın videolarını təkrar nümayiş etdirmək mümkündür.

Hazırda da Fransa, Hindistan Ermənistana hərbi dəstək göstərməkdə davam edirlər. Maliyyə resursları olmayan Ermənistan Hindistanla milyardlarla dollar həcmində silah alışı müqavilələrini hansı mənbələr hesabına bağlayır?

İndi Ermənistanla Azərbaycan arasında sülh danışıqları gedir. Əgər Ermənistan bir daha yolundan azıb sülhü pozarsa və müqavilə imzalamaqdan imtina edərsə, yeni aldığı hərbi texnikalar, silah-sursatlar və havadarlarının siyasi dəstəyi belə, bu ölkəyə yardım etməyəcək.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# *Tinq HAN:* "Bakıda yaşadığım illər ərzində şəhərin sürətli inkişafının və Çin-Azərbaycan münasibətlərinin hərtərəfli möhkəmlənməsinin şahidi olmuşam"



Bakıda yaşadığım altı il ərzində şəhərin sürətli inkişafının və Çin-Azərbaycan münasibətlərinin hərtərəfli möhkəmlənməsinin şəxsən şahidi olmuşam.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Bakıda yaşayan, iki Çin restoranını idarə edən sahibkar Tinq Han deyib. Onun sözlərinə görə, məhz bu il investisiya yatırmaq və biznesini inkişaf etdirmək məqsədilə Çinin çoxlu sayda vətəndaşları Bakıda olub ki, bu da ölkənin iqtisadi artımına və yeni iş yerlərinin yaradılmasına töhfə verir.

Tinq Han Çin-Azərbaycan münasibətlərinin inkişafına verdiyi dəstəyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlığını ifadə edib: "Bu dəstək sayəsində Azərbaycandakı Çin icması və Bakıda fəaliyyət göstərən Çin biznesi inkişaf üçün mühüm imkanlar əldə edir. Özünü yarıazərbaycanlı hesab edən bir insan kimi ölkələrimiz arasında sıx əməkdaşlıq nəticəsində açılan imkanlara və göstərilən dəstəyə görə səmimi-qəlbdən minnətdaram".

# Azərbaycanın QHT nümayəndələri ABŞ Prezidenti Donald Trampa açıq məktub yazıblar

**ABŞ-nin Lemkin İnstitutunun ABŞ Prezidentinə Ruben Vardanyan da daxil olmaqla, müharibə cinayətlərində ittiham olunan erməniəsilli şəxslərin Milad bayramı münasibətilə azadlığa buraxılması üçün Azərbaycana təzyiq göstərməyə dair müraciətinə cavab olaraq, Azərbaycanın QHT nümayəndələri dekabrın 25-də Donald Trampa açıq məktub yazıblar.**

AZƏRTAC xəbər verir ki, bundan əvvəl - 2025-ci il dekabrın 23-də Azərbaycan Milli QHT Forumu Lemkin İnstitutunun özünə də açıq məktub ünvanlayaraq, bu təsisatı Ermənistandakı revanşist qrupun maraqlarını ifadə etməkdə, Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyini sarsıtmağa çalışmaqda ittiham edib. Qeyd olunub ki, Xocalı soyqırımı kimi kütləvi qırğınlara göz yuman Lemkin İnstitutu, ilk növbədə, elan etdiyi missiyaya xəyanət edir. Azərbaycan Milli QHT Forumu Lemkin İnstitutunu təxribatçı çağırışlarına görə Azərbaycan ictimaiyyətindən üzr istəməyə çağırıb.

Azərbaycan QHT-lərinin ABŞ Prezidentinə "Hüquq, sabitlik və Tramp dəhlizi baxışının beynəlxalq sülh və rifah naminə müdafiəsi" adlanan müraciətində isə deyilir:

"Cənab Prezident!

Biz - Azərbaycan vətəndaş cəmiyyətinin təmsilçiləri, insan hüquqları müdafiəçiləri və onilliklər boyu davam etmiş etnik təmizləmənin qurbanları dünyanı xoş niyyətlə istiqamətləndirən Lider olaraq Sizə ən səmimi salamlarımızı çatdırırıq. Sizin liderliyinizdə qlobal sülhə dəyər verən və başqaları tərəfindən mümkünsüz hesab olunan tarixi razılaşmaları vasitəçilik yolu ilə əldə etmək cəsarətini özündə ehtiva edən iradə görürük.

"Lemkin İnstitutu" adlandırılan qurum tərəfindən Sizin şəxsən təşviq etdiyiniz sülhü sarsıtmağa yönəlmiş aparılan son kampaniyalarla bağlı əsaslandırılmış faktları göstərmək məqsədilə Sizə müraciət edirik.

Milad və Yeni ilin emosional ab-havasını fürsət bilən bu qrup həbsdəki məlum şəxslərin azadlığa buraxılması üçün təzyiq göstərməyə çağırış etsələr də, onlar bu ritorika ilə deyil, törətdikləri əməllərə görə qiymətləndirilməlidir. Məhz bu şəxslərin cinayətkar fəaliyyəti nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin təqribən beşdəbiri 30 ildən artıq müddət ərzində Ermənistanın işğalı altına düşüb, bir milyona yaxın azərbaycanlı etnik təmizləməyə məruz qalıb.

Sülh yaradan liderliyiniz sayəsində Cənubi Qafqaz regionu son 35 ilin ən dinc dövrünü yaşayır. Bu nailiyyət 2025-ci il avqustun 8-də Vaşinqton Birgə Bəyannaməsi vasitəsilə şəxsən Sizin tərəfinizdən təmin edilib.

Cənab Prezident, dezinformasiya kampaniyaları aparanlar 30 ildən artıq davam etmiş işğal dövründə terrorizmin maliyyələşdirilməsi, təcavüzkar müharibənin aparılması və insanlıq əleyhinə cinayətlərin törədilməsi ilə bağlı ittiham olunan şəxsləri "girovlar" kimi qələmə verməyə çalışırlar. Onların əməlləri nəticəsində bir milyona yaxın azərbaycanlı məcburi köçkün vəziyyətinə düşüb, yüzlərlə mülki yaşayış məntəqəsi sistemli şəkildə məhv edilib.

Saxlanılan şəxslərdən biri əvvəlki dövrdə USAID rəhbəri Samanta Pauer ilə sıx əlaqələri olan, Rusiya-Ermənistan əsilli oliqarx Ruben Vardanyandır. O, Cənubi Qafqaz regionunda sülhün əldə edilməsinin qarşısını almaq məqsədilə Azərbaycanın əvvəllər işğal altında olmuş ərazilərində yaradılmış oyuncaq rejimə "dövlət naziri" kimi göndərilmişdi.

Azərbaycan bu məhkəmə proseslərini şəffaf şəkildə və beynəlxalq öhdəliklərinə uyğun olaraq həyata keçirir. Ruben Vardanyanla bağlı iş də daxil olmaqla, hüquqi icraatlar məhkəmə kollegiyaları tərəfindən aparılır və ictimaiyyət üçün açıqdır. Bunu dini təqib kimi təqdim etmək cəhdləri tamamilə əsassızdır. Azərbaycan müsəlmanların, xristianların və yəhudilərin əsrlər boyu harmoniyada yaşadıqları dünyəvi ölkə olaraq qalır. Məsələn, ötən ay Bakı şəhərində İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin rəsmi toplantısı keçirilib. Eyni zamanda tikintisi Azərbaycan dövləti tərəfindən maliyyələşdirilən ikinci katolik kilsə hazırda paytaxtda inşa olunmaqdadır. Bu faktlar bir daha Azərbaycanın dinlərarası dialoqa və tolerantlığa sadiqliyini nümayiş etdirir. Bu kimi çoxsaylı nümunələr var.

Cənab Prezident, Ermənistan ilə Azərbaycan arasında baş vermiş münaqişə heç vaxt dini xarakter daşımayıb. Bəzi bədxahlar Sizin şəxsi iştirakınız sayəsində regionda əldə olunmuş sülhü sarsıtmağa cəhd edirlər. Vaşinqton razılaşmalarının ruhuna uyğun olaraq, Azərbaycan ilə Ermənistan arasında etimadın möhkəmləndirilməsinə yönəlmiş tədbirlərə başlanılıb və iqtisadi əlaqələr bərpa edilir.

Siz və administrasiyanız dünyaya göstərdi ki, Amerikanın gücü sülhün qurulması və ədalətin təmin olunmasındadır. Azərbaycan və Ermənistan liderlərinin Sizin Nobel Sülh Mükafatı ilə təltifiniz üçün Nobel Sülh Komitəsinə müraciət etməsini alqışlayırıq.

Sizin liderliyiniz sayəsində dünyanın müxtəlif bölgələrində onilliklər boyu davam etmiş bir sıra münaqişələr artıq keçmişə çevrilib. Biz inanırıq ki, Lemkin İnstitutu kimi pozucu qüvvələr Amerika ictimaiyyətini yanlış istiqamətləndirmək məqsədlərinə heç vaxt nail ola bilməyəcəklər.

Liderliyinizə dərin hörmətlə,

Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri:

1. Ramil İskəndərli - Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun İdarə Heyətinin sədri
2. Vladimir Timoşenko - istefada olan general-mayor, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Rəyasət Heyətinin üzvü
3. Novella Cəfəroğlu - Dilarə Əliyeva adına Azərbaycan Qadınlarının Hüquqlarının Müdafiə Cəmiyyətinin sədri
4. Səadət Bənənyarlı - Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Azərbaycan Milli Bölməsinin sədri
5. Səltənət Qocamanlı - İnsan Hüquqlarının və Qanunçuluğun Müdafiəsi İctimai Birliyinin sədri
6. Əmir Əliyev - İnsan Hüquqlarının Təşviqi Mərkəzinin sədri
7. Əliməmməd Nuriyev - "Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri
8. Zaur Məmmədov - Bakı Politoloqlar Klubunun sədri
9. Rey Qasımov - Azərbaycanda Minadanzərərçəkənlər Assosiasiyasının sədri
10. Hafiz Səfixanov - Minalar Əleyhinə Azərbaycan Kampaniyasının rəhbəri
11. Zaur İbrahimli - "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzinin sədri
12. Könül Behbudova - "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin sədri
13. Ayaz Mirzəyev - "Azərbaycan Jurnalistlər Şəbəkəsi"nin sədri
14. Dilqəm Əhməd - "Çapar" Milli İrsin Tədqiqi Mərkəzinin sədri
15. Fuad Məmmədov - "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının rəhbəri
16. Fariz Xəlilli - "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin sədri
17. Umud Rəhimoğlu - Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri
18. Mübariz Əsgərov - "Obyektiv" Milli Dəyərlərin Təbliğinə Dəstək İctimai Birliyinin sədri
19. Şəhla Nağıyeva - "Sönməz Məşəl" Mədəni Əlaqələr İctimai Birliyinin sədri
20. Qəmər Bağırova - Cəfər Cabbarlı adına Mədəniyyət, Elm və Təhsilin İnkişafına Yardım İctimai Birliyinin sədri
21. Sevinc Əlizadə - "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri
22. Tünzalə Abdüləlimova - "Vətən Naminə" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri
23. Ceyran Həsənova - "Şəhid Analarına Dəstək" İctimai Birliyinin sədri
24. Aqil Camal - Ortaq Dəyərlər İctimai Birliyinin sədri
25. Vüqar Qədirov - Qayıdış və Dirçəliş Naminə Gənclər Təşkilatı İctimai Birliyinin sədri
26. Xalid Kazımov - Regional İnsan Hüquqları və Media Mərkəzinin sədri
27. Əhməd Abbasbəyli - Cəmiyyətin İnkişafı Mərkəzinin sədri
28. İradə Rizazadə - Vətəndaşların Sosial Rifahı Naminə İctimai Birliyinin sədri
29. Kəramət İsmayılov - İqtisadi və Sosial İnkişaf Mərkəzinin sədri
30. Fikrət Yusifov - "Ekonomiks" Beynəlxalq İqtisadi Araşdırmalar İctimai Birliyinin sədri".




# Konstitusiya və Suverenlik İli 2025



# Güc hüquqda, sabitlik qanunda, gələcək milli iradədədir

**2025-ci il artıq başa çatmaq üzrədir. Tarixi məzmununa görə bu il ölkəmizin və Azərbaycanın liderliyi ilə ümumən regionumuz üçün strateji baxımdan bütün sahələrdə yüksək göstəricilərlə yadda qaldı. Azərbaycanda bu ili əlamətdar edən əsas məqamlardan ən mühümü isə dövlətimizin başçısının müvafiq sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsidir. Bu addım müasir Azərbaycan dövlətçiliyinin iki əsas dayağını - hüquqi əsaslarını və milli iradəni ön plana çıxaran mühüm siyasi-ideoloji çağırış kimi il boyu aktual oldu və bundan sonra da öz aktuallığını qoruyacaqdır.**

## Qanunun aliliyinə hörmət

Konstitusiya hər bir dövlət üçün yalnız hüquqi sənəd deyil, cəmiyyətin necə yaşamaq istədiyini, dövlətin vətəndaş qarşısında hansı öhdəlikləri daşıdığını müəyyən edən ali qanundur. Azərbaycan Konstitusiyası insan ləyaqətini ən üstün dəyər kimi tanıyır, hüquq və azadlıqları birbaşa qüvvədə təsbit edir və dövlət hakimiyyətini bu çərçivə ilə məhdudlaşdırır. "Konstitusiya və Suverenlik İli" bu baxımdan hüquqi şüurun möhkəmləndirilməsi, qanunun aliliyinə hörmətin təşviqi ilə bağlı da mühüm nəticələrlə yadda qaldı.

Suverenlik isə, bildiyimiz kimi, dövlətin müstəqil iradəsi, siyasi qərarlarını kənar təsirlərdən azad şəkildə qəbul etmək bacarığıdır. Azərbaycanın suverenliyi yalnız beynəlxalq hüquqda tanınmış ərazi bütövlüyü deyil, eyni zamanda milli maraqlara söykənən müstəqil siyasət xəttidir. Vətən müharibəsindəki tarixi Zəfərimizdən sonra ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin tam təmin olunması son əsrlərdəki ən böyük dövlətçilik nailiyyətlərimizdəndir.

Konstitusiya və Suverenlik - bu iki anlayış bir-birini tamamlayır. Suveren dövlət Konstitusiyasını özü müəyyən edir, Konstitusiyaya söykənən dövlət isə suverenliyini daha möhkəm qoruyur. 2025-ci ilin məhz "Konstitusiya və Suverenlik İli" adı altında qeyd olunması Azərbaycan cəmiyyətinə də, dünyaya da açıq mesajdır ki, güc hüquqda, sabitlik qanunda, gələcək isə milli iradədədir.

Bu mənada, "Konstitusiya və Suverenlik İli" təkcə yubiley xarakteri daşımayaraq hüquqi dövlətin dərinləşdirilməsi, vətəndaş-dövlət münasibətlərində etimadın gücləndirilməsi və müstəqilliyin ideoloji əsaslarının daha da möhkəmləndirilməsi baxımından mühüm bir strateji mərhələnin əsasını qoydu.

Bu gün Azərbaycan Respublikasında qanunun aliliyi, dövlət institutlarının müstəqilliyi və öz vətəndaşları qarşısında cavabdehliyi prinsiplərinə ciddi şəkildə əməl edilir. Demokratik institutların sərbəst fəaliyyət göstərməsi, vətəndaş cəmiyyətinin əsas elementlərinin qurulması və digər amillər ölkəmizin demokratiya yolu ilə irəliyə getmək əzmini və iradəsini göstərir. Cəmiyyətin bütün üzvləri əminliklə deyə bilər ki, dayanıqlı inkişaf, insan hüquqlarının və azadlıqlarının müdafiəsi yalnız milli hüquq qaydası çərçivəsində və dövlətin suveren səlahiyyətlərinə ciddi riayət olunması şəraitində təmin edilə bilər.

## İnsan mərkəzli dövlətçilik fəlsəfəsi

Azərbaycan Respublikası Konstitusiyasının çox böyük bir hissəsi - III fəsli insan hüquq və azadlıqlarına həsr olunmuş, müasir dövlətçilik anlayışının əsas göstəricisi kimi bu normalara geniş yer ayrılmışdır. Bu fəsildə təsbit olunmuş müddəalar göstərir ki, dövlətin mərkəzində insan, onun ləyaqəti və azad iradəsi dayanır, hüquqlar isə Konstitusiyada sadəcə bəyan edilmir,




birbaşa qüvvədə olan ali dəyər kimi ifadəsini tapır. Bu mənada Azərbaycan Respublikası Konstitusiyasının "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlı III fəsli təkcə hüquqi normaların toplusu deyil, bu fəsil müasir Azərbaycan dövlətçiliyinin insan mərkəzli fəlsəfəsini, dövlətlə vətəndaş arasındakı münasibətlərin dəyər əsasını və hüquqi dövlət anlayışının praktik mexanizmini ifadə edir.

Bu fəsil insan ləyaqətinin toxunulmazlığı ilə başlayır (maddə 24). Hüquqlar insanın dünyaya gəldiyi andan mövcuddur, ayrılmazdır, pozulmazdır. Dövlətin rolu isə bu hüquqları tanımaq, qorumaq və təmin etməkdir.

Eyni maddədə hüquq anlayışının məsuliyyətlə vəhdətdə təqdim olunması da çox mühüm məqamdır. Konstitusiya açıq şəkildə bildirir ki, hüquqlar cəmiyyət qarşısında vəzifələri də ehtiva edir və onlardan sui-istifadə yolverilməzdir. Bu yanaşma hüququ anarxiya deyil, nizam və ədalət çərçivəsində azadlıq kimi təqdim edir.

## Hüquqi dövlətin əsas sütunu

25-ci maddədə təsbit olunmuş qanun və məhkəmə qarşısında bərabərlik prinsipi isə hüquqi dövlətin əsas sütunudur. Bu maddədə irq, din, dil, cins, siyasi əqidə və sosial mənsubiyyət əsasında istənilən ayrı-seçkilik qadağan edilir. Diqqətçəkən məqam ondan ibarətdir ki, Azərbaycan Respublikası Konstitusiyasında yalnız diskriminasiya yasaqlanmır, eyni zamanda hansısa sosial qruplara mənsubiyyət amilinə görə zərər vurula bilməz. Xüsusilə sağlamlıq imkanları məhdud şəxslərlə bağlı müddəalar Konstitusiyanın sosial həssaslığını nümayiş etdirir.

Azərbaycan Respublikası Konstitusiyanın mühüm ideyalarından biri də hüquqların mexanizmlərlə təmin olunmasıdır. 26-cı maddə və sonrakı müddəalar göstərir ki, hüquqlar yalnız kağız üzərində deyil, inzibati və məhkəmə müdafiəsi, hüquqi yardım, apellyasiya və kompensasiya mexanizmləri ilə möhkəmləndirilir.

Xüsusilə 60-68-ci maddələrin müvafiq bəndlərində məhkəməyə çıxış, ədalətli araşdırma, təqsirsizlik prezumpsiyası, özbaşınalıqdan müdafiə, dövlətin vurulmuş zərərə görə məsuliyyəti və sairə kimi prinsiplər hakimiyyətin vətəndaş qarşısında cavabdehliyini təsbit edir.

Yaşamaq hüququ (maddə 27) da insanın ən mühüm hüququ olaraq Azərbaycan Respublikası Konstitusiyası ilə müstəsna dəyər kimi qorunur. Ölüm cəzasının ortadan götürülməsi Azərbaycanın beynəlxalq humanizm prinsiplərinə sadiqliyindən irəli gəlir. Azadlıq, təhlükəsiz yaşamaq, şəxsi və ailə həyatının toxunulmazlığına dair maddələr müasir dövrdə xüsusilə aktual olan şəxsi məlumatların qorunması, izləmə və müdaxilə məsələlərində hüquqi çərçivə yaradır. Əsas Qanunumuzun 32-ci maddəsi bu baxımdan Konstitusiyanın ən detallı və müasir müddəalarındandır.

Əmək, istirahət, sosial təminat, sağlamlıq, təhsil, mənzil hüquqları da Konstitusiyada bütöv bir tam kimi təqdim olunmuşdur ki, bu, dövlətin yalnız "mühafizəçi" deyil, rifah yaradan güc olduğunu göstərir. Xüsusilə əmək hüququ məsələlərində məcburi əməyin qadağan edilməsi, minimum əməkhaqqı, işsizliyə qarşı dövlət öhdəliyi ilə bağlı normaların müəyyənləşdirilməsi Azərbaycanın sosial dövlət modelinin hüquqi ifadəsidir.

## Amnistiya

Müasir dövrdə dövlət-vətəndaş münasibətlərində humanizm prinsipi və onun tətbiqi mühüm yer tutur. Dövlətin öz vətəndaşları ilə davranışının başqa xarakteri sadəcə olaraq təsəvvür edilmir.

Əlbəttə, birmənalı şəkildə iddia etmək olmaz ki, dünyanın bütün ölkələrində dövlət və vətəndaşın qarşılıqlı münasibətlərində humanistlik hakim mövqeyə malikdir, başqa sözlə, dövlət və ona rəhbərlik edən şəxslər insanilik, mərhəmət məhfumlarına kifayət qədər əhəmiyyət verirlər. Təəssüf ki, hələ də dünyanın bir çox dövlətində Orta əsrlərə xas yanaşma üsulları üstünlük təşkil edir, yaxud bu cür üsullar cəmiyyətdaxili münasibətlərdə istisna olunmur. Belə praktika müasir inkişaf tendensiyaları ilə bir araya sığmır və şübhəsiz ki, onun gec-tez bəşəriyyət tərəfindən rədd edilib tarixə qovuşacağı danılmazdır.

1998-ci ildə Ulu Öndər Heydər Əliyevin fərmanı ilə ölkəmizdə ölüm hökmü ləğv edildi. Təbii ki, hər hansı cəmiyyətin üzvləri arasında dövlətin qanunlarını bu və ya digər şəkildə pozan, ona görə də cinayət məsuliyyətinə cəlb edilib azadlıqdan məhrum edilənlər də olur. Elə bir ölkə yoxdur ki, bu kateqoriyalı vətəndaşları olmasın.

Eyni zamanda tamamilə aydındır ki, azadlıqdan məhrum edilmiş şəxslər insanlıqdan kənarda deyillər. Mərhəmət, rəhmlilik kimi keyfiyyətlər onlara da şamil edilir. Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyətini səciyyələndirən əsas cəhətlərdən biri humanizmdir. Dövlətimizin başçısı 1993-cü ilin məlum iyun hadisələri zamanı xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdandan sonra humanizm dövlət siyasətinin əsasında duran başlıca prinsiplərdəndir.

Ulu Öndərin müəyyən etdiyi humanist hüquq siyasəti sonrakı dövrlərdə Prezident İlham Əliyev tərəfindən ardıcıl və uğurla davam etdirilib. Eyni zamanda Heydər Əliyev Fondu və onun prezidenti, Birinci vitse-prezident Mehriban xanım Əliyeva da deputatlıq fəaliyyəti dövründə bu irsə sadiq qalaraq bir sıra amnistiya təşəbbüsləri ilə çıxış edib. Son 30 il ərzində imzalanmış 71 əfv fərmanı ilə 10 mindən artıq məhkum azadlığa buraxılıb, 12 amnistiya qərarı isə 130 mindən çox şəxsə şamil olunub.

Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin qanunvericilik təşəbbüsü qaydasında genişmiqyaslı amnistiya qərarı layihəsini Milli Məclisə təqdim etməsi və qəbulu dövlətimizin Konstitusiya ilə elan olunmuş insan hüquqlarına hörmət, humanizm və qanunun aliliyi prinsiplərinə sadiqliyini bir daha nümayiş etdirdi.

"Konstitusiya və Suverenlik İli" kimi əlamətdar dövrdə müzakirəyə çıxarılan bu akt dövlətimizin öz institutlarının möhkəmliyinə və hüquq sisteminin yetkinliyinə inamını əks etdirir. Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğu yeni tarixi reallıq şəraitində belə bir qərarın qəbul edilməsi ictimai sabitliyin möhkəmlənməsinə, hüquq siyasətinin humanistləşdirilməsinə və Azərbaycan dövlətinin konstitusiya prinsipləri əsasında inkişafına dəyərli töhfə verəcək.

Bu cür humanist ənənənin davamı o deməkdir ki, demokratik inkişafın əsas istiqamət kimi diqqətdə saxlanıldığı indiki zamanda Azərbaycanda vətəndaşların hüquq və azadlıqları yüksək səviyyədə qorunur. Multikultural və tolerant dövlət kimi humanizm siyasəti beynəlxalq aləmdə dəstəklənən, təbliğ edilən Azərbaycanda vətəndaşlara göstərilən xüsusi diqqət və qayğı bir daha təsdiqləyir ki, ölkəmizdə həyata keçirilən siyasi, iqtisadi, hüquqi islahatların, qəbul olunan qərarların əsasını humanist prinsiplər təşkil edir. Bu baxımdan, azadlıqdan məhrumetmə və azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslərin əfv edilməsi ilə bağlı Prezident sərəncamlarının imzalanması, eləcə də amnistiya aktlarının qəbul olunması xüsusi əhəmiyyətə malikdir. Parlamentdə qəbul olunan amnistiya aktı əhatə dairəsinə görə Azərbaycanın müstəqillik dövründə ən genişmiqyaslı amnistiya sənədidir. Bu akt ümumilikdə 20 minə yaxın şəxsə şamil ediləcək ki, onlardan 5 mindən çoxu azadlıqdan məhrumetmə cəzasından azad olunacaq. İcra üçün dörd aylıq müddət nəzərdə tutulur.

## Mədəni, dil və milli kimlik hüquqları

Milli mənsubiyyət, ana dili, mədəniyyət və yaradıcılıq hüquqları Azərbaycan Respublikasının Konstitusiyasında ayrıca vurğulanmışdır. Bu müddəalar milli kimliyin qorunması ilə vətəndaş bərabərliyinin uzlaşdırıldığını göstərir. Əsas Qanunumuza görə, Azərbaycanda heç kəs milli mənsubiyyətini dəyişməyə məcbur edilə, heç kəs ana dilindən istifadədən məhrum edilə bilməz.

Seçki, birləşmək, söz, fikir, vicdan, toplaşmaq azadlıqları Konstitusiyada demokratik iştirakın hüquqi bazasını yaradır. Bu hüquqlar yalnız azadlıq deyil, siyasi məsuliyyət tələb edən mexanizmlər kimi təqdim olunur. Eyni zamanda dövlətin zorakılıq və Konstitusiya əleyhinə fəaliyyətlərə qarşı müdafiə xətti də aydın şəkildə çəkilir.

Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsi Konstitusiyanın insan hüquq və azadlıqları ilə bağlı ən mühüm məqamlarındandır. Burada insan hüquqlarının birbaşa qüvvədə olması, beynəlxalq öhdəliklərlə uzlaşması, fövqəladə hallarda belə tam ləğv edilə bilməməsi açıq şəkildə təsbit edilir. Bu, Azərbaycan Konstitusiyasını klassik hüquq bəyannamələrindən fərqləndirən mühüm cəhətdir.

Bütün bu qeydlərdən bir daha görünür ki, Azərbaycan Respublikası Konstitusiyasının insan hüquqları ilə bağlı fəsli hüquqi mətn olmaqla yanaşı, dövlətin vətəndaşa baxışının manifestidir. Burada insan ləyaqəti ali dəyər kimi qəbul edilir, hüquqlar real mexanizmlərlə qorunur, azadlıq məsuliyyətlə tarazlaşdırılır, dövlət isə hüquqların təminatçısı kimi çıxış edir.

Azərbaycanda hüquqi dövlət anlayışı yalnız institutlar deyil, dəyər sistemi üzərində qurulub. Azərbaycan Konstitusiyası da bu dəyərləri məhz insan hüquqları üzərindən formalaşdırıb.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Ağdamda "Xilaskarlıq missiyasının davamçısı" mövzusunda tədbir keçirilmişdir

**Ağdam Rayon Heydər Əliyev Mərkəzində "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Xilaskarlıq missiyasının davamçısı" mövzusunda tədbir keçirilib.**





Rayon icra hakimiyyətinin və YAP rayon təşkilatının birgə təşkilatçılığı ilə keçirilən tədbirdə RİH-in başçısı Vaqif Həsənov, YAP rayon təşkilatının sədri Mansur Quliyev, şəhid ailələri, qazilər, ərazi partiya təşkilatlarının sədrləri, idarə, müəssisə, təşkilatların rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Ulu Öndər Heydər Əliyevin mərkəzi meydanda ucaldılmış abidəsini ziyarətlə başlayan tədbirdə çıxış edən Vaqif Həsənov və digər natiqlər Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu milli dövlətçilik ideologiyasının Prezident İlham Əliyev tərəfindən müasir idarəetmə mexanizmləri ilə zənginləşdirilməsindən, siyasi, iqtisadi, sosial və digər sahələrdə əldə edilən uğurlardan, nəqliyyat və logistika sahəsində həyata keçirilən layihələrdən, Vətən müharibəsində qazanılan Zəfərdən, Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və yenidənqurma işlərinin həyata keçirilməsindən bəhs etmişlər.

Sonda YAP rayon təşkilatı tərəfindən bir qrup şəhid ailəsinə bayram sovqatı verilmiş, partiya sıralarına yeni qəbul edilən şəxslərə üzvlük vəsiqələri təqdim edilmişdir.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Naxçıvanda YAP-ın təşkilatçılığı ilə ilin yekun tədbiri keçirilib



Yeni Azərbaycan Partiyası Naxçıvan şəhər təşkilatı tərəfindən "Konstitusiya və Suverenlik İli" çərçivəsində fəaliyyətin yekunlarına, eləcə də 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramına həsr olunmuş tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov çıxış edərək bildirib ki, Yeni Azərbaycan Partiyası yaranan gündən etibarən milli maraqlara əsaslanan siyasəti, güclü dövlət idarəçiliyini, xalqla hakimiyyət birliyini və davamlı sosial-iqtisadi inkişafı əsas prinsip kimi qəbul edib. Bu ideyalar təkcə partiyanın deyil, bütövlükdə, Azərbaycan dövlətinin inkişaf fəlsəfəsinə çevrilib. Bu gün "Konstitusiya və Suverenlik İli"nin qeyd olunması da məhz bu siyasi-fəlsəfi xəttin davamı kimi xüsusi məna daşıyır.

Səlahiyyətli nümayəndə vurğulayıb ki, konstitusion dəyərlərin qorunması və dövlət suverenliyinin möhkəmləndirilməsi möhtərəm Prezidentin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas prioritetlərindən biri olmaqla Yeni Azərbaycan Partiyasının fəaliyyətində də ideoloji əsas kimi çıxış edir. Partiyanın inkişafında Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti də xüsusi əhəmiyyət kəsb edir. Onun partiya rəhbərliyində təmsil olunması Yeni Azərbaycan Partiyasının ictimai dayaqlarını möhkəmləndirib, humanist və müasir idarəçilik yanaşmalarını gücləndirib. Naxçıvan Muxtar Respublikasında da Yeni Azərbaycan Partiyasının üzvləri dövlət siyasətinin icrasında fəal iştirak edir, ictimai-siyasi sabitliyin qorunmasına və islahatların cəmiyyətə düzgün çatdırılmasına mühüm töhfə verirlər. Partiyaya artan maraq isə dövlətçilik dəyərlərinə sadiq, məsuliyyətli və milli maraqları üstün tutan yeni nəslin formalaşmasına xidmət edən sağlam ideoloji mühitin göstəricisidir.

Azərbaycan xalqının öz Prezidentini güclü dövlətçilik iradəsinin, qətiyyətli liderliyin və milli maraqlara sədaqətin simvolu kimi qəbul etdiyini və onun ətrafında sıx birləşdiyini bildirən Ceyhun Cəlilov xalqın etimadını qazanan Prezident İlham Əliyevi doğum günü münasibətilə səmimi-qəlbdən təbrik edib, ona möhkəm cansağlığı, uzun ömür və Azərbaycan dövlətinin inkişafı naminə şərəfli fəaliyyətində yeni uğurlar arzulayıb.

Səlahiyyətli nümayəndə, həmçinin tədbir iştirakçılarını qarşıdan gələn 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib, yeni nailiyyətlər arzulayıb.

Yeni Azərbaycan Partiyası Naxçıvan şəhər təşkilatının sədri Elman Cəfərli ilin yekunu, nailiyyətlər və qarşıda duran vəzifələrdən bəhs edərkən bildirib ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda təsis edilən Yeni Azərbaycan Partiyası müstəqil dövlətçiliyimizin və ümummilli maraqların təmin edilməsi naminə cəmiyyətimizin bütün təbəqələrinin qüvvəsini səfərbər edən ən böyük siyasi partiyadır. Bu gün partiyanın 740 mindən artıq üzvü var. Naxçıvan Muxtar Respublikası üzrə bu say 58 mini ötür ki, onun da 18 min 600 nəfəri Naxçıvan şəhər sakinidir. Təşkilatın üzvlərinin 33 faizini gənclər təşkil edir.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev qeyd edib ki, Yeni Azərbaycan Partiyası Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə ötən dövrdə daha da inkişaf edib, güclənib, nəinki ölkənin, hətta Cənubi Qafqazın ən böyük siyasi partiyasına çevrilib. Bu gücü, bu yeniliyi hər il inkişaf edən, çiçəklənən Naxçıvanın simasında da görmək mümkündür.

"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin sədri, şəhid baş leytenant Amin Gülməmmədovun atası Mais Gülməmmədov çıxış edərək təbriklərini çatdırıb.

Tədbirin davamında fəal partiya üzvləri mükafatlandırılıblar.

Tədbir bədii hissə ilə davam edib.

Yeni Azərbaycan Partiyası himninin səsləndirilməsi ilə tədbirə yekun vurulub.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Avropa Parlamenti siyasi məkr yuvası olduğunu bir daha təsdiq etdi

**Torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün bərpası Prezident İlham Əliyevin yürütdüyü qətiyyətli siyasətin təntənəsi olmaqla, Azərbaycanın beynəlxalq nüfuzunu daha da yüksəltdi. Bütün bunların nəticəsi kimi regionda yaranan reallıqlar dünyada qəbul olunur. Avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsinin paraflanması və bununla bağlı beynəlxalq reaksiyalar da göstərir ki, yaranan yeni reallıqlar beynəlxalq səviyyədə dəstəklənir.**



### Erməni lobbisinin əlində alətə çevrilən qurum

Lakin o da reallıqdır ki, Azərbaycan hansısa uğura imza atanda korrupsiya və siyasi məkr yuvası olan Avropa Parlamenti mütləq ölkəmizə qarşı heç bir siyasi çəkisi və mənası olmayan qətnamə qəbul edir. Azərbaycanın regionda sülhü təmin etdiyi bir vaxtda AP-nin dekabrın 18-də Azərbaycanla bağlı növbəti dəfə qətnamə qəbul etməsi bir daha bu qurumun riyakarlığını göstərir. Azərbaycan Respublikası Milli Məclisinin bəyanatında deyildiyi kimi, yalan məlumatlar və saxta iddialar üzərində qurulan, konkret cinayət əməllərinə siyasi don geyindirən bu sənəd qanunun aliliyinə kölgə salmaq və məhkəmə proseslərinə kobud müdaxilə etmək üçün göstərilən növbəti uğursuz cəhddir. Görünən odur ki, anti-Azərbaycan ritorikasından əl çəkə bilməyən Avropa Parlamenti bir daha siyasi riyakarlıq nümayiş etdirərək, insan hüquqları kimi önəmli mövzudan öz gizli gündəliyi və təxribatçı məqsədləri üçün istifadəyə davam edir.

AP-nin indiyə qədər Azərbaycanla bağlı qəbul etdiyi bütün qətnamələr yalan məlumatlar və saxta iddialar üzərində qurulub. Qurum indiyə qədər Azərbaycana dair 40-a yaxın qətnamə qəbul edib. Amma onların heç birində həqiqətə yaxın olan belə fikir tapmaq mümkün deyil. Hər bir belə qətnamə reallıqla, ümumiyyətlə, bağlı olmayan məlumatlara əsaslanıb.

Və qeyd edildiyi kimi, belə qondarma qətnamələri AP Azərbaycan uğurlara imza atanda qəbul edib. Azərbaycan yüksəldikcə, iqtisadi inkişafla bağlı nailiyyətlərə imza atdıqca, regionda və dünyada söz sahibi kimi mövqelərini möhkəmləndirdikcə AP erməni təəssübünü çəkən siyasi mərkəzlərdən aldığı sifarişlər əsasında Azərbaycanı hədəfə alan sənədlər qəbul edib. O cümlədən respublikamızda keçirilən mühüm beynəlxalq tədbirlər ərəfəsində AP alətə çevrilərək ölkəmizə qarşı başladılan qarayaxma kampaniyasının önündə gəlib. Bunu "Avroviziya" mahnı müsabiqəsi, I Avropa Oyunları və digər mötəbər tədbirlər ərəfəsində AP-nin ortaya qoyduğu riyakarlıq təsdiq edir. Son dövrlərdə isə COP29 zamanı AP respublikamıza qarşı hibrid hücumlarda alət kimi istifadə edilib.

AP torpaqlarımızın işğal altında olduğu dövrdə bircə dəfə də olsun Ermənistandan təcavüzkarlığa son qoymağı tələb etməyib. Bu məkr mərkəzi heç vaxt Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməyib. Bir dəfə də olsun AP Ermənistanın işğalçılığı nəticəsində Azərbaycan vətəndaşlarının məcburi köçkün vəziyyətinə düşməsindən narahatlığını ifadə etməyib. Seçkilər zamanı Azərbaycana qarşı saxta və yalan iddialar əsasında qətnamələr qəbul edən bu təşkilat Ermənistanda seçki vaxtı namizədin güllələnməsini, aksiyalar zamanı vətəndaşların öldürülməsini görməzdən gəlib.

### AP-nin məqsədi sülh prosesinə zərbə vurmaqdır

Ümumiyyətlə, AP həmişə irqçi, islamafob, türkofob və Azərbaycanofob mövqeyi ilə tanınıb. Hər hansı məsələyə münasibətdə reallıqla uzlaşmayan, insanlığa sığmayan, hansısa siyasi qrupların maraqlarını müdafiə edən qərar qəbul edib. Torpaqlarımızın işğaldan azad olunması isə AP-nin yuxusunu ərşə çəkib. Çünki 44 günlük Vətən müharibəsində Azərbaycan həm də Ermənistanın təəssübkeşi olan Avropa Parlamentinə qalib gəlib. Bu savaş AP-də daxil olmaqla erməni təəssübkeşlərinin məğlubiyyəti oldu.

Vətən müharibəsindən sonra AP-nin Azərbaycanla bağlı davamlı olaraq qətnamələr qəbul etməsi bir daha bu təşkilatın ölkəmizə qarşı düşmən münasibətinin göstəricisidir. Müharibə 5 ildir başa çatıb. Lakin bu dövrdə AP tərəfindən Azərbaycana bağlı böhtanla dolu 10-dan artıq rüsvayçı qətnamə qəbul edilib. Və bu qətnamələrin hamısı Azərbaycanın uğurlarına, dövlətimizin imicinə kölgə salmaq məqsədi güdüb.

Onu da qeyd edək ki, AP-nin üzvü olmadığı bir ölkə haqqında belə qətnamə çıxarması siyasi-etik baxımdan da düzgün deyil. Digər tərəfdən, AP-nin qəbul etdiyi qərarlar heç Avropa İttifaqına üzv olan dövlətlərdə belə ciddi qəbul olunmur. Son illərdə korrupsiya qalmaqalları ilə üzləşməsi AP-nin onsuz da zəif olan siyasi reputasiyasını əhəmiyyətli dərəcədə zəiflədib.

Bu gün Cənubi Qafqazda pozitiv proseslər gedir. Bu ilin avqustunda Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsinin mətninin paraflanması, Zəngəzur dəhlizinin (TRIPP) açılmasına dair razılaşmaların əldə olunması göstərir ki, regionun tarixində yeni bir dövr başlayıb. Belə bir ərəfədə sağlam düşünən dövlət, hər bir siyasi qurum bu prosesi alqışlamalı, dəstəyini göstərməlidir. Lakin bilinən odur ki, AP indiyə qədər Azərbaycanla Ermənistanın sülhə yaxın olduğu bir dövrdə bu prosesə hər hansı dəstəyini ifadə etməyib. Milli Məclisin bəyanatında deyildiyi kimi, indi isə bəlli olur ki, 2025-ci il 8 avqust tarixli Vaşinqton Sammiti, ABŞ Prezidenti Donald Trampın səmimi vasitəçiliyi nəticəsində Azərbaycan-Ermənistan sülh prosesində əldə olunmuş irəliləyiş bir sıra dairələrin maraqlarına cavab vermir. Müvafiq proseslərdə iştirak və müdaxilə imkanlarını itirən həmin dairələr regionumuzda sülh, sabitlik və əməkdaşlığın təşəbbüsçüsü olan Azərbaycana qarşı belə bəsit addımlarla həmin prosesləri dolayı yolla əngəlləməyə cəhd edirlər.

Azərbaycan öz yolu, qətiyyətli və müstəqil siyasəti olan dövlətdir. İndiyə qədər AP-nin Azərbaycanla bağlı qəbul etdiyi qətnamələrin heç biri respublikamızın siyasətinə təsir göstərə bilməyib. Heç bir qətnamə Azərbaycanı öz yolundan dayandıra və ya döndərə bilməyb. Ona görə AP-nin 2025-ci il 18 dekabr tarixli qətnaməsi də Azərbaycan üçün adi kağız parçasından başqa bir şey deyil.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Avropa Parlamentindən növbəti saxta qətnamə

### Riyakar qurumun qəbul etdiyi sənəd Azərbaycanın daxili işlərinə qarışmaqdır

**Avropa Parlamenti (AP) 2025-ci il dekabrın 18-də bir daha riyakarlıq nümayiş etdirərək, ölkəmizə qarşı reallığı əks etdirməyən qərəzli qətnamə qəbul etdi. Sözdə insan hüquq və azadlıqlarından, demokratiyadan danışan bu qurumun əsl məqsədi müstəqil, milli maraqlarına uyğun siyasət yürüdən ölkələrə qarşı təzyiq etməkdir. Bu baxımdan AP-nin Azərbaycana qarşı mövqeyi təşkilatın ikili standartlardan hələ də əl çəkə bilməməsinin sübutudur.**



Bakı Dövlət Universitetinin kafedra müdiri professor Kamilə Əliyeva qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu, qlobal siyasətə təsir edə biləcək bir gücə çevrilməsi Avropa Parlamentini bərk narahat edir. Torpaqlarımızın 30 il işğalı zamanı şəhər və kəndlərimiz viran qoyulanda, 1 milyon soydaşımız qaçqın və məcburi köçkün düşəndə Avropa Parlamenti bu cinayəti pisləyən bir qətnamə belə qəbul etmədi, əksinə, bu işğala qanuni don geyindirməyə çalışdı. 2020-ci ildə Prezident, Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdi, 2023-cü ildə isə uğurlu antiterror tədbirləri nəticəsində Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. Separatizmin kökü tamamilə kəsildi. "Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərini bərpa etməklə Avropanın üz qarasını da təmizlədi. Avropa Parlamentindəki bir sıra deputatlar Azərbaycana onları bu rüsvayçılıqdan xilas etdiyinə görə "sağ ol" demək əvəzinə bizə qarşı qərəzli, saxta kampaniyanı davam etdirirlər. Avropa Parlamenti Azərbaycana qarşı hərbi cinayətlər törətmiş separatçıları, cinayətkarları müdafiə edir, ölkəmizi guya insan hüquqlarını pozmaqda ittiham edir. Dövlətimizə və xalqımıza qarşı cinayət törədən şəxslərin törətdikləri Azərbaycanın məhkəmələrində sübuta yetirilmişdir. Onların özləri də hərbi cinayət törətdiklərini etiraf etmişdilər. Belə olan halda Avropa Parlamenti kimə nəyi sübut etməyə çalışır? Onlar özlərini rüsvay edirlər", - deyə ekspert deyib.

K.Əliyeva qeyd edib ki, Azərbaycanı ittiham edən Avropa deputatlarının öz ölkələrində hər gün insanlar alçaldılır, həbsə atılırlar. Ölkəmizdə isə bütün insanların hüquqları ən yüksək səviyyədə qorunur. Cinayət törədənlər, Azərbaycanın qanunlarını pozanlar qanun qarşısında öz cəzalarını almalıdırlar. Avropa Parlamentinin qəbul etdiyi bu qətnamə birbaşa Azərbaycan dövlətinin daxili işlərinə qarışmaqdır. Heç bir təşkilatın və dövlətin Azərbaycanın daxili işlərinə qarışmaq hüququ yoxdur və buna da cəsarət etməyə çalışmasınlar. Azərbaycanı tutduğu haqq və ədalət yolundan heç kim çəkindirə bilməz və AP-nin qəbul etdiyi bu rüsvayçı, qərəzli qətnamənin dövlətimiz üçün heç bir əhəmiyyəti yoxdur.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Dünyanın şahidlik etdiyi həqiqətə göz yumanlar

### Xristian klubuna çevrilmiş Avropa Parlamentinin qərəz və mərəzi tükənmir

**Müstəqil qərar qəbul etmək iqtidarında olmayan, hər zaman müxtəlif siyasi mərkəzlərin aləti rolunu oynayan və insan haqları, demokratiya pərdəsi altında siyasi təxribatlar törətməklə məşğul olan korrupsioner Avropa Parlamenti bir daha bəzi dairələrin oyuncağı olduğunu nümayiş etdirdi.**

Müxtəlif vaxtlarda olduğu kimi, növbəti dəfə də Azərbaycana qarşı riyakar siyasət həyata keçirən AP yenidən iddialarla dolu növbəti qərəzli kağız parçasını qəbul edib. Lakin bu dəfə də hazırlanan "sənəd" Azərbaycan xalqı üçün heç də təəccüblü olmadı. Ölkə ictimaiyyətinə yaxşı bəllidir ki, Vətən müharibəsindəki şanlı qələbəmizdən sonra Avropa Parlamenti sanki Hayastan parlamentində komitə funksiyasını yerinə yetirir, bu ölkənin Xarici İşlər Nazirliyinin layihələrini notarial qaydada "təsdiq edir".

Ümumiyyətlə, Avropa Parlamentinin Azərbaycanla bağlı yanaşmasında uzun illərdir selektivlik və ikili standartlar faktı müşahidə olunur. AP-nin Azərbaycana qarşı qəbul etdiyi növbəti qətnamə isə bir daha göstərir ki, bu qurum ölkəmizlə bağlı məsələlərdə obyektivlik və ədalət prinsiplərindən uzaq, qərəzli və siyasi sifarişlərə əsaslanan yanaşmanı davam etdirir. Sözügedən "sənəd" real vəziyyətin təhlilinə deyil, birtərəfli məlumatlara və əsassız ittihamlara söykənir. Yalan məlumatlar və saxta iddialar üzərində qurulan, konkret cinayət əməllərinə siyasi don geyindirən bu sənəd qanunun aliliyinə kölgə salmaq və məhkəmə proseslərinə kobud müdaxilə etmək üçün göstərilən növbəti uğursuz cəhddir.

AP-nin bu qərəzinə etiraz olaraq Milli Məclisin qəbul etdiyi bəyanatda da deyilir ki, anti-Azərbaycan ritorikasından əl çəkə bilməyən Avropa Parlamenti bir daha siyasi riyakarlıq nümayiş etdirərək, insan hüquqları kimi önəmli mövzudan öz gizli gündəliyi və təxribatçı məqsədləri üçün istifadəyə davam edir. Torpaqlarımızın 30 illik işğalına, yüzlərlə şəhər və kəndimizin, tarixi, dini və mədəni abidələrimizin dağıdılmasına daim etinasız qalmış, 1 milyon qaçqın və məcburi köçkünün hüquqlarının pozulmasını görməzdən gəlmiş Avropa Parlamenti 44 günlük Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasına, beynəlxalq hüququn norma və prinsiplərinin həyata keçirilməsinə Azərbaycan əleyhinə 10-dan artıq rüsvayçı qətnamənin qəbulu ilə cavab vermişdir.



Bu, həmin təşkilatdır ki, COP29 kimi mötəbər tədbirin keçirilməsi ərəfəsində və keçirildiyi dövrdə Azərbaycana qarşı hibrid hücumlarda əsas alətlərdən biri kimi istifadə olunmuşdur. Bu da dəfələrlə sübuta yetirilmişdir ki, Avropa Parlamentində qətnamələrin qəbulu prosesi konkret maraq qrupları tərəfindən məqsədli şəkildə idarə edilir. Müşahidələr göstərir ki, Avropa Parlamenti üzvlərinin əksəriyyətinin səs verdikləri qətnamə layihələrinin nəinki mahiyyəti, hətta mətni barədə heç bir anlayışı olmur. Bu isə Avropa parlamentarizminin düşdüyü acınacaqlı vəziyyətdən xəbər verir.

Avropa Parlamentinin qəbul etdiyi qətnamədə Azərbaycanın suveren hüquqlarının, ərazi bütövlüyünün və təhlükəsizlik maraqlarının nəzərə alınmaması ciddi narahatlıq doğurur. Ermənistanın uzun illər ərzində Azərbaycan ərazilərini işğal altında saxlaması, bir milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə salınması faktına Avropa Parlamenti tərəfindən ya səthi, ya da tamamilə laqeyd yanaşılması açıq ikili standart nümunəsidir.

Azərbaycan dəfələrlə bəyan edib ki, regionda sülh və əməkdaşlıq üçün real addımlar atılmalıdır. Avropa Parlamentinin birtərəfli mövqeyi isə sülh prosesinə etimadsızlıq yaradır. Azərbaycan Respublikası beynəlxalq hüquqa hörmət edən, regional və qlobal əməkdaşlığa açıq olan dövlətdir. Ölkəmiz öz daxili işlərinə xarici müdaxiləni qəbuledilməz hesab edir və suveren qərarların kənar siyasi təzyiqlərlə yönləndirilməsinə qarşı prinsipial mövqe sərgiləyir.

Hər kəsə bəllidir ki, bu təşkilat daim müxtəlif lobbi qruplarının maraqlarına xidmət edib. Qurum korrupsiya qalmaqalları ilə, dəfələrlə parlament üzvlərinin rüşvət və korrupsiyaya görə ittihamları ilə üzləşib. Bir müddət əvvəl Avropa Parlamentində baş verən korrupsiya olayı və həmin olayın bir ucunun ermənilərə bağlı olması faktı bu qurumu, sözün əsl mənasında, silkələmiş oldu.

Çox maraqlı suallar yaranır. Əgər bu qurum "həqiqətin carçısı"dırsa, onda nədən 30 il ərzində erməni faşizminin qanlı əməlləri, erməni vandallarının barbarlığı ilə bağlı bir dənə də olsun qətnamə, hesabat qəbul etmədi?

Belə bir "mötəbər" beynəlxalq struktur Ermənistanın Azərbaycan ərazilərinin 30 ilə yaxındır işğalı zamanı öz yurd-yuvasından didərgin salınmış yüz minlərlə azərbaycanlının etnik təmizləməyə məruz qalması prosesinə niyə göz yumdu?

Dünya Azərbaycan kəndlərinin, şəhərlərinin darmadağın edilməsinə şahidlik edəndə Avropa Parlamenti nədən susdu?

Deyək ki, bunlar bir qədər arxada qaldı. Bəs indi bu beynəlxalq təşkilat Hayastanın Azərbaycan vətəndaşlarına qarşı mina terroruna nədən məhəl qoymur? Axı məhz müharibə bitdikdən sonra ermənilərin basdırdığı minaların partlaması nəticəsində yüzlərlə azərbaycanlı həlak olub. İşğaldan azad edilmiş ərazilərdə Ermənistanın basdırdığı mina sahələrinin miqyası və kütləviliyi mina terrorunun təzahürüdür.

Bir sözlə, Avropa Parlamentinin yalan, böhtan və riyakarlığa sadiqliyinin bu səviyyədə nümayişi insanı dəhşətə gətirir. İşğalçıya "göz yaşı" axıtması, qəsbkara qahmar çıxması, onu dəstəkləməsi, onun barbar, vandal əməllərini "görməməsi" bu qurumun fəaliyyət prinsipləri barədə aydın təsəvvür yaradır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş siyasət, düzgün taktika



# Fəxr etdiyimiz Lider, qürur duyduğumuz Sərkərdə

**Müasir müstəqil Azərbaycanın qurucusu və xalqımızın xilaskarı Heydər Əliyev hələ 2003-cü ildə İlham Əliyev haqqında demişdir: "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bəli, 22 il öncə deyilmiş bu sözlər mahir diplomat, hərbi strategiyası parlaq Zəfərlə nəticələnən sərkərdə - qalib xalqın qalib lideri olan İlham Əliyevin uzaqgörənliyi və yüksək liderlik keyfiyyətləri ilə çoxdan öz təsdiqini tapmışdır.**

Prezident İlham Əliyev... Bu adı eşidəndə vətəndaş kimi iftixar hissi keçirdiyimizi və bu adın nəinki region və ya cəmiyyətimiz üçün, hətta bütün dünya liderləri və ölkələri üçün nümunə olduğunu, bir sözlə, onun siyasi və şəxsi portret cizgilərinin böyük mənalar kəsb etdiyini qürurla vurğulamaq istəyirik. İlham Əliyev milli lider, müzəffər tarixi sərkərdə, mahir strateq, güclü diplomat, yüksək insani və liderlik keyfiyyətlərini özündə təcəssüm etdirən fenomen şəxsiyyətdir. O lider ki, Azərbaycan xalqının qəlbinə və yaddaşına əbədi olaraq həkk edilən şanlı və şərəfli tariximizin müəllifidir. O lider ki, sadəcə, xalqımızın 30 illik yurd həsrətinə deyil, həmçinin əldə etdiyi parlaq Qələbə nəticəsində Ermənistan təcavüzkarlarının əsrlərdir davam edən işğalçılıq siyasətinə son qoymaqla məhz onlara havadarlıq edən riyakar qüvvələrin də məkrli planlarını iflasa uğratmışdır. O lider ki, Ermənistanın hazırkı baş naziri Nikol Paşinyanla keçirdiyi beynəlxalq səviyyəli görüşlərdə, N.Paşinyan da daxil olmaqla, Ermənistanın bütün tarixçi və siyasətçilərinə, sözün həqiqi mənasında, əsl tarix dərsi keçmiş, Azərbaycanın ədalətli mövqeyini tarixi faktlar əsasında layiqincə diktə etməyi bacarmışdır. O lider ki, Cənubi Qafqaz regionuna davamlı və dayanıqlı sülhün gəlməsi naminə bütün bilik və bacarıqlarını səfərbər etmiş, Qarabağı və Şərqi Zəngəzuru azadlığına qovuşdurmuş və bir əsrdir həsrətlə baxdığımız doğma yurdumuza - Zəngəzur mahalına günəş kimi işıq salmış və bununla da bizim qədim Azərbaycan torpaqlarının əzəli sahiblərinin haqq-ədalətə əsaslandığını bütün dünyaya nümayiş etdirmişdir. O lider ki, Valday diskussiyası və Münhen konfransı kimi əhəmiyyətli müstəvilərdə Azərbaycanın milli mövqeyini tarixi qaynaqlara istinadən bütün dünya ictimaiyyətinə peşəkarcasına çatdırmış, tarixi ədaləti bərpa edəcəyinə söz vermiş və nəhayət, 2020-ci ildə 44 günlük Vətən müharibəsində yenilməz Azərbaycan Ordusu ilə birgə Zəfər zirvəsini fəth etmişdir. Daha sonra isə bütün erməni separatizmini darmadağın edərək, doğma Xankəndi şəhərində Azərbaycanın Dövlət bayrağını milli ruhumuzun dolaşdığı Qarabağın səmasına ucaltmış və sözünün imzası qədər dəyərli olduğunu sübuta yetirmişdir.

Cənab İlham Əliyevi dünya ölkələrinin rəhbərləri - dövlət və hökumət başçıları da mükəmməl şəxsiyyət və müdrik Prezident kimi qəbul edirlər. Türkiyə Respublikasının Prezidenti R.T.Ərdoğanın "Vətən müharibəsi müddətində müxtəlif təxribatlara baxmayaraq, İlham qardaşım qətiyyətli və soyuqqanlı liderlik nümayiş etdirərək Zəfərin baş memarı oldu", ABŞ Prezidenti D.Trampın "Mən Sizinlə, həqiqətən, fəxr edirəm. Siz çox gözəl insansınız, siz böyük lidersiniz", Serbiya Prezidenti Aleksandar Vuçiçin "Sözü imzası qədər kəsərli olan İlham Əliyev bu gün dünya liderləri arasında ən güvənilən, ən etibarlı şəxsiyyətlərdən biridir. Həqiqətən də, çox xoşbəxtəm ki, Prezident Əliyevdən bu qədər şey öyrənə bilmişəm", Macarıstan Baş naziri Viktor Orbanın "Mən son 10 ildə Prezident Əliyevdən o qədər çox şey öyrənmişəm ki, olduqca mürəkkəb mühitdə ölkəyə necə yaxşı rəhbərlik etmək lazımdır. Əfsuslar olsun ki, onun bütün bildiklərini öyrənə bilmədim. Çünki biz radikal tərəfə meyilliyik və o, daha mülayim baxışları ilə tanınan siyasi xadimdir. Mən ondan beynəlxalq arenada mülayim şəkildə necə daha da uğurlu olmağı öyrənməliyəm", eləcə də digər liderlərin İlham Əliyev haqqında söylədiyi bu cür dəyərli fikirlər dövlətimizin başçısının mükəmməl xarizmaya malik, bənzərsiz lider olduğunu bir daha təsdiqləyir. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 22 il ərzində Azərbaycan saysız-hesabsız uğurlara imza atmışdır. Bu uğurlar hesabına Azərbaycan beynəlxalq təşkilatların hesabatlarında sosial, iqtisadi, ictimai, siyasi və digər sahələr üzrə dünyanın inkişaf etmiş ölkələri sırasındadır.

44 günlük Vətən müharibəsində və 2023-cü ilin antiterror tədbirlərində əldə etdiyimiz möhtəşəm Zəfərlə Prezident İlham Əliyev, sadəcə, XVIII əsrdən etibarən Cənubi Qafqaza köçürülən erməni təcavüzkarlarının ərazi iddiasını və 200 illik əsarətini deyil, ümumilikdə onların Balkan yarımadası üzərindən Şərqi Anadolu və Suriya çöllərinə köç etmiş əcdadlarının 3 min ildir uydurduğu "böyük Ermənistan" mifini darmadağın etmişdir. Ona görə də İlham Əliyev kimi sərkərdə və milli liderlə eyni əsrdə yaşayıb, şanlı hadisələrə şahidlik etmək xoşbəxtlikdir.

Beynəlxalq hüququn deyil, məhz güc amilinin əsas rol oynadığı və haqsız qarşıdurmaların hökm sürdüyü bugünkü dünyada, regional və qlobal səviyyədə baş verən geosiyasi və geoiqtisadi dəyişikliklər zamanında, informasiya cəbhəsində qərəzli xarici təzyiqlərin davam etdiyi bir dönəmdə milli təhlükəsizliyi və sabitliyi təmin etmək, ölkənin bütün coğrafiyasında Dövlət bayrağını dalğalandırmaq hər dövlət və hökumət başçısına nəsib olmur. Bunu yalnız İlham Əliyev kimi Lider və Sərkərdə bacara bilər.

***Tural İSMAYILOV,***
***YAP Yevlax rayon təşkilatının sədr müavini***

# Naxçıvan elektroenergetikasının inkişaf mərhələləri

## Prezident İlham Əliyevin təşəbbüsləri sayəsində böyük dönüş

**Fiziki-coğrafi mövqeyi, mürəkkəb relyefi və unikal təbii şəraiti ilə fərqlənən Naxçıvan Muxtar Respublikası ölkəmizin strateji əhəmiyyətə malik regionlarından biridir. Bu coğrafi xüsusiyyətlər regionun sosial-iqtisadi inkişafı ilə yanaşı, elektroenergetika sahəsində də spesifik yanaşmalar və dayanıqlı həllər tələb edən çağırışlar formalaşdırmışdır.**

Azərbaycanın əsas enerji mərkəzlərindən kənarda yerləşən və uzun müddət enerji təchizatı məhdud imkanlar daxilində olan Naxçıvan üçün enerji təhlükəsizliyinin təmin edilməsi mühüm vəzifələrdən biri kimi qarşıya qoyulmuş və bu səbəbdən muxtar respublikanın dayanıqlı və etibarlı elektrik enerjisi təminatı məqsədilə müasir enerji infrastrukturunun yaradılması dövlət səviyyəsində strateji prioritetlərdən biri kimi müəyyən edilmişdir.

Müəyyən dövr Naxçıvanın enerji təminatı regional bazarlardan asılı vəziyyətdə idi və elektrik enerjisi tələbatı daha çox mövcud lokal potensiala söykənirdi. Həmin dövr Naxçıvan elektrik enerjisi ilə təminatda çətinliklərlə üzləşmiş, çox məhdud istehsal imkanları ilə qismən təmin olunan sistemdə fasilələr müşahidə olunmuşdur. Bu isə elektrik stansiyalarının gücünün artırılması, yarımstansiyaların modernləşdirilməsi və yüksəkgərginlikli xətt infrastrukturlarının yenilənməsi kimi məsələlərin strateji əhəmiyyətini gündəmə gətirmişdir. Ümumiyyətlə, müstəqilliyimizin ilk illərində Naxçıvan MR təkcə iqtisadi və nəqliyyat blokadası ilə deyil, enerji blokadası ilə də üz-üzə qalmışdır. 1990-cı illərin əvvəllərində Ermənistan tərəfindən, Cənubi Qafqazın vahid enerji sistemindən qidalandırıcı enerji xətlərinin kəsilməsi nəticəsində muxtar respublikada müəyyən bir dövr enerji böhranı yaşanmışdır. Bu, regionun iqtisadiyyatına ciddi təsir göstərən amil olmuşdur.

Həmin dövrdə Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti və qətiyyətli addımları sayəsində Naxçıvan üçün müstəqil enerji strategiyasının əsası qoyulmuş, ilk növbədə daxili enerji istehsalına başlanılması üçün tədbirlər görülmüşdür. Sonrakı illərdə bu istiqamətdə daha genişmiqyaslı layihələrin həyata keçirilməsi üçün mühüm hüquqi və institusional baza formalaşdırılmışdır. Nəticədə muxtar respublikada enerji təhlükəsizliyinin təmin edilməsi, enerji sisteminin dayanıqlılığı və etibarlılığı ilə bağlı məsələlər yeni mərhələyə qədəm qoymuşdur. Sonrakı dövr elektroenergetikanın inkişafı mərhələsində muxtar respublikada yeni enerji güc mərkəzləri - elektrik stansiyaları tikilib-quraşdırılıb istismara verilmiş, enerji tələbatı tam həcmdə daxili imkanlar hesabına təmin olunmuşdur.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkənin bütün regionlarında olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da elektroenergetika sahəsində mühüm islahatlar və genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir. Həmin təşəbbüslər muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunması, alternativ və bərpaolunan enerji potensialının səmərəli istifadəsi, həmçinin rəqəmsal idarəetmə sistemlərinin tətbiqi ilə enerji sektorunun modernləşdirilməsinə yönəlib.

Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən enerji siyasəti ilə Naxçıvan MR-də aparılan islahatlar təkcə struktur və idarəetmə səviyyəsində deyil, həm də strateji planlaşdırma və ekoloji davamlılıq baxımından mühüm mərhələyə qədəm qoymuşdur. Bu baxımdan Prezident İlham Əliyevin 2023-cü il 5 iyun tarixli fərmanı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" regionda elektrik enerjisi infrastrukturunun yenilənməsi, "yaşıl enerji" potensialının reallaşdırılması üçün hüquqi və iqtisadi baza yaratmışdır. 2023-cü ilin dekabr ayında dövlət başçısı tərəfindən Naxçıvan Muxtar Respublikasının "yaşıl enerji zonası" elan olunması isə ölkənin enerji siyasətində mühüm dönüş nöqtəsi olmuşdur. Bu qərar Naxçıvanın alternativ və bərpaolunan enerji resurslarının - günəş, külək və hidroenerji potensialının sistemli şəkildə istismarı və inkişaf etdirilməsi məqsədi daşıyır. Regionun coğrafi şəraiti və günəşli günlərin sayı bu sahədə böyük perspektivlər vəd edir. Naxçıvanın "yaşıl enerji zonası"na çevrilməsi regionun enerji müstəqilliyinə, ixrac potensialına və ekoloji təhlükəsizliyinə ciddi töhfə verəcək. Eyni zamanda bu qərar ümumilikdə Azərbaycanın "yaşıl iqtisadiyyat"a keçid strategiyasının regional modelinin formalaşdırılması baxımından da mühüm nümunədir.

Prezidentin 2024-cü ilin noyabrında imzaladığı fərmanla Naxçıvan Muxtar Respublikasının elektroenergetika sisteminin "Azərenerji" ASC və "Azərişıq" ASC-yə inteqrasiya olunması təkcə institusional bir dəyişiklik deyil, eyni zamanda ölkənin enerji idarəetməsində strateji dönüş nöqtəsi kimi qiymətləndirilə bilər. Bu qərar nəticəsində Naxçıvanın elektroenergetika sektoru müasir idarəetmə prinsiplərinə, texnoloji yeniliklərə və vahid milli enerji siyasətinə uyğun şəkildə yenidən təşkil edilməyə başlamışdır.

Mərkəzləşdirilmiş idarəetmə modeli vahid standartların tətbiqinə, enerji infrastrukturunun daha çevik və səmərəli istismarına, eləcə də texniki resursların optimal bölüşdürülməsinə şərait yaratmışdır. Bu model Naxçıvanda elektroenergetika sisteminin digər ölkə regionları ilə sinxronlaşdırılması, ehtiyat imkanların gücləndirilməsi və potensial enerji böhranlarının qarşısının alınması deməkdir.

Fərmanın icrası istiqamətində Naxçıvanda paylayıcı və ötürücü şəbəkələrin müasirləşdirilməsi, rəqəmsallaşdırılması, yeni elektrik stansiyalarının və yarımstansiyaların tikintisi istiqamətində mühüm layihələr icra olunmağa başlamışdır. Bu isə bütövlükdə muxtar respublikanın dayanıqlı enerji təminatını, sənaye və sosial sektorların davamlı inkişafını təmin edən mühüm faktor kimi çıxış edir.

Dövlət başçısının 2024-cü il 23 dekabr tarixli sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında yeni istilik-elektrik stansiyasının (İES) tikintisi ilə bağlı tədbirlər haqqında" verilən qərar regionun enerji təhlükəsizliyi və davamlı inkişaf strategiyası baxımından mühüm əhəmiyyət kəsb edir. Sərəncam uzunmüddətli dövrdə muxtar respublikanın daxili istehsal gücünün artırılmasına və enerji müstəqilliyinin təmin olunmasına yönəlmiş strateji addım kimi qiymətləndirilə bilər.

Yeni İES layihəsinin reallaşdırılması təkcə generasiya güclərinin artırılması deyil, həm də Naxçıvanda elektrik enerjisinin fasiləsiz və dayanıqlı təminatı üçün mövcud infrastrukturun təkmilləşdirilməsinə, yük rejimlərinin optimallaşdırılmasına və sistem sabitliyinin qorunmasına xidmət edəcək. Eyni zamanda bu stansiya muxtar respublikanın sosial-iqtisadi inkişafını dəstəkləməklə sənaye və məişət istehlakçılarının artan enerji tələbatını qarşılamağa imkan verəcək. Bununla yanaşı, yeni İES-lə bağlı sərəncam dövlətin energetika siyasətində regional bərabərliyin qorunmasına və iqtisadi dayanıqlılığın gücləndirilməsinə verdiyi önəmin nümunəsidir. Layihənin həyata keçirilməsi həm də texniki kadr ehtiyacını artıracaq, bu sahədə yeni iş yerlərinin yaradılmasına və texniki peşə təhsilinin inkişafına təkan verəcək.

Prezidentin 2025-ci il 5 avqust tarixli "Naxçıvan Muxtar Respublikasının paylayıcı elektrik şəbəkəsinin rekonstruksiyası və bərpası ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı da regionun enerji infrastrukturunun növbəti inkişaf mərhələsinə keçidini təmin edən mühüm strateji sənəddir. Sənədin əsas məqsədi 2026-2030-cu illəri əhatə edən dövrdə Naxçıvanın paylayıcı şəbəkəsinin müasirləşdirilməsi, səmərəliliyin artırılması və fasiləsiz enerji təchizatının təmin olunmasıdır. Fərman "Azərişıq" ASC-nin Naxçıvan üzrə paylayıcı şəbəkənin yenidən qurulması prosesində məsul tərəf olduğunu hüquqi şəkildə təsdiqləməklə yanaşı, idarəetmədə mərkəzləşmiş yanaşmanın tətbiqini gücləndirir ki, bu da sistemli və planlı inkişafın təminatına zəmin yaradır.

Azərbaycanın enerji siyasəti çərçivəsində ölkənin ayrılmaz hissəsi olan Naxçıvan MR üçün də xüsusi elektroenergetika strategiyası hazırlanmışdır. Bu baxımdan "Azərenerji" ASC tərəfindən formalaşdırılmış və 2025-2027-ci illəri əhatə edən "Reabilitasiya və Yenidənqurma Tədbirləri" Naxçıvanda enerji təhlükəsizliyinin təmin olunması, enerji təchizatının dayanıqlılığı və infrastrukturların müasir standartlara uyğun yenilənməsi baxımından böyük strateji əhəmiyyət daşıyır. Layihə çərçivəsində Naxçıvanda Regional Rəqəmsal İdarəetmə və SCADA Mərkəzinin, "Naxçıvan Enerji" MMC-nin inzibati binasının tikintisi, 110/35/10 kV-luq "Naxçıvan" və "Çeşməbasar", həmçinin 154/110/10 kV-luq "Babək" yarımstansiyalarının, 110 kV-luq ötürücü hava elektrik xətlərinin yenidən qurulması, yaşayış yerlərindən keçən hava xətlərinin trassasının dəyişdirilməsi, eyni zamanda kabelləşdirilməsi və bu kimi digər işlərin icrası həyata keçirilir.

Naxçıvan MR-də həyata keçirilən bu genişmiqyaslı enerji strategiyası enerji təhlükəsizliyini və müstəqilliyini təmin edəcək, rəqəmsal idarəetmə və avtomatlaşdırma ilə effektivliyi artıracaq və bərpaolunan enerji resurslarının inkişafı ilə ekoloji dayanıqlılığa töhfə verəcək. "Azərenerji" ASC-nin rəhbərliyi altında icra edilən bu strateji yanaşma Naxçıvanı Cənubi Qafqazın ən modern enerji regionlarından birinə çevirir və Azərbaycanın enerji siyasətində unikal model nümunəsi formalaşdırır.

Ölkə üçün strateji əhəmiyyət daşıyan əsas infrastruktur layihələrindən biri də uzun illər əsas enerji sistemindən ayrı düşmüş Naxçıvan enerji şəbəkəsinin 330 kV-luq ötürücü xətlə Cəbrayıl yarımstansiyası üzərindən ümumi respublika enerji sisteminə qoşulmasıdır. Hazırda xəttin seçilmiş trassası üzrə ərazilərin topoqrafik araşdırılması, dayaq nöqtələrinin planlaşdırılması və digər mühüm layihələndirmə işləri aparılır.

330 kV-luq Cəbrayıl-Naxçıvan ötürücü xəttinin çəkilməsi uzun illər enerji blokadasında qalan və Azərbaycanın əsas enerji sistemindən təcrid olunmuş Naxçıvan üçün tarixi əhəmiyyət daşıyan bir hadisədir. Bu layihənin reallaşdırılması nəticəsində muxtar respublika xarici enerji asılılığından tamamilə azad olur, enerji təhlükəsizliyi dayanıqlı şəkildə təmin edilir. Yeni infrastruktur Naxçıvanın həm daxili tələbatını qarşılamağa, həm də gələcəkdə istehsal etdiyi elektrik enerjisini, xüsusilə bərpaolunan mənbələrdən alınan enerjini Azərbaycanın ümumi sisteminə ötürməyə imkan yaradır. Bu isə bir zaman elektrik enerjisini idxal edən bölgəni enerji ixracatçısına çevirərək həm iqtisadi, həm də strateji baxımdan mühüm üstünlüklər qazandırır.

Naxçıvandan Türkiyəyə enerji ixracı strateji baxımdan mühüm perspektivlər vəd edir. Coğrafi mövqeyinə görə Naxçıvan MR Azərbaycanın Türkiyə ilə quru sərhədinə malik yeganə bölgəsidir. Bu üstünlük həm enerji istehsalı, həm də ötürülməsi baxımından Naxçıvanı regional enerji qovşağına çevirmək potensialına sahib edir.

Son illər muxtar respublikada həyata keçirilən infrastruktur layihələri - yeni elektrik stansiyalarının tikintisi, ötürücü xətlərin yenilənməsi, SCADA və rəqəmsal idarəetmə sistemlərinin tətbiqi, xüsusilə 330 kV-luq Cəbrayıl-Naxçıvan xəttinin çəkilməsi ilə Naxçıvanın ümumi enerji sisteminə qoşulması bu potensialı daha da artırır. Eyni zamanda bölgədə bərpaolunan enerji mənbələri üzrə yeni layihələr - günəş və külək-elektrik stansiyalarının qurulması nəticəsində elektrik enerjisi istehsalı artacaq.

Bu şəraitdə artıq Naxçıvan təkcə öz tələbatını qarşılayan region deyil, enerji ixrac edə biləcək bir istehsalçıya çevrilir. Gələcəkdə Naxçıvandan İğdır üzərindən Türkiyə enerji sisteminə inteqrasiya imkanları texniki və siyasi baxımdan mümkün hesab olunur. Bu həm Azərbaycan-Türkiyə enerji əməkdaşlığını dərinləşdirəcək, həm də Naxçıvanın iqtisadi və regional rolunu daha da gücləndirəcək.

***Sevinc RZAYEVA,***
***Naxçıvan Dövlət Universitetinin Elektroenergetika mühəndisliyi kafedrasının baş müəllimi***

# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2026-cı ilin yanvar ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | Əhmədov Əli Cavad oğlu | 19 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 21, 29 (Bakı şəhəri) | Mais Günəşov +99451 277 0025 25sayli_sd@meclis.gov.az |
| 2. | Əsgərov Ziyafət Abbas oğlu | 15 (Naxçıvan MR, Şərur rayonu) 21 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 24 (Naxçıvan MR, Sədərək rayonu) | Günay Orucova +99451 641 9841 1sayli_sd@meclis.gov.az |
| 3. | Qasımlı Musa Cəfər oğlu | 16 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 22 (Yardımlı rayonu) 29 (Masallı rayonu) | Adil Mustafayev +99450 676 3526 75sayli_sd@meclis.gov.az |
| 4. | Hüseynov Rafael Baba oğlu | 06 (Hacıqabul rayonu) 09 (Kürdəmir rayonu) 30 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) | Ceyhun Ağayev +99470 887 7090 63sayli_sd@meclis.gov.az |
| 5. | Abbasov Aqil Məhəmməd oğlu | 12 (Ağcabədi rayonu) 22 (Füzuli rayonu) | Fərhad Əliyev +99451 230 3237 85sayli_sd@meclis.gov.az |
| 6. | Ağamalı Günay Fəzail qızı | 05 (Salyan rayonu) 17 (Biləsuvar və Neftçala rayonları) | Pərviz Mirizadə +99451 640 1962 65sayli_sd@meclis.gov.az |
| 7. | Ağayeva Ülviyyə Cavanşir qızı | 10,24 (Tovuz rayonu) 11,25 (Ağstafa və Qazax rayonları) | Arzu Musayeva +99455 649 3070 107sayli_sd@meclis.gov.az |
| 8. | Ağazadə Əminə Həmid qızı | 17,24 (Kürdəmir rayonu) | Namiq Ağayev +99455 298 8050 62sayli_sd@meclis.gov.az |
| 9. | Akimova Elnarə Seydulla qızı | 15, 29 (Sumqayıt şəhəri) | Soltanov İltifat +99470 860 8644 46sayli_sd@meclis.gov.az |
| 10. | Alıyev Sahib Eyvaz oğlu | 05, 31 (Ağdaş rayonu) | Rəhman Rəhmanov +99451 277 3003 93sayli_sd@meclis.gov.az |
| 11. | Allahverənov Azər Kərim oğlu | 13,22 (Bakı şəhəri) | Ülvi Məmmədəliyev +99455 544 5566 29sayli_sd@meclis.gov.az |
| 12. | Aran Səyyad Adil oğlu | 19 (İmişli rayonu) 26 (Saatlı rayonu) | Pərvin Mahmudov +99450 255 1388 Ağa Abışov +99450 775 7477 82sayli_sd@meclis.gov.az |
| 13. | Arpadarai Nigar Cavid qızı | 23, 31 (Bakı şəhəri) | Bəhruz Teymurov +99450 304 2112 7sayli_sd@meclis.gov.az |
| 14. | Aslanov Novruzəli Davud oğlu | 08, 15, 22, 29 (İsmayıllı rayonu) | Kamran Xanlarlı +99450 502 4888 89sayli_sd@meclis.gov.az |
| 15. | Badamov Azər Camal oğlu | 10, 17 (Qusar rayonu) | General Sadulov +99450 313 2962 61sayli_sd@meclis.gov.az |
| 16. | Bayramov Kamran Fərhad oğlu | 17 (Göygöl rayonu) 24 (Daşkəsən rayonu) | Məmməd Məmmədli +99450 247 9747 100sayli_sd@meclis.gov.az |
| 17. | Bayramov Vüqar İbad oğlu | 17, 24 (Füzuli rayonu) | Eltun Ağakişiyev +99450 226 8002 84sayli_sd@meclis.gov.az |
| 18. | Bədəlov Bədəl Şamil oğlu | 10(Goranboy rayonu) 24 (Naftalan şəhəri) | Mahyəddin Mazanov +99470 310 2733 96sayli_sd@meclis.gov.az |
| 19. | Bülbüloğlu Polad | 21,28 (Bakı şəhəri, Milli Məclisin inzi-bati binası) | Milli Məclisin qəbul otağı +99412 510 9938 124sayli_sd@meclis.gov.az |
| 20. | Cəfərov Kamal Xaqani oğlu | 14,21 (Sabirabad rayonu) | Nazim Çələbiyev +99455 274 6044 68sayli_sd@meclis.gov.az |
| 21. | Cəfərov Müşfiq Cəfər oğlu | 03 (Gəncə şəhəri) 21 (Goranboy rayonu) | Sahib Əmiraslanov +99450 255 2039 41sayli_sd@meclis.gov.az |
| 22. | Cəfərova Tamam Şaməmməd qızı | 16,24 (Şamaxı rayonu) | Aytəkin Quliyeva +99451 466 0090 Nigar Aslanova +99450 5963438 88sayli_sd@meclis.gov.az |
| 23. | Əfəndiyev Məzahir Cavid oğlu | 19 (Göyçay rayonu) 30 (Ağdaş rayonu) | Murad Abdullayev +99451 844 2424 92sayli_sd@meclis.gov.az |
| 24. | Əfəndiyeva Günay Elçin qızı | 21, 28 (Bakı şəhəri) | Vəfa Mürşüdlü +99455 379 0095 14sayli_sd@meclis.gov.az |
| 25. | Ələkbərov Əziz Yusif oğlu | 10, 24 (Saatlı rayonu) | Samir Nəsirov +99450 247 4355 66sayli_sd@meclis.gov.az |
| 26. | Əliyev Bəxtiyar Həmzə oğlu | 16, 28 (Ağdam rayonu) | Vüqar Əbdüləzimov +99450 288 2292 119sayli_sd@meclis.gov.az |
| 27. | Əliyeva Jalə Fazil qızı | 19 (Zərdab rayonu) 30 (Ucar rayonu) | Firdovsi Eyvazov +99450 331 9434 95sayli_sd@meclis.gov.az |
| 28. | Əli-zadə Arzuxan Baxşəli oğlu | 17, 31 (Bakı şəhəri) | Yəhya Həsənov +99455 814 0555 Mövsüm Həsənli +99451 277 0067 27sayli_sd@meclis.gov.az |
| 29. | Əmiraslanov Azər Kamal oğlu | 26 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 16, 27 (Ağstafa rayonu) | Əlövsət Allahyarov +99450 398 4697 108sayli_sd@meclis.gov.az |
| 30. | Əmiraslanov Əhliman Tapdıq oğlu | 23 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 24, 31 (Sabirabad rayonu) | Raqif Xəlilov +99450 277 9638 67sayli_sd@meclis.gov.az |
| 31. | Əsədov Heydər Xanış oğlu | 22, 29 (Şirvan şəhəri) | Arif Qasımov +99450 3195888 51sayli_sd@meclis.gov.az |
| 32. | Əsgərov Asif Yunis oğlu | 10, 17 (Zaqatala rayonu) | Elbrus Məmmədov +99455 677 6262 112sayli_sd@meclis.gov.az |
| 33. | Feyziyev Cavanşir Əyyub oğlu | 10, 24 (Şəki şəhəri) | Turan Salamov +99455 280 7750 / +99450 520 6618 115sayli_sd@meclis.gov.az |
| 34. | Fətəliyeva Sevinc Həbib qızı | 09, 23 (Bakı şəhəri) | Eldar Qurbanov +99450 277 0956 30sayli_sd@meclis.gov.az |
| 35. | Fətiyev Xanlar Nuru oğlu | 06, 27 (Bərdə rayonu) | Xəyyam Ələkbərzadə +99450 243 9030 98sayli_sd@meclis.gov.az |
| 36. | Gəncəliyev Tural Babaşah oğlu | 07, 21 (Bakı şəhəri) | Xatirə Əliyeva +99455 722 7431 122sayli_sd@meclis.gov.az |
| 37. | Hacıyev Sabir Kamal oğlu | 19, 28 (Göyçay rayonu) | Orxan Rzayev +99410 110 0159 91sayli_sd@meclis.gov.az |
| 38. | Həmzəyev Naqif Ələşrəf oğlu | 17, 27 (Gəncə şəhəri) | Sərxan İmanov +99450 255 1438 38sayli_sd@meclis.gov.az |
| 39. | Həmzəyeva Ülviyyə Tapdıq qızı | 16, 23 (Naxçıvan MR, Culfa rayonu) | Araz Xudiyev +99450 658 2375 5sayli_sd@meclis.gov.az |
| 40. | Həsənquliyev Qüdrət Müzəffər oğlu | 17, 24 (Bakı şəhəri) | Hüseyn Müzəfərli +99450 547 7764 36sayli_sd@meclis.gov.az |
| 41. | Həsənov Malik Əvəz oğlu | 17, 31 (Cəlilabad rayonu) | Ələddin Əliyev +99451 911 5116 71sayli_sd@meclis.gov.az |
| 42. | Həsənov Nurlan Urfan oğlu | 10, 17 (Şəmkir rayonu) | Anar Quliyev +99450 753 4433 103sayli_sd@meclis.gov.az |
| 43. | Həsənova Afət Əbil qızı | 16, 23 (Bakı şəhəri) | Namiq Mustafayev +99450 320 3286 32sayli_sd@meclis.gov.az |
| 44. | Hüseynli Əli Məhəmməd oğlu | 19 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 10, 24 (Yevlax şəhəri) | Bayram Yusifov +99450 262 6131 53sayli_sd@meclis.gov.az |
| 45. | Hüseynov Aydın Nəsir oğlu | 14, 21 (Bakı şəhəri) | Vüsal Yusifov +99450 255 1337 / +99470 200 9878 37sayli_sd@meclis.gov.az |
| 46. | Hüseynova Hicran Kamran qızı | 16 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 07, 27 (Sumqayıt şəhəri) | Elçin Kərimov +99451 460 5334 42sayli_sd@meclis.gov.az |
| 47. | Hüseynova Sevinc Əmirəhməd qızı | 17, 31 (Gədəbəy rayonu) | Elxan İsmayılov +99450 642 0979 104sayli_sd@meclis.gov.az |
| 48. | Xasayeva Səbinə Səməd qızı | 14, 21 (Bakı şəhəri) | Bayram Məmmədov +99455 596 2134 11sayli_sd@meclis.gov.az |
| 49. | İbrahimqızı Məlahət İbrahim qızı | 15, 29 (Bakı şəhəri) | Xətai Məmmədli +99450 255 2142 21sayli_sd@meclis.gov.az |
| 50. | İbrahimli Fəzail Feyruz oğlu | 12, 24 (Masallı rayonu) | Faiq Ağayev +99450 201 5670/ +99450 277 5549 73sayli_sd@meclis.gov.az |
| 51. | İbrahimov Eldar Rza oğlu | 18, 25 (Naxçıvan MR, Naxçıvan şəhəri) 30 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) | Yasin Bayramov +99450 255 1306 4sayli_sd@meclis.gov.az |
| 52. | İsgəndərov Anar Camal oğlu | 27 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 17, 31 (Lənkəran şəhəri) | Valeh Mikayılov +99450 335 2232 78sayli_sd@meclis.gov.az |
| 53. | İskəndərov Vüqar Yapon oğlu | 10, 24 (Şəki şəhəri) | Anar Nağıyev +99450 295 0115 114sayli_sd@meclis.gov.az |
| 54. | İsmayılov İmamverdi İbiş oğlu | 12, 19 (Bakı şəhəri) | Məlahət Əzizova +99450 855 2026 125sayli_sd@meclis.gov.az |
| 55. | İsmayılov Şahin Əmir oğlu | 17, 31 (Beyləqan rayonu) 29 (Bakı şə-həri, Milli Məclisin inzibati binası) | Çingiz Səfərov +99455 444 3366 83sayli_sd@meclis.gov.az |
| 56. | İsmayılzadə Fariz Akif oğlu | 10, 17 (Lənkəran şəhəri) | Mansur Talıbov +99450 369 7872 77sayli_sd@meclis.gov.az |
| 57. | Kərimli Azər Şəmşid oğlu | 10, 24 (Zaqatala rayonu) | Samir Hüseynzadə +99455 830 1363 111sayli_sd@meclis.gov.az |
| 58. | Kərimzadə Pərvin Orxan qızı | 08, 22 (Gəncə şəhəri) | Hicran Məmmədova +99450 692 8685 39sayli_sd@meclis.gov.az |
| 59. | Qafarov Kamaləddin Nəsrəddin oğlu | 21, 28 (Bakı şəhəri) | Nazim Cəfərov +99450 708 6911 9sayli_sd@meclis.gov.az |
| 60. | Qafarov Vasif Vaqif oğlu | 10, 23 (Lerik rayonu) | Pərviz Ağaxanlı +99455 628 6966 80sayli_sd@meclis.gov.az |
| 61. | Qasımlı Mircəlil Xəqani oğlu | 25 (Daşkəsən rayonu) 31 (Yevlax rayonu) | Anar Əliyev +99450 355 9484 123sayli_sd@meclis.gov.az |
| 62. | Qədirli Erkin Toğrul oğlu | 12, 26 (Bakı şəhəri) | Fariz Zöhrabov +99470 918 3110 16sayli_sd@meclis.gov.az |
| 63. | Qəhrəmanov Göydəniz İbrahim oğlu | 21, 30 (Bakı şəhəri) | Rəhim Qədirov +99450 555 8845 17sayli_sd@meclis.gov.az |
| 64. | Quliyev Azay Əjdər oğlu | 21, 30 (Bakı şəhəri) | Asəf Vəliyev +99450 578 5187 8sayli_sd@meclis.gov.az |
| 65. | Quliyev Eldar Allahyar oğlu | 11, 25 (Bakı şəhəri) | Eynulla Rəsulov +99450 222 6899 28sayli_sd@meclis.gov.az |
| 66. | Quliyev Musa İsa oğlu | 26 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 17, 31 (Gəncə şəhəri) | Göyüş Şəfizadə +99450 255 1442 40sayli_sd@meclis.gov.az |
| 67. | Quliyev Ülvi Zahid oğlu | 15, 22 (Bakı şəhəri) | Nurlan Qurbanov +99450 241 5156 15sayli_sd@meclis.gov.az |
| 68. | Qurbanlı Mübariz Qəhrəman oğlu | 15 (Bakı şəhəri) 26 (Samux rayonu) | Elnur Tağıyev +99455 212 8191 101sayli_sd@meclis.gov.az |
| 69. | Qurbanov Eyvaz Daşdəmir oğlu | 08, 22 (Oğuz rayonu) | Səxavət Kərəmov +99470 510 6968 / +99451 774 3782 117sayli_sd@meclis.gov.az |
| 70. | Qurbanov Sadiq Haqverdi oğlu | 27 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 10, 24 (Salyan rayonu) | Elnur Rəhimov +99455 375 6075 64sayli_sd@meclis.gov.az |
| 71. | Mahmudov Rəşad Məmmədqulu oğlu | 10, 24 (Astara rayonu) | Həsənağa Əskərli +99477 542 0770 79sayli_sd@meclis.gov.az |
| 72. | Məhəməliyev Nəsib Məhəmməd oğlu | 10, 24 (Balakən rayonu) | Yusif Mirzəyev +99450 213 6259 110sayli_sd@meclis.gov.az |
| 73. | Məhərrəmov Bəhruz Abdurrəhman oğlu | 11, 18 (Biləsuvar rayonu) | Əfsun Əlizadə +99455 283 1705 / +99470 300 1461 69sayli_sd@meclis.gov.az |
| 74. | Məhərrəmzadə Əlibala Səttar oğlu | 24, 31 (Quba rayonu) | Elnur Xəlilov +99455 308 4950 59sayli_sd@meclis.gov.az |
| 75. | Məmmədli Müşfiq Fazil oğlu | 10 (Xızı rayonu) 24 (Siyəzən rayonu) | Nəsimi Əliyev +99455 887 1314 55sayli_sd@meclis.gov.az |
| 76. | Məmmədov Anar İlyaz oğlu | 17, 18, 24 (Tərtər rayonu) 25 (Goranboy rayonu) | Elçin Cahangirov +99450 324 2791 97sayli_sd@meclis.gov.az anarmammadov@meclis.gov.az |
| 77. | Məmmədov Ceyhun Valeh oğlu | 10 (Qaradağ rayonu) 24 (Abşeron rayonu) | Rəşad Quliyev +99455 847 5621 120sayli_sd@meclis.gov.az |
| 78. | Məmmədov Elman Camal oğlu | 11, 18 (Bakı şəhəri) | Mahir Rzayev +99450 288 6629 / +99470 290 0335 118sayli_sd@meclis.gov.az |
| 79. | Məmmədov Hikmət Baba oğlu | 14, 21 (Bakı şəhəri) | Azər Quliyev +99450 277 1219 19sayli_sd@meclis.gov.az |
| 80. | Məmmədov İlham Kazım oğlu | 14, 20 (Yevlax şəhəri) | Rüstəm Əliyev +99450 277 7417 52sayli_sd@meclis.gov.az |
| 81. | Məmmədov Qaya Məmməd oğlu | 07, 14 (Bakı şəhəri) | Samir Əliyev +99455 377 3102 31sayli_sd@meclis.gov.az |
| 82. | Məmmədov Məşhur Şahbaz oğlu | 10, 24 (Masallı rayonu) | Əli Nağıyev +99450 210 8641 74sayli_sd@meclis.gov.az |
| 83. | Məmmədov Soltan Teymur oğlu | 10, 17 (Bakı şəhəri) | Xətai Salmanov +99450 255 1446 12sayli_sd@meclis.gov.az |
| 84. | Məmmədova Nigar Fikrət qızı | 05, 15 (Abşeron rayonu) | Bikəxanım Qulaməddinova +99450 710 0838 48sayli_sd@meclis.gov.az |
| 85. | Məsimli Əli Əhməd oğlu | 17 (Qax rayonu) 18 (Şəki rayonu) | Vüsal Baxışov +99455 511 2287 113sayli_sd@meclis.gov.az |
| 86. | Mikayılova Sevil Əlirazı qızı | 08, 19 (Xaçmaz rayonu) | İradə Çobanova +99455 730 8606 58sayli_sd@meclis.gov.az |
| 87. | Mirkişili Tahir Famil oğlu | 19, 26 (Sumqayıt şəhəri) | Cavid Quliyev +99451 520 2211 43sayli_sd@meclis.gov.az |
| 88. | Mirzəbəyli Elçin Əbdülrəhim oğlu | 17, 24 (Ağsu rayonu) | İbrahim Bağırlı +99455 268 8484 90sayli_sd@meclis.gov.az |
| 89. | Mirzəzadə Aydın Böyükkişi oğlu | 09, 20 (Mingəçevir şəhəri) | Pərviz Məmmədov +99451 373 2443 54sayli_sd@meclis.gov.az |
| 90. | Mollazadə Asim Nazim oğlu | 07, 21 (Bakı şəhəri) | Samir Quliyev +99455 223 7272 22sayli_sd@meclis.gov.az |
| 91. | Möhbalıyev Səttar Suliddin oğlu | 05, 26 (Naxçıvan MR, Babək rayonu) | Rizvan Hüseynquliyev +99455 744 2537 / +99450 649 7066 3sayli_sd@meclis.gov.az |
| 92. | Muradov Rövşən Şahbaz oğlu | 16, 30 (Bakı və Sumqayıt şəhərləri) | Murad Həsənli +99450 319 9365 124sayli_sd@meclis.gov.az |
| 93. | Musabəyov Rasim Nəsrəddin oğlu | 13, 27 (Bakı şəhəri) | Asif Nəsibov +99450 288 2725 18sayli_sd@meclis.gov.az |
| 94. | Musayev Elşad Nəbi oğlu | 17, 24 (Bakı şəhəri) | Vüqar Qasımov +99455 744 9919 / +99450 669 5919 10sayli_sd@meclis.gov.az |
| 95. | Musayev Elşən Məmmədhənifə oğlu | 09, 24 (Qəbələ rayonu) | Cəfər Əliyev +99455 288 0089 116sayli_sd@meclis.gov.az |
| 96. | Mustafa Fazil Qəzənfər oğlu | 05, 12, 19 (Bakı şəhəri) 28 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) | Əjdər Əliyev +99450 385 3950 26sayli_sd@meclis.gov.az |
| 97. | Nağıyev Arzu Nəsib oğlu | 17 (Tovuz rayonu) 29 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 31 (Gədəbəy rayonu) | Elşad İsmayılov +99450 336 0212 105sayli_sd@meclis.gov.az |
| 98. | Namazov Ramid Zakir oğlu | 12, 26 (Abşeron rayonu) | Bəxtiyar Məmmədov +99455 412 1986 50sayli_sd@meclis.gov.az |
| 99. | Nəbiyev Rizvan Novruz oğlu | 15, 30 (Xırdalan şəhəri) | Rişad Abbasov +99499 766 8868 49sayli_sd@meclis.gov.az |
| 100. | Nəsirov Elman Xudam oğlu | 09, 23 (Cəlilabad rayonu) | Üzeyir Mustafayev +99450 797 4425 72sayli_sd@meclis.gov.az |
| 101. | Novruzov Siyavuş Dünyamalı oğlu | 12, 22 (Naxçıvan MR, Şərur ra-yonu) 21 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) | İbrahim Orucov +99460 460 6061 2sayli_sd@meclis.gov.az |
| 102. | Nurullayev Razi Qulaməli oğlu | 14, 26 (İmişli rayonu) | Vüqar Süleymanov +99450 247 8777 81sayli_sd@meclis.gov.az |
| 103. | Nurullayeva Könül Oruc qızı | 15, 29 (Bakı şəhəri) | Sabit Mahmudov +99450 206 0254 / +99455 276 2375 24sayli_sd@meclis.gov.az |
| 104. | Oruc Zahid Məhərrəm oğlu | 09, 23 (Bakı şəhəri) 22 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) | Ceyhun Fərəcov +99450 288 2093 33sayli_sd@meclis.gov.az |
| 105. | Paşayeva Gülşən Məmmədəli qızı | 24, 31 (Bakı şəhəri) | Ramin Ağacanov +99455 226 2607 13sayli_sd@meclis.gov.az |
| 106. | Paşazadə Cavanşir Hümmət oğlu | 04, 22 (Lənkəran şəhəri) | Sulduz Ağayev +99450 328 2123 76sayli_sd@meclis.gov.az |
| 107. | Rafailov Anatoliy Xaimoviç | 10, 24 (Quba rayonu) | Qəhrəman Qasımov +99450 364 3926 / +99450 744 0526 60sayli_sd@meclis.gov.az |
| 108. | Rəhimzadə Vüqar Gəncəli oğlu | 10 (Naxçıvan MR, Ordubad rayonu) 24 (Naxçıvan MR, Culfa rayonu) | Məhərrəm Əliverdiyev +99470 230 0777 6sayli_sd@meclis.gov.az |
| 109. | Rüstəmxanlı Tənzilə Yolçu qızı | 03, 24 (Neftçala rayonu) | Fərman Hüseynov +99477 550 5131 70sayli_sd@meclis.gov.az |
| 110. | Rzayev Tahir Musa oğlu | 16, 17, 30, 31 (Ağcabədi rayonu) 22 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) | Samir Məmmədov +99451 423 3395 86sayli_sd@meclis.gov.az |
| 111. | Salmanova Səbinə Qədir qızı | 12, 26 (Sumqayıt şəhəri) | Mirmahmud Mahmudov +99470 288 9638 45sayli_sd@meclis.gov.az |
| 112. | Seyidov Səməd İsmayıl oğlu | 14, 28 (Qazax rayonu) 23 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) | Akif Əmirov +99450 791 2111 109sayli_sd@meclis.gov.az |
| 113. | Seyidzadə Şahin Kamil oğlu | 08 (Qobustan və İsmayıllı ra-yonları) 29 (Şamaxı rayonu) | Elman Mikayılov +99450 288 9938 87sayli_sd@meclis.gov.az |
| 114. | Səfərov Nizami Abdulla oğlu | 08, 22 (Tovuz rayonu) | Elbəy Bədirov +99450 869 6767 106sayli_sd@meclis.gov.az |
| 115. | Səmədzadə Ziyad Əliabbas oğlu | 08, 22 (Bakı şəhəri) | Quliyev Azad +99450 216 4311 23sayli_sd@meclis.gov.az |
| 116. | Süleymanlı Mahir Tahir oğlu | 09 (Şabran rayonu) 23 (Xaçmaz rayonu) | Orxan Süleymanov +99455 319 1717 56sayli_sd@meclis.gov.az |
| 117. | Şükürov Zaur Ramiz oğlu | 08 (Sumqayıt şəhəri) 15 (Abşe-ron rayonu) 22 (Bakı şəhəri) | Aslan Talıbov +99455 283 6367 47sayli_sd@meclis.gov.az |
| 118. | Vəliyev Ağalar İsrəfil oğlu | 07, 21 (Xaçmaz rayonu) | İlham Musayev +99450 275 0111 57sayli_sd@meclis.gov.az |
| 119. | Vəliyev Samir Əhməd oğlu | 08, 21 (Bakı şəhəri) | Vüsal Əliyev +99450 277 8842 20sayli_sd@meclis.gov.az |
| 120. | Vəliyeva Mehriban Hidayət qızı | 14, 28 (Sumqayıt şəhəri) | Ramiz Alıyev +99450 518 3434 44sayli_sd@meclis.gov.az |
| 121. | Vəliyeva Pərvanə Bulut qızı | 08, 26 (Bakı şəhəri) | Kamil Hacıyev +99455 811 3330 35sayli_sd@meclis.gov.az |
| 122. | Yıldırım Fatma Vidadi qızı | 14, 22 (Bərdə rayonu) | Fuad Ağayev +99455 420 8040 99sayli_sd@meclis.gov.az |
| 123. | Zabelin Mixail Yuryeviç | 17, 31 (Bakı şəhəri) | Firdovsi Cahangirov +99450 225 2722 34sayli_sd@meclis.gov.az |

Qəbul saatları və yerləri barədə ətraflı məlumat əldə etmək, həmçinin qəbula yazılmaq üçün cədvəldə qeyd olunan telefon nömrələri ilə əlaqə saxlamaq tövsiyə olunur.

# Qərbi Azərbaycanın geosiyasi tədqiqinə dair dəyərli elmi əsər

Qərbi Azərbaycan məsələsi Azərbaycan tarixinin (və taleyinin) ən ağrılı, eyni zamanda uzun illər ərzində müxtəlif məqsədlərlə ən çox saxtalaşdırılmış, siyasi manipulyasiyalara məruz qalmış mövzularındandır. XIX əsrdən başlayaraq Cənubi Qafqazda gedən geosiyasi proseslər, imperiyaların toqquşması və etnik-siyasi mühəndislik siyasəti nəticəsində bölgənin tarixi-demoqrafik tərkibi məqsədyönlü şəkildə dəyişdirilmiş, azərbaycanlı əhali ardıcıl şəkildə terror, soyqırımı və deportasiyalara məruz qalmışdır. Tarixi ədalətin bərpası, bu hadisələrin obyektiv, sənədlərə əsaslanan elmi təhlili və beynəlxalq hüquq müstəvisində dəyərləndirilməsi bu gün milli (və dövlətçilik) baxımından strateji əhəmiyyət daşıyır.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf kursunu uğurla davam etdirərək Azərbaycanı tarixinin ən qüdrətli mərhələsinə yetirən, ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə nail olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəllifliyi ilə regionda yeni tarixi reallıqların yarandığı çağlarda Qərbi Azərbaycan məsələsi də son dərəcə aktualdır. Azərbaycanın və ümumilikdə Cənubi Qafqaz regionunun parlaq gələcəyi, bu torpaqlarda əbədi sülhün, dayanıqlı inkişafın, rifah və xoşbəxtliyin təmin olunması bütün digər amillərlə yanaşı, həm də Qərbi Azərbaycan məsələsinə düzgün münasibətin formalaşmasından, bu məsələnin ədalətli (və strateji planda) həllindən asılıdır. Belə həllərin təqdim edilməsindən ötrü isə bu mövzuda mümkün qədər geniş tədqiqatlar aparılmalı, tarixi həqiqətlər qaranlıq arxiv qəfəslərindəki sənədlərdən gün işığına çıxarılmalı, kitablarda, məqalələrdə, filmlərdə və digər faktoloji materiallarda öz əksini taparaq müasir oxucuda, tamaşaçıda, dinləyicidə aydın, obyektiv qənaətin formalaşdırılmasına xidmət etməlidir.

Ümummilli Lider Heydər Əliyev bu xüsusda demişdir: "Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir".

Tariximizlə, o cümlədən Qərbi Azərbaycan tarixi ilə bağlı əhatəli tədqiqatların aparılması, gerçəklərin dünya ictimaiyyətinə düzgün çatdırılması Prezident İlham Əliyevin də elm adamları qarşısında qoyduğu əsas vəzifələrdəndir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, sarsılmaz iradəsi, ordumuzun gücü sayəsində Azərbaycan xalqı olaraq biz sadəcə torpaqlarımızın azadlığına, ölkəmizin ərazi bütövlüyü və suverenliyinə tam nail olmamışıq, eyni zamanda bir neçə əsrin problemini yoluna qoymuşuq. Böyük imperiyaların hər dəfə zərurət yarandıqda ermənilərdən istifadə edərək regionu qan çanağına döndərib öz maraqlarını təmin etməkdən ötrü bu bölgənin bağrında açdıqları xərçəng kimi dəhşətli bir yaranı birdəfəlik kəsib atmağa, inkişafımızı əngəlləyən, xalqlar arasında düşmənçilik salan əngəli yolumuzdan kənarlaşdırmağa nail olmuşuq. Bunun nə qədər böyük tarixi nailiyyət olduğunu anlamaqdan ötrü aydın mənzərə region həqiqətlərini nəql edən fundamental kitablarda, sanballı əsərlərdədir. Unutmayaq ki, eyni müşkülün gələcəkdə də yaranmaması, qarşısının vaxtında alınması üçün ən təsirli həllər onun düzgün dərkindən, təfsilatlı şəkildə başa düşülməsindən, yayğın bir ifadəni yada salsaq, tarixin ibrət dərslərindən düzgün nəticə çıxarmaqdan başlanır.

Kamal Adıgözəlovun çox böyük tədqiqatçı zəhməti bahasına qələmə aldığı "Qərbi Azərbaycan geosiyasi faktor kimi: ideyanın intibahı" kitabı bu məqsədə xidmət edir. Müəllif Qərbi Azərbaycan məsələsini tarixi, siyasi, demoqrafik, hüquqi və geosiyasi aspektlərdə kompleks şəkildə araşdırır, iki əsrdən artıq bir dövrü əhatə edən faciəli prosesləri ardıcıllıq (və sistemlilik) prinsipi əsasında tədqiq edir. Tədqiqatda yalnız hadisələrin xronologiyası deyil, həm də onların mahiyyətini müəyyən edən struktur amillər – imperiya siyasəti, ideoloji təbliğat, beynəlxalq münasibətlərdəki ikili standartlar, milli kimlik üzərində aparılan manipulyasiyalar və sairə dərin elmi təhlilə cəlb olunur.

Hər bir tədqiqat əsərinin uğurunda onun düzgün strukturlaşdırılmasının, məzmunun ardıcıllıqla çatdırılmasının




çox mühüm payı var. Bu baxımdan Kamal Adıgözəlov da əsərini son dərəcə mükəmməl şəkildə strukturlaşdırmış və əsərin dəqiq sistemliliyi onun öz elmi məqsədinə çatmasına kömək göstərmişdir.

Kitab 8 fəsildən ibarətdir. Birinci fəsil Qərbi Azərbaycanın XIX əsrin sonlarından etibarən demoqrafik ekspansiya və erməni terror siyasətinin əsas hədəfinə çevrilməsini tarixi-siyasi aspektdə araşdırır. Burada "Armenakan", "Hnçak" və "Daşnaksütyun" kimi təşkilatların terror fəaliyyəti, demoqrafik dəyişikliklər və toponimlərin etnosidə məruz qalması faktlar və mənbələr əsasında təhlil edilir. Bu fəsil Qərbi Azərbaycan məsələsini tarix (və siyasət) müstəvisində ayna kimi göstərir, XIX əsrin ikinci yarısı: türk faktorunun necə imperiyaların caynağına keçdiyi, "Armenakan", "Hnçak" və "Daşnaksütyun" kimi terror təşkilatlarının bu fonda törətdikləri cinayətlər əks olunur. Bu fəsildə azərbaycanlılara qarşı həyata keçirilən demoqrafik ekspansiya və toponimlərə qarşı etnosid siyasəti, bölgədə demoqrafik tərkibin dəyişdirilməsi, xalqımıza məxsus tarixi-mədəni irsin saxtalaşdırılması ilə bağlı danılmaz faktlar var.

Fəsil XX əsrin əvvəllərində "Böyük Ermənistan" iddiaları və azərbaycanlılara qarşı soyqırımı siyasəti, 1905-1906-cı illərdə həyata keçirilən qanlı cinayətlər və 1918-1920-ci illərdə kütləvi qırğınların daha da genişləndirilməsi, 1919-cu ilə aid erməni terror vəhşətləri, o cümlədən "Nemezis" əməliyyatı – "Daşnaksütyun" partiyasının soyqırımı və terror siyasətinin tərkib hissəsi kimi istiqamətlərə yönəlməklə dövrün aydın mənzərəsini yaradır. Bu fəsildə azərbaycanlılara qarşı soyqırımı siyasətinin nəticələri də ümumiləşdirilmiş, Qərbi Azərbaycan məsələsinin gündəmə gətirilməsi ilə bağlı elmi müddəalar irəli sürülmüşdür.

İkinci fəsil 1920-1953-cü illəri – sovet dövrünün ilk onilliklərində anti-Azərbaycan siyasətinin yeni mərhələsini əhatə edir. Bu fəsildə sovet totalitarizminin milli siyasət mexanizmləri, repressiyalar və deportasiyalar kontekstində Qərbi Azərbaycan məsələsinə təsiri araşdırılır. Burada müəllif qanlı 1920-ci ili yeni fəlakətlərin başlanğıcı kimi nəzərdən keçirmiş, Qərbi Azərbaycan məsələsini 1920-1936-cı illərin repressiv idarəçiliyi, daha sonra İkinci Dünya müharibəsi fonunda izləmiş, onun elmi müşahidələri anti-Azərbaycan siyasətinin növbəti fəlakət dalğasını – 1948-1953-cü illərin planlı (və kütləvi) deportasiyasını da əhatə etmişdir.

Üçüncü fəsil "Deportasiya və geosiyasət" adlanır və məcburi köçürmələr yalnız etnik təmizləmə deyil, həm də qlobal geosiyasi oyunların tərkib hissəsi kimi təhlil olunur. Burada deportasiyanın anlayışı, onun mənəvi-psixoloji nəticələri və beynəlxalq hüquqi sənədlərlə müqayisəli təhlili diqqət mərkəzindədir.

Bu fəsildə müəllif "deportasiya" anlayışının izahını verir, deportasiyanın "geosiyasi polifoniyası"na, mədəni (və mənəvi-psixoloji) soyqırımına diqqət yönəldir, Qərbi Azərbaycanda azərbaycanlı kadrların soyqırımı mahiyyətli "yenilənməsi" siyasətini diqqətə çatdırır. Burada SSRİ rəhbərliyinin kütləvi və zorakı deportasiyaya "yenidənqurma, aşkarlıq və demokratiya" kontekstində baxışı da öz əksini tapmış, SSRİ rəhbərliyinin azərbaycanlılara münasibətdə nümayiş etdirdiyi milli ayrı-seçkilik siyasi ənənənin davamı kimi dəyərləndirilmiş, 1954-1956-cı illərin deportasiya siyasəti, beynəlxalq birliyin gücsüzlüyü, SSRİ-nin beynəlxalq sənədlərə laqeydliyi barədə siyasi və geosiyasi kontekstdə faktlar əsasında ətraflı söhbət açılmışdır.

Dördüncü fəsil beynəlxalq təşkilatların – Millətlər Liqası və BMT-nin bu məsələyə münasibətini elmi-hüquqi baxımdan öyrənir. Tədqiqat göstərir ki, bu qurumların sənədlərində "sülh" və "insan haqları" kimi anlayışlar çox vaxt geosiyasi maraqlarla toqquşmuş, azərbaycanlıların hüquqları isə beynəlxalq hüququn faktiki laqeydliyinə qurban getmişdir.

Beşinci fəsil Ulu Öndər Heydər Əliyevin Qərbi Azərbaycan məsələsinə yanaşmasının mahiyyətini açır. Bu yanaşma təkcə tarixi ədalətin bərpası məqsədi daşımamış, həm də müasir Azərbaycan dövlətçiliyinin ideya və siyasi sütunlarından birinə çevrilmişdir. Heydər Əliyevin strateji baxışı Qərbi Azərbaycan probleminin milli və beynəlxalq səviyyədə konseptual şəkildə təqdiminə zəmin yaratmışdır.

Bu fəsildə Qərbi Azərbaycan məsələsinə Heydər Əliyevin qətiyyətli siyasi yanaşması fonunda Azərbaycanın ərazi bütövlüyü məsələsi nəzərdən keçirilmiş, Ümummilli Liderin bu məsələyə mühüm töhfələri diqqətə çatdırılmış, tarixi ədalət müstəvisində, akademik baxış bucağında, yeni fəaliyyət istiqamətləri kontekstində və hüquqi aspektdə bu məsələ ilə bağlı elmi təhlillər aparılmışdır.

Altıncı fəsil "Böyük Qayıdışın ayaq səsləri" adlanır və bu anlayışın mahiyyətini – yəni tarixi ədalətin bərpası ilə insan hüquqlarının sintezini təhlil edir. Bu bölmədə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının hüquqi, tarixi və mənəvi əsasları elmi müstəvidə izah olunur.

Yeddinci fəsil Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yeni dövr dövlətçilik siyasəti kontekstində Qərbi Azərbaycan məsələsinə yanaşmasını işıqlandırır. Burada ədalət, sülh, hüquq və beynəlxalq legitimlik prinsiplərinə əsaslanan müasir konseptual baxış təqdim olunur. Fəsildə dövlət başçısının bu istiqamətdə formalaşdırdığı strateji xətt sülhün alternativsizliyi və tarixi ədalətin bərpası ideyası əsasında elmi-siyasi cəhətdən əsaslandırılır.

Səkkizinci fəsil Qərbi Azərbaycan İcmasının formalaşması, onun beynəlxalq platformalarda fəaliyyəti və diplomatik səviyyədə apardığı işlərin sistemli təhlilinə həsr olunmuşdur. Bu fəsil, həmçinin, Qərbi Azərbaycan məsələsinin artıq yalnız tarixi deyil, həm də müasir siyasi və hüquqi reallıq kimi qlobal miqyasda qəbul olunmağa başladığını nümayiş etdirir.

Kitabın əsas dəyəri onun kompleks tədqiqat xarakterində, sənədli və faktoloji bazaya söykənən elmi sistemliyində və ən əsası – Qərbi Azərbaycan məsələsinə milli emosiyadan kənar, obyektiv və elmi baxışla yanaşmasındadır. Əsər həm tarixçilər, siyasi tədqiqatçılar və hüquqşünaslar, həm də beynəlxalq münasibətlər və regional siyasət sahəsində çalışan mütəxəssislər üçün dəyərli mənbə rolunu oynayır.

Bu kitab bir daha göstərir ki, Qərbi Azərbaycan məsələsi təkcə bir xalqın məsələsi (və tarixi faciəsi) deyil, eyni zamanda beynəlxalq hüququn, humanist dəyərlərin və qlobal ədalətin sınağıdır. Tarixi faktların elmi işıqlandırılması, hüquqi və mənəvi reallıqların bərpası isə bu sınaqdan ədalətlə çıxmağın yeganə yoludur.

***Nizami CƏFƏROV,***
***akademik***

# Yurd sevgisi sərhəd tanımır

## Ədalət qərbi azərbaycanlıların da üzünə güləcək

Ermənilərin işğalçılıq siyasəti üzündən əsrlər boyu köçkünlük və qaçqınlıq həyatı yaşayan soydaşlarımız 5 ildir ki, görmədikləri, eşidib-inanmadıqları doğma yurda qayıdış sevincinin ovqatını yaşayırlar. Bu sevincdən bir pay da erməni işğalından azad edilmiş torpaqlarımıza, şəhər və kəndlərimizə, tarixi abidələrimizə, məscid və inanc yerlərimizə, habelə erməni vəhşiliyindən təngə gəlmiş dağlarımıza, dərələrimizə, meşələrimizə, çaylarımıza, bulaqlarımıza düşür. Bizə bu sevinci yaşadan Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevdir.

Əsrə bərabər son 22 ilin zirvəsində təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi və doğma yurda qayıdış dayanır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu Zəfər sayəsində regionda yeni reallıqlar yarandı.

İndi Azərbaycan dünyanı həm də azad edilmiş ərazilərdə apardığı sürətli bərpa və yenidənqurma işləri ilə heyrətləndirir. Qarabağ və Şərqi Zəngəzurda yeni yollar çəkilir, elektrik stansiyalar, strateji infrastruktur obyektləri tikilir, yaşayış məntəqələri salınır və s. Prezident İlham Əliyevin dediyi kimi: "Bu gün Böyük qayıdış proqramı icra edilir. Məktəblər, xəstəxanalar, sənaye müəssisələri, elektrik stansiyaları, su anbarları, evlər tikilir. Artıq 60 mindən çox insan azad edilmiş torpaqlarda yaşayır, çalışır və təhsil alır. Bütün bu tarixi nailiyyətlərlə bağlı bir daha əziz xalqımı təbrik edirəm. Biz bu beş ili qürur hissi ilə yaşamışıq. Əminəm ki, bundan sonra Azərbaycan xalqı qəhrəman, müzəffər xalq kimi, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaqdır".

Məlumdur ki, dövlət başçısının 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq olunmuşdur. Proqram bu gün uğurla həyata keçirilir. Xatırladaq ki, işğaldan azad edilmiş ərazilərə böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş milli prioritetindən biri kimi müəyyən olunmuşdur. İşğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın davamlılığının təmin edilməsi məqsədilə Prezident İlham Əliyev 2025-ci il 30 may tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı" layihəsinin hazırlanmasını tapşırmışdır.

Beş il ərzində Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə yüzlərlə tədbirdə iştirak edib, müxtəlif təyinatlı onlarla layihənin təməlini qoyub, infrastruktur layihəsinin açılışını edib. "İşğaldan azad edilmiş ərazilərin ümumi planı", 8 şəhərin baş planı, 3 şəhərin isə müfəssəl planı təsdiqlənib. Azad olunmuş ərazilərdə çoxsaylı şəhər, qəsəbə və kəndlərin inşası tamamlanmış, əhalinin yaşayışı, iqtisadi fəaliyyətə reinteqrasiyası təmin olunmuşdur. Hazırda 27 yaşayış məntəqəsinin tikintisi, 25 yaşayış məntəqəsinin təmir-bərpası həyata keçirilir. 21 yaşayış məntəqəsinin isə təməli artıq qoyulmuşdur. Bütün bunların hesabına 2025-ci il 31 oktyabr tarixinədək işğaldan azad edilmiş ərazilərin bərpa olunmuş yaşayış məntəqələrinə 20879 nəfərdən ibarət 5256 ailənin qayıdışı təmin edilmişdir. Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində 2152 tələbə təhsil alır. Hazırda dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsil alanlar da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə 62 mindən çox əhali yaşayır və fəaliyyət göstərir. Ümumilikdə ötən dövrdə doğma yurda dönüş sakinlərdən 6,3 mindən çoxunun məşğulluğu təmin edilmiş, 513 sakin özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə bizneslərini qurmuşdur. 258 sakin üçün isə peşə kursları təşkil edilmişdir. Böyük qayıdış bu gün də davam edir. Yeni il ərəfəsində onlarla qarabağlı təqvim yenilənməsini öz doğma yurdlarında qeyd edəcək.



Ötən əsrin müəyyən dövrlərində dədə-baba yurdlarından zorla qovulmuş, deportasiyalara məruz qalmış qərbi azərbaycanlılar da belə bir günü həsrətlə gözləyirlər. Elə 22 il öncə "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" deyən İlham Əliyevin 44 günlük Vətən müharibəsində qazanılmış zəfərdən sonra məqsəd və məramı da qərbi azərbaycanlıların doğulub boya-başa çatdıqları kənd, qəsəbə, şəhərlərə qayıdışını təmin etmək, soydaşlarımızı öz doğma yurdlarına qovuşdurmaqdır. Bunun üçün Qərbi Azərbaycan ziyalıları, ağsaqqal və ağbirçəkləri bir araya gələrək Qərbi Azərbaycan İcması yaradıblar. Prezidentin tapşırığına əsasən, əvvəllər Bakıda Şuşa Şəhər İcra Hakimiyyətinin və "Qarabağa dönüş" İctimai Birliyinin yerləşdiyi bina əsaslı təmirdən sonra icmanın istifadəsinə verilib.

2022-ci il dekabrın 24-də Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının inzibati binasında Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşmüşdür. Səmimi keçən bu görüş zamanı dövlət başçısı nəinki Qərbi Azərbaycandan olan qaçqınların, bütün dünya azərbaycanlılarının ürəyində illərlə qövr edən nisgilə, istəyə toxunaraq demişdir: "Əminəm ki, bu gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar".

Qərbi Azərbaycan İcması fəaliyyətə başladığı ilk dövrdən beynəlxalq arenaya çıxıb. Birləşmiş Millətlər Təşkilatının katibliyi Qərbi Azərbaycan İcmasının beynəlxalq ictimaiyyətə müraciətini BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının, İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yayıb. Müraciətin yayılması indiki Ermənistandan qovulmuş azərbaycanlıların hüquqları məsələsinin beynəlxalq müstəviyə gətirilməsi baxımından böyük uğurdur. Sözügedən müraciətin BMT-nin rəsmi sənədi kimi yayılması ilə 190-dan çox ölkə bu məsələ barədə xəbərdar olub.

Respublikamızın rayon mərkəzlərində və kəndlərində icmanın özəkləri yaradılıb. Bu ilin oktyabr ayında "Özbəkistanda yaşayan Qərbi Azərbaycanlılar" İctimai Birliyi fəaliyyətə başlayıb. Birliyə əslən Qərbi Azərbaycanın Basarkeçər rayonunun Bala Məzrə kəndindən olan İlham Abdullayev rəhbərlik edir. Qonşu və qardaş ölkə olan Türkiyədə isə bu gün təxminən 1,5 milyon nəfərdən çox qərbi azərbaycanlı yaşayır. Qərbi Azərbaycan İcmasının ideya xəttini və fəaliyyətini dəstəkləyən Türkiyənin İzmir şəhərində Qərbi Azərbaycan İcmasının Türkiyə ofisi yaradılıb.

Xatırladaq ki, Azərbaycan xalqı ötən iki əsr ərzində silahlı münaqişələr, işğal, etnik təmizləmə, zorla köçürülmə və soyqırımlarından böyük əziyyət çəkmişdir. Azərbaycanlıların vaxtilə mütləq əksəriyyət təşkil etdiyi indiki Ermənistan ərazisindən tamamilə qovulması 1991-ci ildə başa çatdırılmışdır. Aparılmış etnik təmizləmə nəticəsində indi həmin ərazidə yalnız ermənilər yaşayırlar.

Qərbi Azərbaycan İcması 1988-1991-ci illərdə indiki Ermənistandan qovulmuş 50 mindən çox ailənin yarıdan çoxuna dəymiş ziyanı hesablamışdır. Hazırda bu iş davam edir. Qərbi Azərbaycanın 300-ə yaxın yaşayış məntəqəsindən qovulan qaçqınların hər bir ailə üzrə dəqiq statistikası aparılır. Artıq 130 kəndin siyahısı tamamlanıb. Təşkilat Qərbi Azərbaycanda tarixi və mədəni irsimizin bütün nümunələrinin dəqiq siyahısının hazırlanması üzərində də ciddi iş aparır.

1905-ci ildən intensivləşməyə və açıq forma almağa başlamış soyqırımı siyasəti Azərbaycanın qərb hissəsində xüsusilə amansızcasına həyata keçirilib. Ermənistan ordusu 1918-1920-ci illərdə İrəvan, Zəngəzur, Göyçə, Dərələyəz, Sürməli, Şərur və digər bölgələrdə azərbaycanlılara qarşı kütləvi qırğınlar törədib və etnik təmizləmə aparıb. Yüz minlərlə azərbaycanlının öldürüldüyü soyqırımı aktları nəticəsində İrəvan quberniyasında vaxtilə əhalinin 80 faizindən çoxunu təşkil etmiş azərbaycanlılar artıq 1921-ci ildə həmin ərazidə etnik azlıq idilər. 1948-1952, 1987-1991-ci illərdə aparılmış etnik təmizləmə nəticəsində azərbaycanlılar tamamilə doğma yurdlarından qovulublar. Hazırda Ermənistan adlanan ərazidə bir nəfər də olsun azərbaycanlı qalmayıb və azərbaycanlılara məxsus mədəni irs tamamilə dağıdılıb.

Ermənistan beynəlxalq öhdəliklərinə rəğmən, irqçi siyasətini davam etdirir. Bu ölkə azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtmasına mane olur. İcmanın verdiyi bəyanatlarda dəfələrlə xüsusi vurğulanıb ki, biz Ermənistandan soyqırımı cinayətlərinə görə məsuliyyətini etiraf etməyi və barışıq naminə zəruri addımları atmağı tələb edirik. Ermənistan hökuməti qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli geri qayıtmasına şərait yaratmalı və dağıtdığı Azərbaycan mədəni irsini bərpa etməlidir. Həmçinin Ermənistan azərbaycanlılara qarşı nifrət və ayrı-seçkiliyi aşılayan siyasət və praktikasını dayandırmalı, müharibə cinayətləri və insanlıq əleyhinə cinayət törətmiş şəxsləri ədalət məhkəməsinə təslim etməli, onları şöhrətləndirməyə dərhal son verməli, azərbaycanlılara qarşı cinayətlərdə iştirak etmiş hərbi və siyasi xadimlərə, terrorçulara qoyulmuş abidələri sökməli və aparılmış yer adları dəyişikliklərini ləğv etməlidir.

Qərbi azərbaycanlılar tam əmindirlər ki, Prezident İlham Əliyevin rəhbərliyi və uğurlu siyasəti nəticəsində qarabağlılar kimi, onlar da tezliklə öz dədə-baba yurdlarına qayıdacaqlar.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# İqtisadiyyat və sosial həyat

## Bir millət, iki dövlət və bir-birinə güvənən iqtisadiyyat

**Bu günlərdə Bakıda Azərbaycan və Türkiyə arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclası, ardınca isə 2-ci Azərbaycan-Türkiyə İnvestisiya Forumu keçirilib. Hər iki tədbir Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığının genişləndirilməsi, nəticə etibarilə bu ölkələrin hər birinin iqtisadi inkişafı üçün yeni perspektivlər açır.**




Artıq ikinci dəfədir təşkil olunan Azərbaycan-Türkiyə İnvestisiya Forumu Baş nazir Əli Əsədovun dediyi kimi, hökumət və biznes dairələri arasında açıq və səmərəli dialoqun qurulması, yeni layihələrin müzakirəsi və işgüzar əlaqələrin genişləndirilməsi üçün mühüm platformadır. Bu baxımdan növbəti forumun da biznes cəmiyyətləri üçün faydalı olacağına, yeni konkret birgə investisiya təşəbbüslərinin reallaşdırılmasına təkan verəcəyinə şübhə yoxdur.

İndiyədək investisiyalar sahəsində əldə edilən nəticələr məmnunluq doğurur. Hazırda Türkiyədən Azərbaycana birbaşa investisiyalar 18 milyard dollara, Azərbaycandan Türkiyəyə yatırımlar isə 21 milyard dollara yaxınlaşıb. Ümumilikdə 39 milyard dollarlıq investisiya həcmi formalaşıb. Lakin bu, son hədd deyil.

Hazırda ölkələrimiz arasında illik ticarətin həcmi 8 milyard dollardır. 2000-ci illərin sonunda bu rəqəm 2,4 milyard dollar idi, deməli, qısa müddətdə 3 dəfəyə qədər artıb. Məqsəd isə 15 milyard dollarlıq ticarət hədəfinə çatmaqdır. Hər iki ölkənin iqtisadi potensialı və coğrafi üstünlükləri ticarət dövriyyəsinin həcmini daha yüksək səviyyəyə qaldırmaq üçün real imkanların olduğunu göstərir. Bunun üçün investisiyalar da artırılmalıdır. Çünki investisiyalarla ticarət arasında birbaşa əlaqə var. Qarşılıqlı investisiyalar artdıqca ticarət əlaqələri də daha möhkəm və dayanıqlı olur.

Hazırda ölkəmizdə 4600-dən çox Türkiyə şirkəti fəaliyyət göstərir. Eyni zamanda Türkiyədə 3000 Azərbaycan şirkəti müxtəlif sahələrdə iş qurub.

Azərbaycan-Türkiyə iqtisadi əlaqələrində enerji əməkdaşlığının xüsusu yeri var. Ölkələrimizin birgə reallaşdırdıqları meqa enerji layihələri böyük regional və qlobal əhəmiyyət daşıyır. Belə ki, Azərbaycan neftinin və qazının dünyaya yolu Türkiyədən keçir. 2006-cı ildə tam sistem kimi istifadəyə verilən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəmərinin ən böyük hissəsi Türkiyədədir və bu xətlə daşınan neft dünya bazarlarına Ceyhan limanından yola salınır. BTC-dən az sonra fəaliyyətə başlayan Bakı-Tbilisi-Ərzurum kəməri isə Azərbaycanı dünyaya həm də qaz ixracatçısı kimi tanıdıb. 2018-ci ildə istifadəyə verilən TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) Azərbaycan qazını TAP-a (Trans-Adriatik Qaz Boru Kəməri) ötürür. TAP isə 5 ildir qazı Avropaya nəql edir. TANAP "Cənub qaz dəhlizi"nin ayrılmaz və ən böyük hissəsidir. Xatırladaq ki, "Cənub qaz dəhlizi" strateji önəm daşıyan bir layihədir və onun qaz ixrac etdiyi ölkələrin sayı son aylarda 14-ə çatıb. Bunlardan 10-u Avropa ölkəsidir.

İki ölkənin birgə səyləri ilə artıq Suriyaya da qaz nəqlinə başlanıb. Bu, 14-cü, hələlik sonuncu ölkədir. İlk dəfədir Türkiyə ərazisindən keçməklə Azərbaycan qazı Yaxın Şərq regionuna çatdırılır.

Bu ilin avqust ayında Suriyaya qaz axını başlayanda Türkiyənin Uludağ Universitetinin professoru, iqtisadçı, türk dünyası üzrə mütəxəssis Mehmet Yüce bu mühüm hadisəni belə dəyərləndirmişdi: "Kilis-Hələb təbii qaz boru xəttinin istifadəyə verilməsi regional baxımdan olduqca mühüm və çoxşaxəli nəticələr doğuracaq strateji hadisə kimi qiymətləndirilə bilər. Bu boru xətti Suriyanın təcili enerji tələbatını qarşılamaqla yanaşı, Türkiyənin regional enerji diplomatiyasında və Azərbaycanın enerji ixracında yeni bir səhifə açan strateji layihədir. Burada söhbət təkcə enerji nəqlindən getmir, bu xətt bölgədə sabitliyin və iqtisadi dirçəlişin dəstəklənməsi baxımından böyük əhəmiyyət daşıyır. Həyata keçirilən layihə yalnız enerji transferi deyil, həm də Türkiyənin regional liderlik iddialarını gücləndirən, Suriyanın yenidənqurma prosesinə mühüm töhfə verən və Azərbaycanın enerji diplomatiyasını genişləndirən çoxşaxəli strateji addımdır. Bu layihə regional enerji təhlükəsizliyinin təmin edilməsi, humanitar vəziyyətin yaxşılaşdırılması və uzunmüddətli regional sabitliyin yaradılması baxımından mühüm potensiala malikdir. Yəni bu xətt yalnız enerji layihəsi deyil, eyni zamanda regional geosiyasi balans, dövlətlərarası münasibətlər və enerji təhlükəsizliyi kontekstində dərindən təhlil olunmalı strateji addımdır".

Sözügedən tədbirlərdə təməli iki il əvvəl Naxçıvanda qoyulmuş İğdır-Naxçıvan qaz kəmərinin əhəmiyyəti də vurğulandı. Bu il kəmərin Ankarada videobağlantı formatında açılış mərasimi keçirildi. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı hadisənin önəminə bir daha diqqət çəkdi.

İğdır-Naxçıvan qaz boru kəməri layihəsi Naxçıvanın qaz təchizatının şaxələndirilməsinə xidmət edir. Bununla yanaşı, layihə həm Naxçıvanın, həm də İğdır əhalisinin rifahına dəstək göstərəcək. Kəmərin maksimum illik ötürmə gücü 730 milyon kubmetrdir. Gələcəkdə onun genişləndirilməsi imkanları da var.

Prezident İlham Əliyevin 10 fevral 2022-ci il tarixli sərəncamına əsasən, İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisi üçün dövlət büdcəsindən vəsait ayrılıb. Layihə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın prioritet layihələri sırasında yer alıb.

Boru kəmərinin İğdırdan Sədərək rayonuna qədər uzunluğu 97,5 kilometr təşkil edir. Kəmərin Azərbaycan hissəsinin uzunluğu 17,5 kilometr, Türkiyə hissəsinin uzunluğu isə 80 kilometrdir. Boru kəməri gündə 2 milyon kubmetr qaz ötürmək qabiliyyətinə malikdir. Bununla da Naxçıvanın qaza tələbatı tamamilə ödəniləcək.

Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun polad magistralları isə həm iqtisadi əməkdaşlığı, həm də dostluq və qardaşlığı daha da möhkəmləndirib. Orta dəhlizin mühüm halqası olan BTQ-nin daşıma qabiliyyəti ötən il Azərbaycanın sərmayələri hesabına 1 milyon tondan 5 milyon tona qədər artıb və bu da son hədd deyil.

Türkiyənin ticarət nazirinin müavini Mustafa Tuzcu bildirib ki, bundan əlavə, Zəngəzur dəhlizi də (TRIPP) Orta dəhliz xəttinin effektivliyini yalnız mövcud bağlantılarla deyil, daha güclü və tamamlayıcı xüsusiyyətlərlə artırır: "Orta dəhlizin təbii və tamamlayıcı bir uzantısı olan Zəngəzur dəhlizi bütün bölgə üçün böyük əhəmiyyət daşıyır. Bu dəhliz yalnız Azərbaycan və Türkiyə arasında deyil, həm də Asiya ilə Avropa arasında strateji əhəmiyyət kəsb edir".

Azərbaycan və Türkiyə arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclası və 2-ci Azərbaycan-Türkiyə İnvestisiya Forumu göstərdi ki, ölkələrimiz arasında hər sahədə olduğu kimi, iqtisadi sahədə də əməkdaşlıq uğurla davam edir və bu istiqamətdə potensial böyükdür.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Dördüncü "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüşlər keçirilib

**İqtisadiyyat naziri dördüncü "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüşlər keçirib, gənclərin fərdi və peşəkar inkişaf sahəsində əldə etdikləri nəticələr müzakirə edilib.**



İqtisadiyyat naziri Mikayıl Cabbarov dördüncü "Yüksəliş" müsabiqəsinin qalibləri Toğrul Yaqublu və Təbriz Əmmayevlə görüşlər keçirib.

Görüşlərdə qaliblərin Mentorluq proqramı çərçivəsində fərdi və peşəkar inkişaf sahəsində əldə etdikləri səriştələr, müsabiqənin karyera irəliləyişi baxımından yaratdığı üstünlüklər və yeni imkanlar müzakirə edilib.

"Yüksəliş" müsabiqəsinin qalibləri proqram müddətində keçirilən görüşlərin və iqtisadiyyatın müxtəlif istiqamətlərində aparılan müzakirələrin onların peşəkar inkişafında mühüm rol oynadığını qeyd ediblər. Görüşlərdə gəncləri maraqlandıran suallar cavablandırılıb, qazandıqları yeni bilik və təcrübələr barədə fikir mübadiləsi aparılıb.

## Beynəlxalq Elektrotexniki Komissiyada Azərbaycan assosiativ üzv qismində təmsil olunacaq

**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) vasitəsilə ölkəmiz 2026-cı il 1 yanvar tarixindən Beynəlxalq Elektrotexniki Komissiyada (IEC) assosiativ üzv qismində təmsil olunacaq.**

Dövlət Agentliyinin yaydığı məlumata görə, IEC-ə üzvlüyün əsas məqsədi elektrik, elektron və əlaqəli texnologiyalar üzrə beynəlxalq standartlara inteqrasiyaların sürətləndirilməsi və beynəlxalq standartlaşdırma fəaliyyətində ölkəmizin rolunun artırılmasından ibarətdir.

Assosiativ üzvlük statusu həm IEC-in standart bazasından yararlanmağa, həm də bu təşkilatın elektrik, elektronika, sənaye, informasiya-kommunikasiya texnologiyaları, robototexnika və nanotexnologiyalar sahələrinin standartlaşdırma üzrə texniki komitələrində iştirak imkanı qazandıracaq. Bu, ölkəmizdə həmin sahələrin inkişafını stimullaşdıracaq, eləcə də yeni texnologiyaların mənimsənilməsinə, beynəlxalq və innovativ yanaşmaların tətbiqinə şərait yaradacaq.

Qeyd edək ki, cari ilin oktyabr ayında AZSTAND-ın IEC-ə assosiativ üzv qismində qəbulu tələblərinin təmin edilməsi məqsədilə Milli Elektrotexniki Komitə təsis edilib.

### 2026-cı il "Şəhərsalma və Memarlıq İli"dir

# Azərbaycan memarlığı: dünənin və bu günün sabaha daşınan daş yaddaşı

**Azərbaycan memarlığı xalqın minillik tarixinin, mədəni dəyərlərinin və həyat tərzinin daş yaddaşıdır. Qədim dövrlərdən bu günə qədər formalaşan memarlıq nümunələri ölkənin coğrafi mövqeyi, iqlim şəraiti, din inancları və tarixi hadisələri ilə sıx bağlı olub. Qobustan qayaüstü rəsmlərindən başlayaraq Orta əsr qalaları, türbələr, eləcə də müasir şəhərsalma nümunələri Azərbaycan memarlığının zənginliyini və inkişaf mərhələlərini aydın nümayiş etdirir.**

Təbii ki, zəngin memarlıq irsi sadəcə tariximizi əks etdirmir, həm də müasir dövrdə onun qorunması və inkişafı üçün dövlət səviyyəsində atılan addımların vacibliyini göstərir. Bu baxımdan Prezident İlham Əliyevin sərəncamı ilə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi memarlığın inkişafına verilən strateji əhəmiyyətin bariz göstəricisidir. Sərəncamı ölkədə tarixi-memarlıq irsinin qorunması, müasir şəhərsalma prinsiplərinin tətbiqi və davamlı urbanizasiya proseslərinin gücləndirilməsi baxımından mühüm addım kimi qiymətləndirmək doğru olar.

Azərbaycan memarlığının tarixi haqqında söz açmaq, əslində, xalqın yaddaşına nəzər salmaq deməkdir. Çünki hər daş, hər divar, hər naxış keçmişin izlərini bu günə daşıyır. Qədim yaşayış məskənləri, möhtəşəm qalalar, müqəddəs ibadətgahlar insanların məkan qurmaq və öz dünyagörüşünü ifadə etmək istəyindən doğub. Zaman keçdikcə memarlıq ənənələri zənginləşib, müxtəlif dövrlərin siyasi, dini və sosial xüsusiyyətlərini özündə cəmləşdirərək günümüzə qədər gəlib çatıb. Bu gün Azərbaycan şəhərlərində qədim abidələrlə müasir memarlıq layihələrinin yanaşı mövcudluğu tarixlə müasirliyin vəhdətini yaradır. Məhz bu vəhdət Azərbaycan memarlığını keçmişin yadigarı və gələcəyə yönəlmiş canlı bir sənət sahəsi kimi təqdim edir. Məsələn, Qobustan qayaüstü rəsmləri ilk məkan anlayışının və estetik düşüncənin formalaşdığını göstərən nümunələrdəndir. Şirvanşahlar Sarayı Kompleksi, Qız qalası, Atəşgah, Möminə Xatun türbəsi, Gəncə və Naxçıvan memarlıq məktəblərinin nümunələri Azərbaycan memarlığının yüksək səviyyəsindən xəbər verir. Bu abidələrdə daş və kərpicdən ustalıqla istifadə, həndəsi ornamentlər və simvolik elementlər diqqəti cəlb edir.

Təəssüf ki, bir çox tarixi abidə baxımsızlıq, zamanın təsiri, insan amili səbəbindən sıradan çıxıb, bəziləri isə işğallar nəticəsində tamamilə dağılıb. Ona görə də Orta əsr memarlıq nümunələrinin qorunması, öz qədim gözəlliyini itirməmək üçün ciddi müdafiə və bərpa tədbirlərinə ehtiyac duyulur. Bir çox bölgədə tarixi-memarlıq abidələrinin uzun illər diqqətdən kənarda qalması onların estetik və mədəni dəyərinin itirilməsinə səbəb olub. Nə yaxşı ki, dövlət və ictimaiyyət nümayəndələrinin səyi ilə bir sıra abidələr xilas edilərək, əvvəlki simasına qaytarılmaqda bugünkü nəslə çatdırılıb.

Azərbaycan xalqının keçmişi olan qiymətli daş xəzinələr xilas edilib. 1976-cı ildə 850 illik yubileyi təntənə ilə qeyd edilən böyük Azərbaycan memarı Əcəmi Naxçıvaninin Yusif ibn Küseyr və Möminə Xatun türbələrinin xilas olunduğu kimi... Respublikanın digər bölgələrində də tarixi abidələrin qorunması diqqətdən kənarda qalmayıb. Bərdə türbəsi, Mərəzədəki Diribaba türbəsi, Həzrə və Kələxana türbələri öz ilkin gözəlliyini geri qaytarıb. Bakı, Şuşa, Şəki, Şamaxı və Ordubad kimi şəhərlərdə isə memarlıq abidələrinin planlı və intensiv bərpası davam edir. Xüsusən Bakıdakı Orta əsr daş memarlığının incisi sayılan Şirvanşahlar Sarayı ansamblının bərpası hər kəsi heyran edir. Son illər Gəncədəki qədim ictimai və dini tikililər də yenilənərək həm tədqiqatçılar, həm də sakinlər üçün canlı tarix nümunəsinə çevrilib. Bala Bəhmənli, Qızılhacılı, Ozan və Zərrabı məscidləri, eləcə də karvansaralar əsaslı bərpa edilərək xalqın istifadəsinə verilib.



Tarixi irsimizin qorunması və bərpası ilə paralel Azərbaycan memarlığı müasir dövrdə də inkişaf yolunu davam etdirir, şəhərsalma və dizayn sahəsində öz sözünü deyir, müasir texnologiyalar və estetik prinsiplərlə zənginləşərək gələcəyə doğru yol alır. Bu da onu göstərir ki, müasir Azərbaycan memarlığı zamanın ruhunu əks etdirməyi bacarır. İndi inşa olunan müasir tikililər estetik düşüncənin, texnoloji yeniliklərin və yaradıcı yanaşmanın nəticəsidir. Bakının simvoluna çevrilmiş Heydər Əliyev Mərkəzi bu yanaşmanın ən parlaq nümunələrindən biridir. Bina axıcı forması və sərhədsiz məkan anlayışı ilə klassik memarlıq qaydalarından kənara çıxaraq, yeni estetik düşüncə təqdim edir. Alov Qüllələri isə həm müasir texnologiyanı, həm də Azərbaycan tarixində mühüm yer tutan od rəmzini özündə birləşdirərək şəhərin müasir siluetini formalaşdırır. Hər iki abidə Azərbaycan memarlığının gələcəyə açıq və yenilikçi olduğunu göstərir. Müstəqilliyin "övlad"ları olan Bakı Olimpiya Stadionu, Bakı Kristal Zalı, Beynəlxalq Muğam Mərkəzi, Heydər Əliyev Mərkəzi, Xalça muzeyi, Dövlət Neft Fondunun binası da paytaxtın müasir simasını formalaşdırır və Azərbaycanın beynəlxalq memarlıq məkanında tanınmasına qapı açır.

Regionlarda həyata keçirilən abadlıq və yenidənqurma işləri, azad olunmuş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası memarlığın həm estetik, həm də sosial və funksional əhəmiyyətini ön plana çıxarır. Parklar, mədəniyyət mərkəzləri, yenilənmiş meydanlar və yaşayış kompleksləri insanların gündəlik həyat keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Bütün bu deyilənlərin fonunda qeyd edə bilərik ki, Azərbaycan memarlığı keçmişini unutmadan gələcəyi qarşılamağı və hətta qabaqlamağı bacarır. Qədim abidələrin qorunması və bərpası isə göstərir ki, biz keçmişimizi unutmur, onu gələcək nəsillərə çatdırırıq. Başqa sözlə, tarixi ilə fəxr edən, gələcəyə inamla addımlayan Azərbaycan memarlığı keçmişi, bu günü və gələcəyi birləşdirən vəhdəti uğurla qoruyur.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Xocalı, Xocavənd və Zəngilan rayonlarının kəndlərinə növbəti köç karvanları yola salınıb





Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış prosesi davam etdirilir.

AZƏRTAC xəbər verir ki, Xocalı rayonunun Şuşakənd və Xanyurdu kəndlərinə, Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinə və Zəngilan rayonunun Məmmədbəyli kəndinə köç edənlər respublikanın müxtəlif bölgələrində, əsasən yataqxanalarda, sanatoriyalarda və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Bu mərhələdə Xocalı rayonunun Şuşakənd kəndinə 20 ailə - 83 nəfər, Xanyurdu kəndinə 12 ailə - 50 nəfər, Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinə 37 ailə - 169 nəfər, Zəngilan rayonunun Məmmədbəyli kəndinə isə 29 ailə - 147 nəfər köçürülüb.

Doğma yurdlarına qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə təşəkkür edib, bu yolda canlarından keçən şəhidlərimizə Allahdan rəhmət diləyiblər.

# Xankəndi şəhərində ilk dəfə "Kənddən şəhərə" Yeni il yarmarkası təşkil olunacaq

Azad olunmuş ərazilərdə ilk dəfə "Kənddən şəhərə" Yeni il yarmarkası təşkil olunacaq. Yarmarkanın dekabrın 27-29-da Xankəndi şəhərinin mərkəzində keçirilməsi nəzərdə tutulur. Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Aqrar Tədarük və Təchizat" ASC-nin təşkilatçılığı ilə baş tutacaq yarmarkada müxtəlif regionlardan gəlmiş fermerlər öz təsərrüfatlarında yetişdirdikləri məhsulları satışa çıxaracaqlar.




Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, Xankəndi şəhərində "Kənddən şəhərə" Yeni il yarmarkası təşkil olunmasında məqsəd Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində sakinlərin qida və kənd təsərrüfatı məhsullarına olan ehtiyacını daha dolğun şəkildə ödəməkdir. Xankəndi sakinləri 3 gün ərzində yarmarkaya baş çəkərək münasib qiymətlərə kənd təsərrüfatı məhsulları ala biləcəklər.

Qeyd edək ki, bu il "Aqrar Tədarük və Təchizat" ASC-nin təşkilatçılığı ilə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində paytaxtın 8 fərqli nöqtəsində və Sumqayıt şəhərində "Kənddən şəhərə" Yeni il yarmarkaları fəaliyyət göstərir. Metronun "Gənclik" stansiyasının çıxışındakı ərazidə fəaliyyət göstərən yarmarka dekabrın 20-də açılıb, "Əhmədli", "Xalqlar dostluğu", "Neftçilər", "Qara Qarayev", "Nəriman Nərimanov", "Elmlər Akademiyası" və "Azadlıq" stansiyalarının çıxışlarındakı yarmarkalar və Sumqayıt şəhərində keçmiş Şərq bazarı yaxınlığındakı yarmarka artıq fəaliyyətə başlayıb. Metronun "Gənclik" stansiyası yaxınlığında yerləşən yarmarka dekabrın 30-dək, digər yarmarkalar isə dekabrın 29-dək xidmət göstərəcək.

# Qeyri-neft sənaye məhsulları istehsalının həcmi 5 faizə yaxın artıb



Cari ilin yanvar-noyabr aylarında Azərbaycanda sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 57,5 milyard manatlıq sənaye məhsulları istehsal edilib.

Həmin dövrdə qeyri-neft-qaz sektorunda sənaye məhsulları istehsalı 5 faizə yaxın artıb. Bu, Prezident İlham Əliyev tərəfindən qeyri-neft-qaz sektoru istiqamətində aparılan islahatların real nəticəsidir. Başqa sözlə, həmin sektorda sahibkarlığın inkişafına yaradılan münbit şərait səmərəsiz qalmayıb.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 11 ayda ümumilikdə neft-qaz sektoru üzrə məhsul istehsalı 2,1 faiz azalıb, qeyri-neft-qaz sektorunda isə 4,8 faiz artıb.

Sənaye məhsullarının 60,6 faizi mədənçıxarma, 33 faizi emal, 5,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub. Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 4,7 faiz azalsa da, əmtəəlik qaz hasilatı 1,1 faiz artıb.

Emal sektorunda əczaçılıq məhsullarının istehsalı 94,9, ağacın emalı və ağacdan məmulatların istehsalı 60,9, kompüter, elektron və optik məhsulların istehsalı 49,9, toxuculuq sənayesi məhsullarının istehsalı 27,1, rezin və plastik kütlə məmulatlarının istehsalı 13,7, tütün məmulatlarının istehsalı 13,2, qida məhsullarının istehsalı 9,8, neft məhsullarının istehsalı 9,6, kimya sənayesi məhsullarının istehsalı 8,7 faiz artıb.

Artım həmçinin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, eləcə də su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında qeydə alınıb, müvafiq olaraq 0,9 və 3,3 faiz.

Dövlət tərəfindən özəl sektora göstərilən dəstək sayəsində qeyri-neft sənayesi üzrə məhsul istehsalında aparıcı mövqe sahibkarlara məxsusdur. Belə ki, cari ilin 11 ayında sənaye məhsulları istehsalının 70 faizdən çoxu özəl sektorun payına düşüb. İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev bununla bağlı demişdir: "Xüsusilə sənayenin inkişafı ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması baxımından prioritetdir". Elnur Əliyev həmçinin vurğulamışdır ki, ölkəmizdə inklüziv sahibkarlığın inkişafı, qadınların biznes təşəbbüslərinin reallaşdırılmasına şərait yaradılıb. Bunun nəticəsidir ki, cari ilin 9 ayında qadın sahibkarlarımızın sayı artaraq 339 minə yaxınlaşıb.

Azərbaycanda qeyri-neft-qaz sənayesinin inkişafında iqtisadi zonalar xüsusi çəkiyə malikdir. Həm istehsal, həm də ixracda artam statistikanın çoxu bu sahənin payına düşür. Təkcə cari ilin yanvar-sentyabr ayları sənaye zonalarında istehsal olunan məhsulların ixracında 17 faiz artım qeydə alınıb.

Sahibkarlığa verilən dövlət dəstəyi sənaye zonalarına investisiya qoyuluşunu da artırıb. Bu ilin 9 ayında ölkə üzrə sənaye zonalarına yatırılan ümumi investisiyanın həcmi 8 milyard manatdan çox olub. Həmin dövrdə qeyri-neft-qaz məhsullarının ixracının təqribən 30 faizi sənaye zonalarının payına düşüb.

Elnur Əliyev qeyd edib ki, rəqəmsal iqtisadiyyatın dövlət tərəfindən prioritetləşdirilməsi şəraitində özəl sektorun yeni tələblərə uyğunlaşması vacib şərtdir: "Bu istiqamətdə İqtisadiyyat Nazirliyinin tabeliyində 4SİM tərəfindən sahibkarlıq subyektlərinin rəqəmsal transformasiyasına dəstək göstərilir, "Sənaye 4.0" proqramı icra olunur. Bu stimullaşdırıcı mexanizmlərlə yanaşı, KOBİA tərəfindən sahibkarlıq subyektlərinə bazarlara çıxış, bilik və bacarıqların artırılması, qrant proqramları, innovativ sahibkarlığın dəstəklənməsi, klasterləşmə istiqamətlərində də dəstək göstərilir".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Azərbaycan Dövlət Aqrar Universiteti bu ili də uğurla başa vurur

2025-ci il başa çatır. Yola saldığımız bu il də Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU) üçün yaddaqalan oldu. Aqrar sektora xidmət edən bu ali təhsil ocağı nüfuzlu ali təhsil müəssisəsi kimi ölkənin kənd təsərrüfatı üçün ixtisaslı kadrlar hazırlamaq kimi bir missiyanı bu il də uğurla həyata keçirdi.

Hazırda universitetdə 7738 tələbə oxuyur. Onların sırasında 9 ölkədən olan 328 əcnəbi tələbə 7 fakültədə 31 ixtisas üzrə təhsil alır. Universitetdə ingilis dilində aqronomluq, bağçılıq və tərəvəzçilik, baytarlıq təbabəti, torpaqşünaslıq və aqrokimya, mühasibat və iqtisadiyyat, 11 ixtisas üzrə rus dilində - aqronomluq, baytarlıq təbabəti, torpaqşünaslıq və aqrokimya, şərabçılıq, zoomühəndislik, əczaçılıq, informasiya texnologiyaları, aqromühəndislik, marketinq, iqtisadiyyat və biznesin idarə edilməsi fakültələri fəaliyyət göstərir.

ADAU dünyanın 20-dən çox ölkəsində yerləşən ali təhsil müəssisələri ilə əlaqələr qurmuş, tələbə-müəllim mübadiləsini genişləndirmişdir. Universitet Türkiyənin Ege Universiteti ilə uzun müddətdir ki, beynəlxalq ikili diplom proqramı həyata keçirərək 10-larla tələbə və müəllim mübadiləsi həyata keçirmişdir.

Son illər universitetin bazası genişləndirilmiş, yeni İnnovasiyalar Mərkəzi yaradılmışdır. Nəticə etibarilə İnnovasiya Mərkəzi Global Innovation Institute (GINI) tərəfindən Akkreditə Olunmuş Biznes İnkubator (ABI) statusu alaraq rəsmi beynəlxalq sertifikatla təltif edilmişdir.

Beynəlxalq rəqabət qabiliyyətinin artırılması məqsədilə görülən işlər müxtəlif reytinq qiymətləndirmə sistemlərində yer almışdır. Dünya universitetlərinin beynəlxalq reytinq dərəcələrini müəyyən edən digər bir nüfuzlu qurum Times Higher Education "Impact Rankings" sistemidir ki, Azərbaycan Dövlət Aqrar Universiteti ilk dəfə müvafiq reytinq qiymətləndirilməsində yer alaraq region universitetləri arasında və Dayanıqlı İnkişaf Məqsədləri üzrə isə Azərbaycan universitetləri arasında ilk sırada qərarlaşmışdır. Universitet "UI GreenMetric 2025" reytinqində infrastruktur və maddi texniki baza üzrə 1000 xal yığaraq ölkə birincisi olmuşdur.

Sosial və ictimai nüfuzun artırılması məqsədilə universitetin ADAU TV internet televiziyası Türkiyə Respublikası Mədəniyyət və Turizm Nazirliyinin nəzdində olan Türk İşbirliği ve Koordinasyon Ajansı Başkanlığı (TİKA) tərəfindən əsaslı şəkildə yenidən qurulmuşdur.

Bu il ADAU-da bir sıra beynəlxalq və yerli tədbirlər, konfranslar, forumlar keçirilmişdir. Türkiyənin Çukurova Universitetinin birgə təşkilatçılığı ilə Gəncədə Heydər Əliyev Mərkəzində V Beynəlxalq Kənd Təsərrüfatı və Qida Texnologiyalarının Tədqiqi Konfransı keçirilmiş, konfransın üçüncü günü iştirakçılar üçün Şuşa-Xankəndi turu təşkil olunmuşdur. Bundan başqa, Azərbaycan İnnovasiya Mərkəzində Azərbaycan Milli İnternet Mükafatının 20-ci təqdimat mərasimi keçirilmişdir. Ölkədə rəqəmsal inkişafın təşviqi, innovativ yanaşmaların dəstəklənməsi və internet resurslarının keyfiyyətinin artırılması məqsədi daşıyan müsabiqədə ən yaxşı milli vebsaytlar, sosial media səhifələri və mobil tətbiqlər mükafatlandırılmışdır. Təqdimat mərasimində əldə olunan nəticələrə əsasən,



Azərbaycan Dövlət Aqrar Universiteti müsabiqənin qalibləri sırasında yer almış, universitetin rəsmi adau.edu.az internet saytı "Virtual Münsiflər Heyətinin Seçimi" nominasiyası üzrə qalib elan olunmuşdur. Bununla yanaşı, sözügedən sayt "Elm, Təhsil və Rəqəmsal savadlılıq" nominasiyası üzrə də yüksək qiymətləndirilmişdir.

Məlum olduğu kimi, bu il Milli Məclisdə Aqrar siyasət komitəsinin təşkilatçılığı ilə "İxtisaslı kadr hazırlığı aqrar sektorun inkişafının əsasıdır" mövzusunda ictimai dinləmələr keçirilmişdir. Tədbirdə Milli Məclisin deputatları, Kənd Təsərrüfatı, Elm və Təhsil nazirliklərinin, Milli Məclis Aparatının, Azərbaycan Dövlət Aqrar Universitetinin nümayəndələri, kənd təsərrüfatı sahəsində elmi-tədqiqat institutlarının rəhbərləri, Qida Təhlükəsizliyi Agentliyinin, Gəncə Dövlət Aqrar Kollecinin və digər əlaqədar qurumların əməkdaşları iştirak etmişlər. İctimai dinləmələrdə çıxış edən ADAU-nun rektoru Zəfər Qurbanov universitetin ölkəmizdə kənd təsərrüfatı mütəxəssislərinin hazırlanmasındakı rolu, maddi-texniki bazası, bu təhsil ocağının inkişaf strategiyası, təhsildə keyfiyyətin yüksəldilməsi, tələbələrin praktiki bacarıqlarının inkişaf etdirilməsi sahələrində görülən işlər, mütərəqqi modellərin tətbiqi, ADAU və Türkiyənin EGE Universiteti arasında həyata keçirilən ikili diplom proqramının uğurları barədə geniş məlumat vermişdir.

Bu il İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) Azərbaycan Dövlət Aqrar Universiteti ilə tərəfdaşlığı çərçivəsində ADAU-nun tərkibində Azərbaycan İnnovasiya Mərkəzi fəaliyyətə başlamışdır. Mərkəzin əsas məqsədi Gəncə və ətraf bölgələrdən innovatorları bir araya gətirərək startap quruculuğu, startapların bazarlara və maliyyələşmə mexanizmlərinə əlçatanlığı və insan kapitalının inkişafına töhfə verməkdir.

Bundan başqa, Gürcüstanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstanın Təhsil, Elm və Gənclər naziri Givi Mikanadze ilə işgüzar görüşlər keçirmişdir. Görüşdə ölkələrimizdə aqrar sahədə kadr hazırlığı aparan universitetlər arasında tələbə və akademik heyətin mübadiləsi proqramlarının həyata keçirilməsinin, gənc mütəxəssislərin ikili diplom, təlim və təcrübə proqramlarına cəlb edilməsinin, elmi-tədqiqat institutları arasında əməkdaşlığın gücləndirilməsinin vacibliyi vurğulanmışdır. Görüşdə Azərbaycan Dövlət Aqrar Universitetinin və Gürcüstanın ali təhsil müəssisəsi ilə təhsil sahəsində qarşılıqlı əməkdaşlığı dərinləşdirən birgə elmi-praktik konfranslar keçirmək, baytarlıq və digər istiqamətlər üzrə kadr hazırlığını təkmilləşdirmək, eləcə də tələbə və müəllim mübadiləsinin aparılmasının vacibliyi barədə işgüzar söhbətlər aparılmışdır. Gürcüstanda yaşayan soydaşlarımızın aqrar təhsilə cəlb olunması üçün stimullaşdırıcı proqramların hazırlanmasının vacibliyi qeyd edilmişdir. Görüşdə



Azərbaycan Dövlət Aqrar Universiteti ilə Gürcüstanın ali təhsil ocaqları arasında daha çevik əməkdaşlıq münasibətlərinin qurulması məqsədilə qısa zamanda universitetlərin rəhbər heyətlərinin qarşılıqlı səfərlərinin həyata keçirilməsi barədə də razılıq əldə olunmuşdur.

Bu il "National H-index Ranking" platforması tərəfindən 2025-ci ilin IV rübü üzrə Azərbaycanda fəaliyyət göstərən elmi qurumların və ali təhsil müəssisələrinin elmi göstəricilərinə əsaslanan reytinq nəticələri açıqlanmışdır. Scopus, Web of Science və Google Scholar kimi beynəlxalq elmi bazaların məlumatları əsasında aparılan qiymətləndirməyə görə, Azərbaycan Dövlət Aqrar Universitetinin milli H-indeksi əvvəlki rübün nəticəsi ilə müqayisədə 12-dən 15-ə yüksəlmişdir. Ümumi göstəricilər üzrə müsbət dinamika qeydə alınmışdır. Belə ki, universitet ölkə üzrə 40 ali təhsil müəssisəsi arasında əvvəlki rübdə tutduğu 17-ci yerdən 16-cı pilləyə yüksəlmişdir.

Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kımqu Kanqın rəhbərlik etdiyi nümayəndə heyəti də bu il ADAU-nun qonağı olmuşdur. Səfirlə görüşən universitetin rektoru Zəfər Qurbanov ADAU-nun beynəlxalq əlaqələri, maddi-texniki bazası və akademik potensialı barədə qonağa ətraflı məlumat vermişdir. O, Koreya Respublikasının aqrar sahədə qabaqcıl texnologiyalar və innovativ yanaşmalara malik olduğunu qeyd edərək bu istiqamətdə universitetlər arasında əlaqələrin qurulmasının böyük əhəmiyyət daşıdığını bildirmişdir. Səfir Kımqu Kanqın ADAU-da kənd təsərrüfatı mütəxəssislərinin hazırlanması istiqamətində gördüyü işləri yüksək qiymətləndirmişdir. Gələcəkdə Koreya universitetləri ilə birgə layihələrin, təlimlərin və tələbə-müəllim mübadiləsinin həyata keçirilməsinə hazır olduqlarını bildirmişdir.

Azərbaycan Dövlət Aqrar Universitetində Dövlət İmtahan Mərkəzinin "Abituriyent Məsləhət Mərkəzi" də fəaliyyət göstərir. Mərkəzdə gələcək tələbələrə seçimlərini daha məqsədyönlü və məlumatlı şəkildə etmələri üçün ödənişsiz dəstək göstərilir.

Universitetdə "Oxu, təqaüd qazan! - Balın yüksəkdirsə, motivasiyan da yüksək olsun!" rubrikası altında maraqlı tədbir də keçirilmişdir. Bu tədbirdə sessiyaları yüksək balla başa vuran tələbələrin təqaüdləri artırılmışdır.

Bu il yaddaqalan hadisələrdən biri də "Yaşıl Gənclik: Dayanıqlı İnkişaf Məqsədlərinə Doğru" adlı yay məktəbinin açılışı olmuşdur. Təbiət qoynunda keçirilən yay məktəbi gənclərin ekoloji düşüncəsini formalaşdırmaq, onların dayanıqlı inkişaf sahəsində bilik və bacarıqlarını artırmaq məqsədi daşımışdır. Yay məktəbinin açılışında ölkəmizdə fəaliyyət göstərən 14 müxtəlif ali təhsil müəssisəsindən 50-yə yaxın tələbə iştirak etmişdir. Onlar bu məktəb vasitəsilə BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ilə yaxından tanış olmuş, iqlim dəyişmələri, tullantıların idarə olunması, alternativ enerji və "yaşıl innovasiya"lar barədə maarifləndirici sessiyalarda iştirak etmişlər.

Universitet bir sıra təsərrüfatlarla da əlaqələri genişləndirmişdir. "Agro Dairy" şirkətinin birgə təşkilatçılığı ilə Macarıstanın Kənd Təsərrüfatı və Həyat Elmləri Universitetindən (MATE) dəvət olunan mütəxəssislərin iştirakı ilə elmi-praktiki təlimlər keçirilmişdir. İki günlük proqram çərçivəsində ADAU-da keçirilən seminar və "Agro Dairy" şirkətinin təsərrüfatında baş tutan sahə təlimlərində iştirakçılara bitki mühafizəsi, alaq otlarının identifikasiyası, xəstəliklərin izlənməsi və müasir mübarizə üsulları barədə əyani və nəzəri bilgilər verilmişdir.

Kənd Təsərrüfatı Nazirliyi ilə "Yüksəliş" İctimai Birliyi arasında əməkdaşlıq çərçivəsində keçirilən "Üfüq" Karyera İnkişaf Proqramı üzrə müsabiqədə də ADAU-nun İnnovasiyalar Mərkəzinin müdiri Elvin Ağayev böyük uğur qazanmışdır.

Azərbaycan Dövlət Aqrar Universitetinin Aqronomluq fakültəsinin "Bitkilərin toxumçuluğu" ixtisası üzrə I kurs magistrantı Murad Kərimzadə Türkiyədə təşkil olunan beynəlxalq ixtisasartırma proqramında uğurla iştirak edərək BISAB tərəfindən sertifikatla təltif olunmuşdur. Hazırda o, Türkiyənin Antalya şəhərində yerləşən Batı Akdeniz Araşdırma İnstitutu və Akdeniz Universitetində keçirilən intensiv təlim proqramında bilik və bacarıqlarını daha da təkmilləşdirməkdədir. Proqram Türkiyə Respublikası Kənd Təsərrüfatı və Meşə Nazirliyinin nəzdində fəaliyyət göstərən Bitki Islahçıları Alt Birliyi (BISAB) tərəfindən həyata keçirilir.

Bu il Bolqarıstan Kənd Təsərrüfatı Akademiyasının nümayəndə heyəti də Azərbaycan Dövlət Aqrar Universitetində olmuş, səfər çərçivəsində ADAU-da bir sıra elmi-mədəni və akademik mübadilə görüşləri keçirmişdir. Qonaqlar universitetin maddi-texniki bazası, müasir laboratoriyaları, tədris resursları və geniş təcrübə sahələri ilə yaxından tanış olmuş, tələbə və akademik heyətin tədqiqat imkanlarını yüksək qiymətləndirmişlər.

***Arif QAZIYEV,***
***ADAU-nun biologiya kafedrasının müdiri***

# Qidalanma vərdişləri sağlamlığın əsas şərtidir



**Son** illərdə dünyada artıq çəki problemi təkcə estetik məsələ kimi deyil, qlobal sağlamlıq böhranı kimi qiymətləndirilir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatlarına görə, hazırda dünyada bir milyarddan artıq insan piylənmədən əziyyət çəkir və bu göstərici ildən-ilə artır. Artıq çəki ürək-damar xəstəlikləri, şəkərli diabet, xərçəngin bəzi növləri, hormonal pozuntular və psixoloji problemlər də daxil olmaqla bir çox ciddi xəstəliklərin riskini yüksəldir. Bu səbəbdən alimlər və tibb mütəxəssisləri uzun müddətdir ki, çəki artımının qarşısını almaq üçün yeni və daha təsirli üsullar axtarırlar. Son dövrlərdə bu axtarışlar fasiləli oruc və kalori məhdudlaşdırılması kimi pəhriz modellərinə xüsusi diqqətin yönəlməsinə səbəb olub.

Aparılan son elmi araşdırmalar göstərir ki, fasiləli enerji və ya kalori məhdudlaşdırılması təkcə çəki itkisi ilə nəticələnmir, eyni zamanda insan orqanizmində daha dərin, kompleks və uzunmüddətli dəyişikliklərə səbəb olur. Alimlər müəyyən ediblər ki, bu cür pəhriz modelləri beyin fəaliyyəti və bağırsaq mikrobiotasının quruluşu arasında sıx əlaqəni dəyişdirərək iştahanın tənzimlənməsinə, qida asılılığının azalmasına və maddələr mübadiləsinin daha səmərəli işləməsinə təsir göstərə bilər. Xüsusilə beyin-bağırsaq-mikrobiom oxu adlanan mexanizm son illərin ən çox araşdırılan mövzularından birinə çevrilib.

Çində aparılan genişmiqyaslı tədqiqat bu sahədə diqqətçəkən nəticələr ortaya qoyub. Çinli alimlər artıq çəkidən əziyyət çəkən 25 könüllünü 62 gün davam edən fasiləli enerji məhdudlaşdırma proqramına cəlb ediblər. Bu proqram çərçivəsində iştirakçılar müəyyən günlərdə aşağı kalorili qidalanıb, müəyyən dövrlərdə isə oruc tutublar. Tədqiqat müddətində onların həm bədən çəkisi, həm də beyin və bağırsaq fəaliyyəti mütəmadi olaraq müşahidə edilib. Nəticələr gözləniləndən daha yaxşı olub. İştirakçılar orta hesabla 7,6 kiloqram, yəni bədən çəkilərinin təxminən 7,8 faizini itiriblər. Lakin bu araşdırmanın əsas əhəmiyyəti yalnız çəki itkisi ilə məhdudlaşmayıb.

Araşdırma zamanı funksional maqnit rezonans görüntüləmə müayinələri vasitəsilə iştaha, impuls nəzarəti və asılılıq davranışları ilə əlaqəli beyin bölgələrində əhəmiyyətli aktivlik dəyişiklikləri qeydə alınıb. Eyni zamanda bağırsaq mikrobiotasının tərkibində də nəzərəçarpacaq dəyişikliklər baş verib. Bu dəyişikliklərin təsadüfi olmadığı, əksinə, bir-biri ilə sıx əlaqəli və zamanla dinamik şəkildə inkişaf etdiyi müəyyənləşdirilib. Çinin qabaqcıl mütəxəssislərindən biri olan Qiang Zeng qeyd edib ki, fasiləli enerji məhdudlaşdırılması insanlarda beyin-bağırsaq-mikrobiom oxunu real şəkildə dəyişdirir və arıqlama prosesi zamanı bu üç sistem arasında qarşılıqlı təsir daha da güclənir.

Bağırsaq mikrobiomu insan orqanizmində trilyonlarla bakteriyanın yaşadığı mürəkkəb ekosistemdir. Bu bakteriyalar təkcə həzmi deyil, immun sistemini, hormon balansını, hətta psixoloji vəziyyəti belə təsir altına alır. Son tədqiqatlar göstərir ki, bağırsaq bakteriyaları sinir sistemi və qan dövranı vasitəsilə beyinə təsir edən neyrotransmitterlər (sinir daşıyıcıları) və digər bioloji maddələr ifraz edə bilir. Çin Milli Geriatrik Klinikasının alimi Xiaoning Uang bildirib ki, bağırsaq mikrobiomu ilə beyin arasındakı əlaqə iki istiqamətlidir. Bir tərəfdən, mikrobiom beyinə təsir edir, digər tərəfdən isə beyin insanın yemək davranışını formalaşdıraraq bağırsaqdakı bakterial tarazlığı dəyişdirir. Bu qarşılıqlı əlaqənin daha dərindən öyrənilməsi artıq çəki ilə mübarizədə inqilabi yanaşmaların ortaya çıxmasına yol açacaq. Növbəti mərhələdə əsas məqsəd arıqlama zamanı hansı bağırsaq bakteriyalarının və hansı beyin bölgələrinin həlledici rol oynadığını dəqiq müəyyənləşdirməkdir. Bu biliklər gələcəkdə fərdiləşdirilmiş pəhriz və müalicə üsullarının hazırlanmasına imkan verə bilər.

Fasiləli oruc və kalori məhdudlaşdırılması mövzusu yalnız çəki itkisi baxımından deyil, həm də orqanizmin özünü bərpa mexanizmləri ilə əlaqəli olduğu üçün maraq doğurur. Bu mexanizmlərdən ən çox diqqət çəkəni autofagiya prosesidir. Qədim yunan dilində "özünü yemək" mənasını verən autofagiya hüceyrələrin daxilində baş verən təmizlənmə və yenilənmə prosesidir. Bu zaman yaşlanmış, zədələnmiş və funksiyasını itirmiş hüceyrə strukturları parçalanır və onların tərkib hissələri yeni hüceyrələrin bərpası üçün yenidən istifadə olunur. Heyvanlar üzərində aparılan araşdırmalarda autofagiyanın ömrü uzatdığı müşahidə edilib. Lakin bu nəticələrin insanlara tam şəkildə aid edilməsi üçün uzunmüddətli klinik tədqiqatlara ehtiyac var.

Fasiləli orucun autofagiyanı necə işə saldığı məsələsi də maraqlıdır. Qida qəbulundan sonra orqanizm əvvəlcə qan qlükozasından enerji mənbəyi kimi istifadə edir. Təxminən üç saat sonra bu mənbə azaldıqda qaraciyər və əzələlərdə toplanmış qlikogen ehtiyatları parçalanmağa başlayır. Qlikogen tükəndikdən sonra isə bədən yağ turşularından əmələ gələn ketonlara keçid edir. Ketoz adlanan bu mərhələdə autofagiya prosesi aktivləşir. Aşağı karbohidratlı qidalanma və müntəzəm fiziki fəaliyyət bu prosesi sürətləndirə bilər.

Bununla belə, mütəxəssislər vurğulayırlar ki, fasiləli oruc hər kəs üçün uyğun deyil və universal arıqlama metodu kimi qəbul edilməməlidir. Dietoloqların sözlərinə görə, insanlar sağlam qidalanma vərdişlərini öyrənmədən və həyat tərzlərini dəyişmədən yalnız oruca güvənərlərsə, pəhrizi dayandırdıqdan sonra yenidən çəki artımı ilə üzləşə bilərlər. Bu səbəbdən fasiləli oruc daha çox qidalanma vərdişlərini yenidən formalaşdırmaq üçün bir vasitə kimi qiymətləndirilməlidir. Fasiləli orucun müxtəlif formaları mövcuddur. Ən çox yayılan model 16/8 qaydasıdır. Bu modeldə insan 16 saat oruc tutur, qalan 8 saat ərzində isə qida qəbul edir. Oruc müddətinə yuxu saatları da daxil edilir.

Bu pəhriz zamanı maye qəbulu xüsusi əhəmiyyət daşıyır. Su, şəkərsiz çay və qəhvə kimi kalorisiz içkilərə icazə verilir. Lakin şəkərli içkilər, spirt və emal olunmuş məhsullar tövsiyə edilmir. Eyni zamanda yemək saatlarında qəbul edilən qidaların keyfiyyəti də mühüm rol oynayır. Zülalla zəngin qidalar, sağlam yağlar, tam taxıllar, meyvə və tərəvəzlər, eləcə də probiotiklərlə zəngin məhsullar bağırsaq mikrobiotasının balansını qorumağa kömək edir.

Bütün bu müsbət tərəflərə baxmayaraq, fasiləli orucun riskləri də mövcuddur. Bədən kütlə indeksi çox aşağı olan şəxslər, hamilə qadınlar, qidalanma pozğunluğu olan insanlar, uşaqlar və yaşlılar üçün bu pəhriz uyğun hesab edilmir. Eyni zamanda şəkərli diabet, aşağı qan təzyiqi və digər xroniki xəstəlikləri olan şəxslər də yalnız mütəxəssis nəzarəti altında bu rejimi tətbiq etməlidirlər.

Gündəlik rasionumuza əlavə edilən qidalar zamanla beynin düşünmə tərzini, bağırsağın ritmini və sağlamlığın ümumi istiqamətini formalaşdırır. Bu sahədə aparılan tədqiqatların bizə verdiyi ən böyük mesaj ondan ibarətdir ki, sağlamlıq möcüzə deyil, ardıcıl və şüurlu qidalanmanın təbii nəticəsidir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Ermənistan vətəndaşlarının məhkəməsi təqsirləndirilən şəxslərin son söz çıxışları ilə davam etdirilib

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası dekabrın 25-də davam etdirilib.





AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Sədrlik edən Z.Ağayev bildirib ki, məhkəmə iclası təqsirləndirilən şəxslərin son söz çıxışları ilə davam etdirilir.

Məhkəmə iclasında təqsirləndirilən şəxs Levon Mnatsakanyan son sözünü davam etdirib.

Təqsirləndirilən şəxs çıxışında ona qarşı irəli sürülən ittihamlarla razılaşmadığını bildirib və deyib: "Mənə qarşı irəli sürülmüş ittihamların heç birində özümü günahkar hesab etmirəm".

O, ibtidai istintaqda dediklərindən imtina etdiyini söyləyərək, məhkəmədən qərar qəbul edərkən yalnız məhkəmədə dediklərinin əsas kimi götürülməsini xahiş edib.

L.Mnatsakanyan fikirlərini sona qədər ifadə etməyə şərait yaratdığına görə məhkəməyə təşəkkür edib.

Sonda o, üç gün ərzində etdiyi çıxışı - 51 səhifəlik mətni məhkəmə protokollarına əlavə etmək üçün məhkəməyə təqdim edib.

Ardınca təqsirləndirilən şəxs Arkadi Qukasyan son söz çıxışı edib.

A.Qukasyan vəkillərinə prinsipiallıq göstərdiklərinə və onu doğru şəkildə müdafiə etdiklərinə görə təşəkkür edib və deyib: "Xüsusilə də həqiqəti üzə çıxarmaq üçün işə düzgün yanaşdıqlarına, həmçinin insani münasibətlərinə görə təşəkkür edirəm".

O, ittiham tərəfinin dəlilləri ilə razılaşmadığını bildirib və özünün əks arqumentlərini səsləndirib.

Təqsirləndirilən şəxs ittiham tərəfinin onun "Sovet Qarabağ"ı qəzetində çalışmasını cinayət kimi təqdim etdiyini və bununla razılaşmadığını söyləyib. O, qəzetin 4 nəfər redaktor müavinindən biri olduğunu, qəzetin rus dilinə tərcüməsi üzrə müavin vəzifəsində çalışdığını deyib. Əlavə edib ki, həmin vaxt tabeliyində 16 nəfər işçi olub. Təqsirləndirilən şəxs qəzetin fəaliyyətini cinayət hesab etmədiyini bildirib.

O, "böyük siyasət"dən 2007-ci ildə getdiyini və bir daha qayıtmadığını deyib.

A.Qukasyan ona qarşı irəli sürülmüş ittihamların heç biri ilə özünü təqsirli bilmədiyini söyləyib.

Sonra təqsirləndirilən şəxs Bako Sahakyan son söz çıxışı edib. B.Sahakyan çıxışında müdafiəçilərinin hər ikisinə təşəkkür edib: "Professionallığına və insani münasibətinə görə onlara minnətdaram. Hər iki vəkilin bu ittiham aktına olan münasibətini vəkillik və hüquqi cəhətdən çox yüksək keyfiyyətdə qiymətləndirmək olar".

O, çıxışında ittiham tərəfinin bildirdikləri ilə bağlı özünün əks arqumentlərini səsləndirib. İttiham tərəfinin onları cinayətkar birlik kimi təqdim etməsinə isə belə münasibət bildirib: "Cinayətkar təşkilat olmayıb, ola da bilməzdi".

Təqsirləndirilən şəxs Şuşanın işğalında iştirakından da danışıb: "Məhkəmə istintaqı başlayanda vəkilimə demişdim ki, bəli, Şuşada iştirakımla bağlı (Şuşanın işğal olunmasında iştirakını nəzərdə tutur - red.) epizod var və mən bunu məhkəmədə gizlədə bilmərəm".

Məhkəmə prosesi dekabrın 26-da davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni, Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# Axşama doğru yağıntılar tədricən kəsiləcək

Azərbaycanda bu günə gözlənilən hava şəraiti açıqlanıb.



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək.

Havanın temperaturu gecə 3-5, gündüz 6-8 dərəcə isti olacaq. Atmosfer təzyiqi 769 millimetr civə sütunundan 760 millimetr civə sütununa enəcək, nisbi rütubət 70-80 faiz təşkil edəcək. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Axşama doğru yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək, gündüz 5-9 dərəcə isti, dağlarda gecə 3-8 dərəcə şaxta, gündüz 0-5 dərəcə isti olacaq. Gecə bəzi dağlıq ərazilərdə yolların buz bağlaması ehtimalı var.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin sabiq sədri Oqtay Əsədova qızı

**NƏRMİNƏ ƏSƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov Milli Məclisin sabiq sədri Oqtay Əsədova qızı

**NƏRMİNƏ ƏSƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin prezidenti Hidayət Abdullayev və komitə kollektivi Azərbaycan Tennis Federasiyasının prezidenti Oqtay Əsədova qızı

**NƏRMİNƏ ƏSƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Xanlar Fətiyev Milli Məclisin sabiq sədri Oqtay Əsədova qızı

**NƏRMİNƏ ƏSƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4121
Sifariş 2604

Qiyməti 60 qəpik